RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 276 (9443) 17 DEKABR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Xalq Müzəffər Liderinin yanındadır



Hər kəs yaxşı xatırlayır, Azərbaycanı düşdüyü ən ağır vəziyyətlərdən, bir dövlət kimi yox olmaq təhlükəsindən xilas edən Ulu Öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək qarşıdan gələn seçkilərdə prezidentliyə namizəd, siyasi varisi, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırmışdı.

❖ ❖ ❖

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən xalqımız "dəmir yumruğ"a çevrilərək düşmənin başına zərbə endirdi, torpaqlarımız işğaldan azad edildi. Bu birlik milli mənafelərimizin həll olunduğu, istər hərbi, istər diplomatik olsun, bütün müstəvilərdə özünü göstərdi, eləcə də 23 saatlıq antiterror tədbirləri zamanı...

2020-ci il dekabrın 10-da Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında Prezident İlham Əliyev nitqində bu birliyimizə yüksək qiymət verərək demişdi: "Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".

→ 5

## Azərbaycan-Bəhreyn dostluq əlaqələrinin möhkəmləndirilməsində birgə səylər göstərəcəyik

### Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə

Əlahəzrət! Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan-Bəhreyn dostluq əlaqələrini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızı genişləndirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Bəhreyn xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2023-cü il*

## Azərbaycanı tarixinin ən uca zirvəsinə ucaldan rəhbər

Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi tarixi zəfərdən sonra ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyinin daha da möhkəmləndirilməsi, islahatların dərinləşdirilməsi, dayanıqlı inkişafın qorunub saxlanması prioritetlər kimi müəyyənləşdirilib. Prezident İlham Əliyev hakimiyyətdə olduğu son 20 il ərzində tarixi zəfərlərə imza atmaqla yanaşı, Azərbaycan xalqını qalib xalqa çevirən Müzəffər Ali Baş Komandandır. Ona görə də İlham Əliyevin namizədliyi Azərbaycanda inklüziv və davamlı inkişafın qorunması baxımından vacibdir.

30 il işğal altında qalan və tamamilə dağıdılaraq xarabalığa çevrilən torpaqlarımızda dövlət başçısının təşəbbüsü və xüsusi nəzarəti ilə hazırda genişmiqyaslı quruculuq işləri həyata keçirilir, artıq həm Qarabağda, həm də Şərqi Zəngəzurda intensiv qayıdışa start verilib.

→ 4

## Seçkilər İlham Əliyevə yüksək etimadı bir daha təsdiq edəcək

Bu gün Azərbaycan deyəndə 44 günlük Vətən müharibəsində inanılmaz zəfər çalmış, torpaqlarını geri qaytarmış və ötən üç il ərzində inkişafının ən yüksək səviyyəsinə çatan ölkə göz önünə gəlir. Əlbəttə, fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkisi də bir daha Azərbaycan xalqının arzusunun, iradəsinin, etimadının nümayişinə və təsdiqinə çevriləcək. Xalqımız birmənalı olaraq öz liderinə, Müzəffər Ali Baş Komandanına, yenilməz sərkərdəsinə səs verəcək. Bu səsvermə ilə Azərbaycan daha parlaq, inkişaf etmiş günlərini yaşayacaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu günə qədər olduğu kimi, 7 fevral tarixindən sonra da daha böyük addımlarla həm Cənubi Qafqaz regionunun, həm də dünyanın parlaq ulduzuna çevriləcək.

→ 4

## Məqsədyönlü siyasətin inkişaf nailiyyətləri

### Bu siyasəti yürüdən Prezident İlham Əliyev Azərbaycana daha böyük uğurlar qazandıracaq

**Bu gün Azərbaycan regionun müasir iqtisadi-siyasi mənzərəsini müəyyənləşdirən qlobal layihələrin həm təşəbbüskarı, həm də icraçısıdır. Bu layihələr bizə sülh, davamlı inkişaf, vətəndaşlara rifah gətirir. Onlardan böyük bir coğrafiyada yaşayan insanlar da faydalanırlar. Azərbaycanın tutduğu yol, təklif etdiyi gələcək hər kəsin maraqlarına xidmət edir.**

Mürəkkəb, ziddiyyətlərlə dolu dünyamızda dövlətin belə bir inkişaf xəttini qoruyub saxlamaq, yaranmış reallıqları yeni fürsətlərə çevirmək, toqquşan maraqlar arasında tarazlığı təmin etmək ölkə rəhbəri üçün böyük bacarıqdır. Digər tərəfdən, dövrünün bütün qüdrətli liderlərinin uğurunu şərtləndirən əsas cəhətlərdən biri də məhz strateji düşüncə, zamanın axarını duymaq bacarığı və gələcəyə hazır olmaq əzmidir. Onda bütün qeyri-müəyyənliklər hazırlıqla qarşılanır, yaranmış fürsətlər anında dəyərləndirilərək reallaşdırılır, hətta ortaya çıxan çətinliklər belə yeni imkanlara çevrilir. Bu baxımdan Prezident İlham Əliyevin xüsusilə xarici ölkələrin media qurumlarına verdiyi müsahibələr ölkə həqiqətlərinin beynəlxalq auditoriyaya düzgün çatdırılması, Azərbaycanın informasiya müharibəsində üstünlüyü üçün son dərəcə önəmlidir.

Bu günlərdə dövlətimizin başçısının "Euronews" televiziyasına verdiyi müsahibə də ölkəmizin regionda yaratdığı yeni reallıqların, mövcud və gələcək inkişaf proseslərindəki rolunun, sabaha strateji baxışının dünyaya çatdırılması baxımından geniş ictimaiyyət tərəfindən böyük maraqla qarşılanıb.

→ 4

## "Qordi düyünü"nü kəsən siyasi həmlə

### Prezident İlham Əliyev bununla Azərbaycanın böyük güclərin çəkişmə meydanına çevrilməsinə imkan vermədi

Bu yerdə türk qardaşlarımızın bir deyimi yada düşür: "Evdəki hesabla çarşıdakı (bazardakı) hesab tutmadı". Bəli, Ermənistan Prezident İlham Əliyevin siyasi gedişlərini hesablaya bilməmişdi. Azərbaycan Zəngəzur dəhlizində beynəlxalq güclərin və regional ölkələrin siyasi çəkişməsində tərəf olmaq əvəzinə "Araz dəhlizi"nin açılması barədə İranla razılaşdı. Baxmayaraq ki, həmin dövrdə bizim qonşu ölkə ilə siyasi əlaqələrimiz çox gərgin idi, dövlətimizin başçısı uzaq hədəfləri əsas tutaraq lazım olan düzgün qərarı qəbul etdi. Təsadüfi deyil ki, Prezidentin bu addımı Qərbdə və Ermənistanda şok effekti yaratdı.

→ 8

## YAP-ın qərarı xalqın istəyinin ifadəsidir

Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin, həyata keçirilən iqtisadi və siyasi islahatların məntiqi nəticəsi olaraq Azərbaycan tarixinin ən güclü dövrünə qədəm qoyub: "Bu mənada qədirbilən Azərbaycan xalqı və səs hüququna malik 720 min siyasi fəal vətəndaşının birləşdiyi bir partiyanın da növbədənkənar prezident seçkilərində iradəsinin məhz cənab İlham Əliyevin üzərinə fokuslanması çox təbiidir. Məlumdur ki, dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq bizim 6 ali konstitusion niyyətimizdən biridir. Azərbaycan öz müstəqilliyini bərpa etdiyi 32 il ərzində, daha dəqiq desək, real müstəqilliyimizin 30-cu ilində biz, nəhayət ki, ilk dəfə olaraq bəyan edə bilirik ki, Azərbaycan Müzəffər Ali Baş Komandanının qətiyyəti sayəsində bütün aspektlərdə müstəqilliyini, ərazi bütövlüyünü təmin etmiş, bütün suveren ərazilərində Konstitusiya quruluşunu bərqərar etmiş dövlətdir".

→ 5

## Yolumuz abad, işimiz avand



→ 6

## Müzəffər Liderə etimadın təzahürü

İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi milyonlarla vətəndaşın öz müzəffər liderinə olan tükənməz sevgisinin və etimadının təzahürüdür. Prezident olaraq fəaliyyət göstərdiyi dövrdə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev dövlətinə, xalqına bağlılığını hər addımda nümayiş etdirib. "İlham Əliyev Prezident kimi xalq qarşısında üzərinə götürdüyü bütün öhdəlikləri uğurla yerinə yetirərək, verdiyi sözlərə əməl edib. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa edib, üçrəngli bayrağımızı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalandırıb. "Qarabağ Azərbaycandır!" şüarını dilindən düşürməyən xalqımız uzun illər min bir zəhmət hesabına bu şüarı yaradan və həyata keçirən ölkə rəhbərinin yanında olaraq onun xarici və daxili siyasətini, o cümlədən Qarabağda və ölkənin digər bölgələrində quruculuq işlərini fəal şəkildə dəstəkləyəcək".

→ 5

## Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabaha

Əlahəzrət!

Qardaşınız - Küveyt Dövlətinin Əmiri Şeyx Nəvaf əl-Əhməd əl-Cabir əs-Sabahın vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, ailənizin bütün üzvlərinə, Küveyt Dövlətinin dost xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2023-cü il*

# Baş nazir Əli Əsədov Rusiyaya işgüzar səfər edib





Dekabrın 16-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasına işgüzar səfərə gedib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

# Azərbaycan müəllimlərinin XVI qurultayı başa çatıb









**Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Azərbaycan müəllimlərinin XVI qurultayı başa çatıb.**

AZƏRTAC xəbər verir ki, qurultayın ikinci günündə Prezident İlham Əliyevin təbrik məktubunda əksini tapan konseptual müddəalar ətrafında çıxışları və plenar sessiyalarda irəli sürülən təklifləri nəzərə alaraq qətnamə qəbul edilib.

Daha sonra Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyun tarixli sərəncamı ilə ali təhsilin bakalavriat səviyyəsində əyani formada təhsil alan, təhsildə yüksək nailiyyətləri olan 100 tələbəyə "Heydər Əliyev adına təqaüd" təqdim olunub.

Qurultay bədii hissə ilə davam edib.

İki gün davam edən qurultayda "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan təhsili", "İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış, "Azərbaycan dili yeni çağırışlar müstəvisində", "Rəqəmsallaşma, süni intellekt və təhsilin transformasiyası", "Ümumi təhsilin məzmununa müasir yanaşmalar", "Ümumi təhsilin idarə olunmasına müasir yanaşmalar", "Peşə təhsili və gələcək üçün bacarıqlar", "Müəllim hazırlığı və müəllimlərin peşəkar inkişafının prioritet məsələləri", "Elm və ali təhsilin inteqrasiyası", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlbi: inklüziv, inteqrasiyalı və xüsusi təhsil", "Məktəbəqədər təhsilin məzmunu və əhatə dairəsinin genişləndirilməsi", "Heydər Əliyev adına təqaüd"ə layiq görülmüş tələbələrlə görüş", "İbtidai təhsildə öyrənmə və öyrətmə müxtəlifliyi", "Azərbaycan dili və ədəbiyyat fənlərinin tədrisinə yeni yanaşmalar", "Müasir dövrdə təbiət fənlərinin tədrisi", "Müasir dövrdə riyaziyyat fənninin tədrisi", "Tarix və coğrafiya fənlərinin tədrisinə yeni baxış", "Xarici dillərin öyrənilməsi: yeni imkanlar", "İncəsənət, texnologiya və fiziki tərbiyə fənlərinin kamil şəxsiyyətin formalaşmasında rolu", "İnnovativ layihələr: STEAM, "Rəqəmsal bacarıqlar" və s. mövzularda panellərdə müzakirələr aparılıb.

Azərbaycan müəllimlərinin ilk qurultayı 1906-cı ildə keçirilib. Qurultay ənənəvi olaraq 5 ildən bir təşkil edilir. Müstəqillik dövründə Azərbaycan müəllimlərinin 4 qurultayı keçirilib.

# "Diplomatik Protokol Bələdçisi" təqdim olunub






**Dekabrın 16-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması çərçivəsində Xarici İşlər Nazirliyi tərəfindən hazırlanan yeni "Diplomatik Protokol Bələdçisi"nin təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, ADA Universitetində təşkil olunmuş tədbirdə Xarici İşlər Nazirliyinin nümayəndələri, xarici ölkələrin və beynəlxalq təşkilatların Azərbaycanda akkreditə olunmuş diplomatik missiyalarının rəhbərləri və əməkdaşları iştirak ediblər.

Tədbirdə çıxış edən XİN-in Dövlət protokolu idarəsinin rəisi Anar Nəcəfli xarici ölkələrin və beynəlxalq təşkilatların Azərbaycanda akkreditə olunmuş diplomatik missiya üzvlərinin immunitet və imtiyazlarının əks olunduğu "Diplomatik Protokol Bələdçisi" barədə məlumat verib.

Qırx bölmədən ibarət bələdçidə akkreditasiya qaydalarının, vergi və gömrük güzəştlərinin və digər diplomatik immunitet və imtiyazların öz əksini tapdığı vurğulanıb. Bələdçinin elektron formatda və kitab şəklində dərc olunduğu qeyd edilib.

Sonra Ulu Öndər Heydər Əliyevin 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycanın xarici siyasətinə dair videoçarx təqdim olunub. Tədbirdə çıxış edən Xarici İşlər Nazirliyinin Asiya idarəsinin rəisi Ramil Rzayev 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gələn zaman ölkəmizin ərazisinin bir hissəsinin işğal altında olmasına, dərin iqtisadi çətinliklərlə üzləşməsinə baxmayaraq, Ulu Öndərin Azərbaycanda qısa müddətdə siyasi böhrana son qoyduğunu, 1998-2003-cü illərdə apardığı uğurlu xarici siyasət sayəsində respublikamızın xarici ölkələrin etibarlı tərəfdaşına çevrildiyini və beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutduğunu vurğulayıb. Bu baxımdan "Diplomatik Protokol Bələdçisi"nin Ulu Öndərin anadan olmasının 100 illik yubileyi dövründə hazırlanmasının xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Daha sonra çıxış edən Xarici İşlər Nazirliyinin Dövlət protokolu idarəsinin rəis müavini Rövşən Hüseynzadə "Diplomatik Protokol Bələdçisi"ndə əks olunan diplomatik immunitet və imtiyazlar ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

# Moldovada Heydər Əliyevin 100 illiyinə həsr olunan fotosərgi açılıb



**Moldovanın paytaxtı Kişineu şəhərində AZƏRTAC-ın təşəbbüsü və Moldova Azərbaycanlıları Konqresinin, Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan fotosərginin rəsmi açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Moldova Dövlət Universitetində keçirilən sərgidə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini, dünya liderləri ilə görüşlərini, beynəlxalq təşkilatlarda çıxışlarını əks etdirən fotolar nümayiş olunub.

Çıxış edən Moldova Parlamentinin deputatı, Moldova-Azərbaycan Parlamentlərarası dostluq qrupunun həmsədri Vitali Jakot bildirib ki, Heydər Əliyev Azərbaycan xalqının tarixində dərin iz qoyub, məhz onun müdrikliyi və biliyi sayəsində Azərbaycan regionun lider dövlətinə, mühüm beynəlxalq layihələrdə iştirak edən etibarlı tərəfdaşa çevrilib. Deputat həmçinin Azərbaycan ilə Moldova arasında əlaqələrin məhz Heydər Əliyevin dövründə inkişaf etməyə başladığını və bu gün iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını söyləyib.

Heydər Əliyevin dünyaşöhrətli lider olduğunu deyən Azərbaycanın Moldovadakı səfirliyinin birinci katibi İlqar Fərəcov qeyd edib ki, Ümummilli Lider Azərbaycan və Moldova münasibətlərinin memarıdır. "Heydər Əliyev Azərbaycanın bugünkü inkişafının əsasını qoyub. Ulu Öndərin siyasəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir", - deyə İlqar Fərəcov əlavə edib.

Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Bayramov isə çıxışında Ulu Öndərin Azərbaycan diasporunun inkişafındakı xidmətlərindən danışıb. Xaricdə yaşayan soydaşlarımızın Vətənə bağlılığının Ulu Öndərin tarixi xidmətləri sırasına daxil olduğunu diqqətə çatdırıb.

Daha sonra Moldova Millətlərarası Münasibətlər Agentliyinin nümayəndəsi Kristina Reilan, Moldova Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin nümayəndəsi Nataliya Putina çıxış edərək Heydər Əliyevin xidmətlərindən, iki ölkə arasında əməkdaşlığın inkişafından danışıblar.

Qeyd edək ki, sərgi bir həftə davam edəcək.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 453** **QƏRAR** **Bakı şəhəri, 15 dekabr 2023-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 1 dekabr tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasının razılaşdırılması haqqında Qərar"da və 2009-cu il 25 dekabr tarixli 200 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yaşayış sahəsinin (qeyri-yaşayış sahəsinin) qeyri-yaşayış sahəsinə (yaşayış sahəsinə) keçirilməsi (keçirilməsindən imtina) haqqında bildirişin forması və məzmunu"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 730-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 1 dekabr tarixli 187 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1062) ilə təsdiq edilmiş "Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasının razılaşdırılması haqqında Qərar"a "təqdim edilmiş" sözlərindən sonra "və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 24.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla əldə edilmiş" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 200 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1075) ilə təsdiq edilmiş "Yaşayış sahəsinin (qeyri-yaşayış sahəsinin) qeyri-yaşayış sahəsinə (yaşayış sahəsinə) keçirilməsi (keçirilməsindən imtina) haqqında bildirişin forması və məzmunu"nda birinci halda "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin" sözləri "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 21.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla və həmin Məcəllənin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 454** **QƏRAR** **Bakı şəhəri, 15 dekabr 2023-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə məlumatların verilməsi Qaydaları"nda və 2013-cü il 18 yanvar tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 828-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 816; 2015, № 5, maddə 647) ilə təsdiq edilmiş "Dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə məlumatların verilməsi Qaydaları"nın 2.6.1.7-ci yarımbəndi və "Qeyd" hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 68; 2015, № 5, maddə 637; 2016, № 10, maddə 1726; 2018, № 5, maddə 1129) ilə təsdiq edilmiş "Gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6.7.4-cü yarımbənddən ", icazə blanklarının verilməsi" sözləri çıxarılsın;

2.2. 8.8-ci bənddə "Gömrük orqanlarına həvalə edilmiş beynəlxalq avtomobil daşımalarını tənzimləyən "icazə" blanklarının verilməsinə nəzarəti və bu sahədə" sözləri "Beynəlxalq avtomobil daşımaları sahəsində" sözləri ilə əvəz edilsin;

2.3. 8.8.1-ci yarımbənd və "Qeyd" hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanla ICESCO arasında yüksəksəviyyəli əməkdaşlıq əlaqələri mövcuddur

**Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığına rəsmi səfəri çərçivəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.**









Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan ilə ICESCO arasında yüksəksəviyyəli əməkdaşlıq əlaqələrinin mövcud olduğunu deyən Sahibə Qafarova, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin İslam dünyasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, dünyada sülhün və təhlükəsizliyin təşviqi sahəsində böyük səylər göstərən mühüm təşkilatlardan olan ICESCO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini bildirib. Spiker deyib ki, Azərbaycanın öz torpaqlarını Ermənistanın işğalından azad etməsi ilə nəticələnən Vətən müharibəsi zamanı ICESCO-nun ölkəmizin haqq işini dəstəkləyən bəyanatlar verməsi və müharibə başa çatdırdan sonra bölgəyə ilk texniki heyət göndərən beynəlxalq təşkilat olması Azərbaycanda yüksək qiymətləndirilir.

Milli Məclisin Sədri sivilizasiyalararası dialoqun təşviqi, təhsil və digər sahələrdə gördüyü işlərə görə ICESCO-nun xoşməramlı səfiri adına layiq görülmüş Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini xüsusi qeyd edib.

Görüşdə Azərbaycanın müsəlman ölkələri arasında həmrəyliyin və qarşılıqlı hörmətin möhkəmləndirilməsi istiqamətində davamlı səyləri barədə danışılıb. "Bakı prosesi" çərçivəsində uğurlu əməkdaşlıq qeyd olunub, qurumun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə keçirilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarının əsas tərəfdaşı rolunda çıxış etməsi yüksək dəyərləndirilib.

Azərbaycan ilə ICESCO arasında keçən il imzalanmış Fəaliyyət Planının əhəmiyyəti barədə danışan Milli Məclisin Sədri bildirib ki, ölkəmiz gənclər, təhsil, mədəni irsin qorunması və bərpası kimi mühüm sahələrdə təşkilatla əməkdaşlığın davam etdirilməsində maraqlıdır. Təşkilatın Bakı şəhərində Regional Ofisinin fəaliyyətə başlaması ilə bu əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olunub.

Milli Məclisin Sədri Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunmasından dərin məmnunluğunu ifadə edərək bunun Şuşanın İslam sivilizasiyasının mərkəzlərindən biri kimi əhəmiyyətini nümayiş etdirmək üçün yaxşı fürsət olacağını bildirilib.

Söhbət zamanı parlamentlərin ICESCO ilə elm, təhsil, mədəniyyət sahələrində gələcək əməkdaşlıq perspektivlərinə toxunulub. Bu çərçivədə Milli Məclisin Sədri ICESCO və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə əməkdaşlığın perspektivləri barədə fikirlərini bölüşüb.

ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik rəhbərlik etdiyi təşkilatın Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirib. O, ötən illərdə Azərbaycana səfərləri çərçivəsində ölkə rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayıb, imzalanmış Fəaliyyət Planının ICESCO ilə Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcəyini bildirib. Baş direktor Heydər Əliyev Fondunun İslam dünyasında təhsil, elm, mədəniyyət sahələrində gördüyü işləri yüksək qiymətləndirib. O, Azərbaycanın ianə ayırmasını onun ICESCO-nun işinə dəstəyinin daha bir təzahürü kimi dəyərləndirib. Baş direktor ICESCO-nun işinə verdikləri dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü ifadə edib.

Salim bin Məhəmməd əl-Malik Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etmək hüququ qazanmasına, həmçinin Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunmasına görə təbriklərini çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

* * *

Mərakeş Krallığına rəsmi səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Peyğəmbər muzeyi və "İslam və Mərakeş" sərgisi ilə tanış olub.

Spiker Sahibə Qafarova xatirə kitabını imzalayıb.

Səfər çərçivəsində nümayəndə heyəti V Məhəmməd məqbərəsinə də gedərək burada V Məhəmmədin və II Həsənin məzarlarını ziyarət edib.

*"Azərbaycan"*

# ICESCO-nun mənzil-qərargahında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert təşkil edilib

**Mərakeşin paytaxtı Rabat şəhərində, ICESCO-nun mənzil-qərargahında, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert təşkil edilib.**





Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti konsertdə iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə çıxış edən ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik və Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi və xalqı qarşısında misilsiz xidmətləri, Ulu Öndərin xalqımızın milli-mədəni dəyərlərinə diqqət və qayğısı, onun qlobal təşəbbüsləri barədə danışıblar.

Konsertdə Azərbaycanın mədəniyyət nazirinin müavini, Xalq artisti Murad Hüseynovun ifasında musiqilər səsləndirilib. Konsertin sonunda spiker Sahibə Qafarova incəsənət xadimləri və qonaqlarla söhbət edib.

*"Azərbaycan"*

## Mərkəzi Seçki Komissiyasında

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

**Dekabrın 16-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Komissiyanın 2023-cü il oktyabrın 18-də və 20-də, dekabrın 8-də keçirilmiş iclaslarının protokolları təsdiq olunub.

Sonra bəzi seçki dairələri üzrə yeni seçki məntəqələrinin yaradılması məsələsinə baxılıb. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə məskunlaşan və uzunmüddətli tikinti-quruculuq işlərində çalışan çoxsaylı seçicilərin seçki hüquqlarının qanunvericiliyə uyğun təmin edilməsi, eləcə də Seçki Məcəlləsinin bununla bağlı tələbinin ödənilməsi məqsədilə müvafiq seçki dairələrinin dairə seçki komissiyaları tərəfindən yeni seçki məntəqələrinin təşkili zərurəti yaranıb. Komissiyanın qərarı ilə 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində qanunvericiliyin tələblərinə uyğun olaraq 1 saylı Şərur-Sədərək, 2 saylı Şərur-Kəngərli, 3 saylı Babək-Şahbuz-Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək-Naxçıvan-Culfa, 47 saylı Sumqayıt-Abşeron-Qaradağ, 75 saylı Yardımlı-Masallı, 84 saylı Füzuli, 97 saylı Tərtər-Naftalan-Goranboy, 118 saylı Ağdam şəhər, 120 saylı Cəbrayıl-Qubadlı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd, 125 saylı Zəngilan-Qubadlı seçki dairələrinin hüdudları daxilində yeni seçki məntəqələrinin yaradılması və həmin seçki məntəqələri üzrə yeni məntəqə seçki komissiyalarının formalaşdırılması aidiyyəti seçki dairələrinin dairə seçki komissiyalarına həvalə olunub.

İclasda sözügedən seçkilərlə əlaqədar maarifləndirmə tədbirlərinin təşkilinə dair məsələyə də baxılıb. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na və Seçki Məcəlləsinə əsasən seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə çoxsaylı layihələri əhatə edən genişmiqyaslı maarifləndirmə proqramının gerçəkləşdirilməsi qərara alınıb.

Media nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda həmçinin bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

## QƏRAR № 8/19

### Mərkəzi Seçki Komissiyasının 2023-cü il 18 oktyabr, 20 oktyabr və 8 dekabr tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2023-cü il 18 oktyabr, 20 oktyabr və 8 dekabr tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

***16.12.2023***

## QƏRAR № 8/21

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində maarifləndirmə proqramının həyata keçirilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 8 dekabr 2023-cü il tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 25.2.7-ci maddəsinə əsasən Mərkəzi Seçki Komissiyası seçkilərin hazırlanması və keçirilməsi, seçki sistemi və praktikasının təkmilləşdirilməsi, seçicilərin məlumatlandırılması, seçki iştirakçılarının maarifləndirilməsi, eləcə də dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi məqsədilə müxtəlif layihələrin gerçəkləşdirilməsini təmin edir.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 3.10-cu bəndinə uyğun olaraq, Mərkəzi Seçki Komissiyası dairə və məntəqə seçki komissiyalarının üzvləri üçün mütəmadi qaydada seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar keçirir.

Buna görə də Seçki Məcəlləsi ilə vəzifə və səlahiyyətləri müəyyənləşdirilmiş qurumların da iştirakı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri dövründə dairə seçki komissiyalarının sədrləri üçün müşavirə keçirilməsi, dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi üçün səsvermə günü prosedurlarına həsr olunan treninqlərin və digər layihələrin təşkil olunması, dövlət avtomatlaşdırılmış informasiya sisteminin işini dairə seçki komissiyalarında təmin edən kompüter mütəxəssisləri üçün seminar-treninqlər keçirilməsi, televiziya və radio proqramları, eləcə də digər yayım qurumları vasitəsilə seçki qanunvericiliyinin izahı, seçicilərin məlumatlandırılması, əyani vəsaitlər hazırlanması, nümayiş etdirilməsi və digər maarifləndirmə tədbirlərinin reallaşdırılması Mərkəzi Seçki Komissiyası tərəfindən təmin edilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.7-ci, 25.3-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq qərara alır:

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri dövründə seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə çoxsaylı layihələri əhatə edən genişmiqyaslı maarifləndirmə proqramı həyata keçirilsin.
2. Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyaları öz səlahiyyətləri daxilində bu Qərarın icrası ilə əlaqədar müvafiq tədbirlər görsün.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

***16.12.2023***

## QƏRAR № 8/20

### Bəzi seçki dairələri üzrə yeni seçki məntəqələrinin yaradılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 8 dekabr 2023-cü il tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilmişdir.

Bununla əlaqədar işğaldan azad edilmiş ərazilərdə məskunlaşan və uzunmüddətli tikinti-quruculuq işlərində çalışan çoxsaylı seçicilərin seçki hüquqlarının qanunvericiliyin tələbinə əsasən təmin edilməsi, habelə Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 35.3-cü maddəsinin tələblərinin ödənilməsi məqsədilə müvafiq seçki dairələrinin dairə seçki komissiyaları tərəfindən yeni seçki məntəqələrinin yaradılması zərurəti yaranmışdır.

Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq 1 saylı Şərur - Sədərək, 2 saylı Şərur - Kəngərli, 3 saylı Babək - Şahbuz - Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək - Naxçıvan - Culfa, 47 saylı Sumqayıt - Abşeron - Qaradağ, 75 saylı Yardımlı - Masallı, 84 saylı Füzuli, 97 saylı Tərtər - Naftalan - Goranboy, 118 saylı Ağdam şəhər, 120 saylı Cəbrayıl - Qubadlı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa - Ağdam - Xocalı - Xocavənd və 125 saylı Zəngilan - Qubadlı seçki dairələrinin hüdudları daxilində yeni seçki məntəqələrinin yaradılması və məntəqə seçki komissiyalarının təşkili müvafiq seçki dairələrinin dairə seçki komissiyalarına həvalə edilməlidir.

Qeyd edilənlərə əsasən Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 17.6.19-cu, 19.4-cü, 28.4-cü və 35-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 1 saylı Şərur - Sədərək, 2 saylı Şərur - Kəngərli, 3 saylı Babək - Şahbuz - Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək - Naxçıvan - Culfa, 47 saylı Sumqayıt - Abşeron - Qaradağ, 75 saylı Yardımlı - Masallı, 84 saylı Füzuli, 97 saylı Tərtər - Naftalan - Goranboy, 118 saylı Ağdam şəhər, 120 saylı Cəbrayıl - Qubadlı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa - Ağdam - Xocalı - Xocavənd və 125 saylı Zəngilan - Qubadlı seçki dairələrinin hüdudları daxilində Seçki Məcəlləsində nəzərdə tutulan müddətlərə dair tələblərə riayət edilməklə yeni seçki məntəqələrinin yaradılması və həmin seçki məntəqələri üzrə məntəqə seçki komissiyalarının təşkili müvafiq seçki dairələrinin dairə seçki komissiyalarına həvalə edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

***16.12.2023***

## QƏRAR № 8/22

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Nizami Fərman oğlu Novruzov 8 saylı Binəqədi birinci, Nofəl Mülazim oğlu Əhmədov 9 saylı Binəqədi ikinci, Fərid Ülfət oğlu Babayev 38 saylı Gəncə birinci, Orxan Rasim oğlu Əzizov 114 saylı Şəki şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.
2. Bəsti Leysan qızı Cəfərova 38 saylı Gəncə birinci, Tangiz Val qızı Məmmədova 114 saylı Şəki şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

***16.12.2023***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## Azərbaycanı tarixinin ən uca zirvəsinə ucaldan rəhbər

Yeni Azərbaycan Partiyası (YAP) qalib Azərbaycan xalqının qalib lideri İlham Əliyevi prezidentliyə namizəd irəli sürüb. Yeni inkişaf dövrünə qədəm qoymuş xalqımız onu tarixinin ən yüksək zirvəzinə qaldıran İlham Əliyevə öz təşəkkürünü mövcud şəraitdə bu şəkildə ifadə edir. Bu gün bütün Azərbaycan xalqı Prezident İlham Əliyevin yanındadır və ona tam etimad göstərir.



Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi tarixi zəfərdən sonra ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyinin daha da möhkəmləndirilməsi, islahatların dərinləşdirilməsi, dayanıqlı inkişafın qorunub saxlanması prioritetlər kimi müəyyənləşdirilib. Prezident İlham Əliyev hakimiyyətdə olduğu son 20 il ərzində tarixi zəfərlərə imza atmaqla yanaşı, Azərbaycan xalqını qalib xalqa çevirən Müzəffər Ali Baş Komandandır. Ona görə də İlham Əliyevin namizədliyi Azərbaycanda inklüziv və davamlı inkişafın qorunması baxımından vacibdir.

Deputat qeyd edib ki, müstəqil yanaşma ilə İlham Əliyevin prezidentliyinin davamlılığının əhəmiyyətini çoxsaylı faktorlarla əsaslandırmaq mümkündür: "Əvvəla ona görə ki, Müzəffər Ali Baş Komandan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən dövlət başçısıdır. Prezidentin rəhbərliyi ilə şanlı ordumuz yüz minlərlə məcburi köçkünün ata-baba yurdlarını düşmən torpağından azad edib. 30 il işğal altında qalan və tamamilə dağıdılaraq xarabalığa çevrilən torpaqlarımızda dövlət başçısının təşəbbüsü və xüsusi nəzarəti ilə hazırda genişmiqyaslı quruculuq işləri həyata keçirilir, artıq həm Qarabağda, həm də Şərqi Zəngəzurda intensiv qayıdışa start verilib".

Vüqar Bayramov İlham Əliyevin prezidentliyinin davamlılığını şərtləndirən vacib amillərdən danışarkən onu da deyib ki, son 20 ildə Azərbaycan regionda ən böyük uğurlara imza atan dövlətlərdəndir: "Nəticədə ÜDM 4, büdcə gəlirləri 30, xarici ticarət dövriyyəsi 10 dəfə artıb. Xarici borcun ÜDM-dəki payına görə, Azərbaycan dünyada ən yaxşı göstəriciyə malik 10 ölkə arasındadır. Son 20 ildə sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarını keçib ki, onun da 190 milyard dolları qeyri-enerji sektoruna yönəlib. Göründüyü kimi, Azərbaycan 20 il ərzində iqtisadi sahədə ciddi uğurlara nail olub".

Deputat vurğulayıb ki, bu amillər arasında ən vacibi isə İlham Əliyevin Ulu Öndərin müəyyənləşdirdiyi ideyaları inkişaf etdirən və milli strategiyanı daha da gücləndirən dövlət başçısı olmasıdır. "Bütün bunlar deməyə əsas verir ki, bu seçki Azərbaycan üçün yeni mərhələnin başlanğıcı olacaq. Bu mərhələ bütün sferalarda islahatların daha da dərinləşməsi, Böyük qayıdışın intensiv davam etdirilməsi və Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyinin daha da güclənməsi ilə xarakterizə olunacaq", - deyə Vüqar Bayramov bildirib.

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*



# Məqsədyönlü siyasətin inkişaf nailiyyətləri

## Bu siyasəti yürüdən Prezident İlham Əliyev Azərbaycana daha böyük uğurlar qazandıracaq

*Əvvəli 1-ci səh.*

### Sülh üçün beş təməl prinsipi

Öncə qeyd edək ki, Azərbaycan Cənubi Qafqaz geosiyasi məkanının aparıcı dövləti, əsas söz sahibidir. Xüsusilə son onilliklərdə ölkəmiz çox mühüm uğurlar qazanmış, başqa dövlətlərlə ikitərəfli münasibətlərə, eləcə də regionumuzun geostrateji təhlükəsizliyinə əhəmiyyətli töhfələr vermişdir. Vətən müharibəsindəki tarixi qələbəmizlə Azərbaycan bölgədə yeni bir reallıq yaratmışdır. Bu reallıqla Cənubi Qafqazın böyük bir inkişaf yolu, yerləşdiyimiz coğrafiyada çox geniş əməkdaşlıq, qarşılıqlı fayda mühiti başlanır. Azərbaycan belə bir gerçəklikdə inkişaf proseslərinə istiqamət verən, bölgəmizdəki sülh, təhlükəsizlik, dayanıqlı inkişaf mühitinin qoruyucusu missiyasını yerinə yetirən mövqeyini daha da möhkəmləndirir. Müstəqil dövlətimiz beynəlxalq strateji tərəfdaş kimi qlobal məkanda getdikcə daha böyük nüfuz qazanır.

Hazırda regionla bağlı beynəlxalq ictimaiyyəti maraqlandıran əsas məsələlərdən biri Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsindən sonra Ermənistanla mümkün sülh sazişinin imzalanması barədə olduğundan dövlətimizin başçısına verilən sualların müəyyən bir qismi məhz bu istiqaməti əhatə edirdi.

Ölkəmizin işğaldan və etnik təmizləmədən əziyyət çəkməsi, bir milyon azərbaycanlının Ermənistan hökuməti tərəfindən deportasiya edilməsi və təxminən sahəsi 15 min kvadratkilometr olan ərazinin dağıdılması faktını diqqətə çatdıran Prezident İlham Əliyev bütün bunlara rəğmən onu da bildirdi ki, sülh sazişini imzalamaq və delimitasiya işlərini başlamaq üçün təklif verən ölkə yenə də Azərbaycandır. Dövlət rəhbərimiz xüsusi vurğuladı ki, hazırda Qarabağ məsələsi bitdikdən sonra Ermənistan Azərbaycanla razılığa gəlməkdə daha həvəsli olacaq. Çünki suverenliyimizin bərpası və Qarabağda qeyri-qanuni separatçı rejimin ləğv edilməsi ilə Ermənistana daha cəsarətli davranmağa və ya danışıqlara getməyə mane olan əsas amil artıq mövcud deyil.

Prezident İlham Əliyev sülh sazişinin şərtlərinə də bir daha diqqət yönəltdi. Nəzərə çatdırdı ki, Azərbaycan sülh sazişi üçün əsas götürüləcək beş təməl prinsipi hazırlayıb: bunlar bir-birinin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması; gücdən istifadə etməmə; bir-birinə ərazi iddialarının olmaması; iki ölkə arasında kommunikasiyaların açılması və münasibətlərin normallaşması. Bu şərtlərin hər biri beynəlxalq hüquqa əsaslanır.

Dövlət rəhbərimiz rəsmi İrəvanın sülh sazişinə Azərbaycanda erməni azlığı məsələsini daxil etmək cəhdlərinə də münasibət bildirdi. Bir daha xatırlatdı ki, Ermənistanda azərbaycanlıların sayı ermənilərin Azərbaycandakı sayından daha çox olub və təxminən 300 min insanı təşkil edib. Əgər rəsmi İrəvan Azərbaycanda erməni azlığı məsələsini əks etdirmək istəyirsə, onda biz də otuz il əvvəl Ermənistandan qovulmuş azərbaycanlı azlığı məsələsini daxil etmək istərdik: "Bir sözlə, mövqeyimiz belədir ki, həmin məsələ qarşılıqlı olmalıdır. Biz iki milli azlığın məsələsini, onların hüquqları və təhlükəsizliyini, o cümlədən qayıtmaq hüququnu qeyd edək. Yəni təkcə ermənilərin Azərbaycana qayıtması deyil, o cümlədən azərbaycanlıların Ermənistana qayıtması məsələsini qoyuruq. Azərbaycanlıların 30 il əvvəl qovulması və ermənilərin iki ay əvvəl ölkəmizi tərk etmək qərarı arasında fərqin əhəmiyyəti yoxdur".

Prezident İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan dövləti Qarabağ ermənilərinin yaşadıqları yerdə qalması istəyində olub. Bunu verilmiş ictimai bəyanatlar və sonradan atılmış addımlar da göstərir. Azərbaycanın ermənilərin reinteqrasiyası üçün elektron qeydiyyat portalını yaratması, qayıtmaq istəyən hər kəsə belə bir hüququn verilməsi buna nümunədir. Azərbaycan dövləti onların mülkiyyətini də lazımi şəkildə qoruyur, həmçinin bütün tarixi və dini yerləri mühafizə edir.

Dövlətimizin rəhbəri Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı ölkə olduğunu, burada bir çox etnik qrupların yaşadığını və bu etnik qrupların bəzilərinin, onlara mənsub insanların Qarabağdakı erməni əhalidən qat-qat çox olduğunu, onların hamısının sülh içində yaşayıb, bütün hüquq və təminatlardan faydalandıqlarını vurğuladı. Müsahibəsində Prezident İlham Əliyev qeyd etdi ki, Qarabağ ermənilərinin hüquqları da təmin olunacaq. Onların dil, tədris, din, bələdiyyə hüquqları nəzərə alınıb. Onlar bələdiyyə seçkiləri vasitəsilə öz nümayəndələrini seçə və orada yaşamaqda davam edə bilərlər. Azərbaycan Prezidenti tam ədalətli və beynəlxalq hüquqa əsaslanmış belə bir yanaşmanı da bölüşdü ki, əgər Ermənistandan qovulmuş azərbaycanlı məcburi köçkün ora geri qayıtsa, o, Qərbi Azərbaycan Respublikasının sakini olduğunu deməyəcək. Prezident İlham Əliyev bu gün Azərbaycanın müxtəlif yerlərində erməni əhalisinin heç bir problem olmadan yaşadığını, ermənilərin və azərbaycanlıların Rusiyada, Ukraynada bir yerdə, Gürcüstanda hətta eyni kəndlərdə yaşadıqlarını diqqətə çatdırdı.

### Ölkəmiz müstəqil siyasətinə davam edəcək

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın həyata keçirdiyi səmərəli xarici siyasətlə bağlı da bəzi fikirlərini bölüşdü, ölkəmizin qonşularla münasibətlərinin dostluğa, qarşılıqlı marağa əsaslandığını bildirdi. Eyni zamanda qeyd etdi ki, bizim Avropa təsisatları ilə münasibətlərimizin də öz müsbət dinamikası var. Həmçinin Azərbaycanın müsəlman ölkələri ilə münasibətləri həmrəylik və tərəfdaşlıq nümunəsidir.

Azərbaycan Prezidenti bəyan etdi ki, dövlətimiz beynəlxalq arenada müstəqil siyasət yürütməkdə davam edəcək. Prezident İlham Əliyev ölkəmizin artıq dördüncü ildir ki, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik etdiyini, 120 üzv ölkənin ümumi rəyinə əsasən, Azərbaycanın Qoşulmama Hərəkatına yeni ölçü və dinamika verməkdə önəmli rol oynadığını diqqətə çatdırdı. Beynəlxalq birliyin 200-dən artıq ölkədən ibarət olduğunu və bu ölkələrin əksəriyyətinin Azərbaycanı dəstəklədiyini vurğuladı. Qeyd edək ki, ötən dörd ildə Azərbaycan Qoşulmama Hərəkatının institusional inkişafı ilə bağlı çoxlu addımlar atıb. Qurumun parlament və gənclər platformaları yaranıb, hazırda qadınlar üçün platformanın yaradılması üzərində işlər aparılmaqdadır. Bundan başqa, Azərbaycan COVID pandemiyası məsələsi ilə bağlı çox böyük fəallıq göstərərək 80-dən çox ölkəyə yardım göstərib. Qoşulmama Hərəkatında sədrlik statusu Azərbaycana öz səmərəli siyasətini, imkanlarını nümayiş etdirməyə şərait yaradıb.

Azərbaycan bu gün bir çox böyük beynəlxalq oyunçular tərəfindən etibarlı tərəfdaş hesab edilir və bu əməkdaşlığın real nəticələri göz önündədir. Ölkəmizi istənilən rəqabətdən, geosiyasi mübarizədən və ya böyük dövlətlərin toqquşmasından qorumaq üçün lazımi addımlar atılır. Azərbaycan müstəqil xarici və daxili siyasətə malik ölkədir və bu siyasəti milli maraqlara əsaslanaraq yürüdür. Əsas amillərdən biri ölkəni qarşıdurma, yaxud rəqabət arenasına çevirməməklə dövləti mənfi xarici təsirdən və daxili işlərə müdaxilədən qorumaqdır. Prezident İlham Əliyev bəyan etdi ki, hazırda Azərbaycanın daxilində risklər yoxdur. Ölkəmiz çox sabit siyasi sistemə malikdir, xalqımızın çox güclü birliyi var, xüsusilə işğal olunmuş ərazilərimizin azad edildiyi tarixi Qələbədən sonra milli birliyimiz daha da güclənmişdir. Əsas beynəlxalq aktorlarla yaxşı siyasi əlaqələr, özünü təmin edən iqtisadiyyat və ölkədəki siyasi sabitlik və birlik - bütün bu amillər Azərbaycanda daxili risklərin olmadığını göstərir.

### Azərbaycan bütün xarici borclarını qısa müddətdə ödəyə bilər

Dövlətimizin başçısı İlham Əliyev onu da vurğuladı ki, sabitlik olmasa, investisiya, iqtisadi inkişaf və təhlükəsizlik də olmaz. O, SPECA Proqramına üzv olan bütün ölkələrlə Azərbaycanın hazırda mükəmməl əlaqələrinin olduğunu, ölkəmizin Mərkəzi Asiyada, Mərkəzi Asiyanın isə Azərbaycanda investisiyalarının durmadan artdığını bildirdi. Son iki ildə Azərbaycan və bütün Mərkəzi Asiya ölkələri arasında və Mərkəzi Asiya ölkələrinin özləri arasında fəal qarşılıqlı əlaqə görünməmiş dərəcədə yüksəkdir.

Prezident İlham Əliyev o faktı da yada saldı ki, Rusiyaya qarşı sanksiyalara görə Avropa qitəsinə qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyasının müraciətinə müsbət cavab verilib. Yanacaq enerjisi sahəsinə investisiyaların qoyuluşu bundan sonra da davam etdiriləcək. Çünki təbii ehtiyatlar baxımından Azərbaycan böyük potensiala malikdir. Avropada Azərbaycan qazına böyük ehtiyac var və bu ehtiyac getdikcə artmaqdadır. Eyni zamanda bərpaolunan enerji mənbələri birbaşa xarici investisiyaların əsas istiqaməti olacaq. Azərbaycan Prezidenti ötən ay regionun ən böyük, 230 meqavat gücündə olan və xarici investorlar tərəfindən tam maliyyələşdirilmiş günəş-elektrik stansiyasının açılışının olduğunu, növbəti 5-6 ildə 10 qiqavat həcmində günəş və külək enerjisinin istehsalının planlaşdırıldığını diqqətə çatdırdı. Eyni zamanda bildirdi ki, enerji sahəsinin inkişafı neft hasilatından təbii qaz istehsalına keçid etsə də, ölkəmizin neft hasilatı və ixracı hələ də bir çox ölkənin enerji təhlükəsizliyinin bir hissəsidir. Üç il öncə 3500 kilometr uzunluğunda inteqrasiya edilmiş qaz boru kəmərlərindən ibarət olan "Cənub qaz dəhlizi"nin başa çatdırılması Azərbaycana özünün qaz təchizatının coğrafiyasını genişləndirmək imkanı yaradıb. Bu gün ölkəmiz Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Rumıniyaya qaz ixrac etməkdədir.

Neft və qaz sektoru iqtisadiyyatımızın əsas hissəsi olmaqda davam edir. Bu il neft hasilatının cüzi aşağı düşməsi səbəbindən ölkəmizin iqtisadi artımı nisbətən zəif olsa da, son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) dörd dəfə artıb və bu, çox əhəmiyyətli nailiyyətdir. Bu nailiyyəti təmin edən aparılmış məqsədyönlü islahatlardır. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 300 milyard dollardan çox sərmayə cəlb edilib. Ölkəmiz iqtisadiyyatı şaxələndirməyə, neft və qaz sektorundan asılılığı azaltmağa nail olub. Azərbaycanın logistika imkanlarından istifadə də mənfəətin artımında mühüm rol oynayacaq. Belə ki, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərindən Azərbaycan ərazisindən keçən, müxtəlif istiqamətlərə daşınan 10 milyonlarla ton əlavə yük gözlənilir. Bu, məşğulluq, əlavə vəsait, Azərbaycanın geosiyasi əhəmiyyəti deməkdir.

Azərbaycan Prezidenti müsahibəsində onu da qeyd etdi ki, 2030-cu il üçün baxışımızın əsas hədəfi və strategiyası öz resurslarımıza, maliyyə imkanlarımıza əsaslanır və qarşıdan gələn illərdə iqtisadi artımı təmin edəcək sahələrə yerli və xarici investisiyaların qoyuluşundan ibarətdir. Ölkəmizin xarici borcunun səviyyəsi hər il azalır. Hazırda bu rəqəm ÜDM-in 10 faizindən də azdır. Növbəti il üçün hədəf ÜDM-in 7 faizidir. Bu isə Azərbaycan iqtisadiyyatının dayanıqlılığını nümayiş etdirir. Ölkəmiz belə bir göstərici ilə tez bir zamanda öz xarici borclarını ödəmək iqtidarındadır. Dünyada bunu edə biləcək ölkələrin sayı o qədər də çox deyil.

Cənab İlham Əliyev işğal dövründə də iqtisadiyyatımızın inkişaf etdiyini, indi isə ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdiyimizi vurğuladı. Hazırda büdcədə daha çox vəsaitin toplanması üçün genişmiqyaslı iqtisadi islahatlar aparıldığını qeyd etdi, həmçinin gömrük və vergi inzibatçılığı sahəsində olduqca uğurlu islahatların həyata keçirildiyini bildirdi.

Azərbaycan Prezidenti onu da diqqətə çatdırdı ki, yaxın dövrlərdə əsas dövlət xərcləri azad edilmiş Qarabağa və Şərqi Zəngəzura yönləndiriləcək. Çünki keçmiş məcburi köçkünləri mümkün qədər tez yerləşdirməliyik. 2026-cı ilin sonunadək 140 min insanın yerləşdirilməsi planlaşdırılır. Bunun üçün isə infrastruktura, yaşayış yerlərinin inşasına və sosial infrastruktura böyük vəsait yatırılmalıdır.

Düşünülmüş sosial siyasət sayəsində son 20 ildə Azərbaycanda yoxsulluğun səviyyəsi 50 faizdən 5,5 faizə qədər enib. Bu onu nümayiş etdirir ki, enerji layihələrinin həyata keçirilməsi nəticəsində əldə edilmiş sərvət əhalimizin bütün seqmentləri arasında ədalətli bölünüb.

Bütün bunlar son 20 il ərzində həyata keçirilən məqsədyönlü daxili və xarici siyasətin, inkişaf layihələrinin həyatımıza gətirdiyi nailiyyətlərdir. Azərbaycan bu nailiyyətləri daha da möhkəmləndirəcək, strateji inkişaf xəttini davam etdirərək daha böyük uğurlar qazanacaq.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

## Seçkilər İlham Əliyevə yüksək etimadı bir daha təsdiq edəcək

"Dekabrın 15-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin genişləndirilmiş iclasında İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilib. Bu qərar yalnız Yeni Azərbaycan Partiyası üzvlərinin deyil, eyni zamanda bütün Azərbaycan xalqının istəyini, arzusunu, rəyini ifadə edir".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva deyib. Deputat bildirib ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin simasında özünə böyük lider qazanıb. Məhz dövlət başçısının həyata keçirdiyi dönməz iradəli və qətiyyətli siyasət sayəsində Azərbaycan mümkün olmayanları mümkün edib.

Azərbaycanın otuz il əvvəlki ölkə olmadığını qeyd edən J.Əliyeva bildirib ki, ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olunub, üçrəngli bayrağımız uzun illər işğal altında qalan torpaqlarımızda qürurla dalğalanır. "Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda sürətlə nəhəng quruculuq işləri aparan, ölkədə davamlı inkişafa istiqamətlənən layihələr reallaşdıran, hər bir vətəndaşın həyat şəraitinin yaxşılaşdırılması üçün sosial layihələr təşəbbüskarı olan, eyni zamanda müstəqil siyasət həyata keçirən Azərbaycanı yalnız diplomatiya, ordu quruculuğu sahəsində deyil, həmçinin sosial, səhiyyə, mədəniyyət, təhsil sahələrində də dünyanın aparıcı ölkələrindən birinə çevirən liderdir. Biz Azərbaycanı Cənubi Qafqazın ulduzuna çevirən bir liderdən danışırıq. Sadaladığımız bütün quruculuq işlərinin, inkişafın, irəliyə doğru atılan addımların hər birinin arxasında Prezident İlham Əliyevin imzası, iradəsi, qətiyyətli siyasəti dayanır", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, bu gün Azərbaycan deyəndə 44 günlük Vətən müharibəsində inanılmaz zəfər çalmış, torpaqlarını geri qaytarmış və ötən üç il ərzində inkişafının ən yüksək səviyyəsinə çatan ölkə göz önünə gəlir. Əlbəttə, fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkisi də bir daha Azərbaycan xalqının arzusunun, iradəsinin, etimadının nümayişinə və təsdiqinə çevriləcək. Xalqımız birmənalı olaraq öz liderinə, Müzəffər Ali Baş Komandanına, yenilməz sərkərdəsinə səs verəcək. Bu səsvermə ilə Azərbaycan daha parlaq, inkişaf etmiş günlərini yaşayacaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu günə qədər olduğu kimi, 7 fevral tarixindən sonra da daha böyük addımlarla həm Cənubi Qafqaz regionunun, həm də dünyanın parlaq ulduzuna çevriləcək.

J.Əliyeva deyib: "Davamlı olaraq seçicilərin arasında olduğumuzdan və onlarla keçirdiyimiz çoxsaylı görüşlərdən gəldiyimiz qənaət bundan ibarətdir ki, Azərbaycan xalqının bir seçimi var. O da Prezident İlham Heydər oğlu Əliyevdir".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## Müzəffər Liderə etimadın təzahürü

"Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyevi Prezident seçməklə sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirib. Zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" qiymətini alan dövlət başçımız Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 20 il ərzində özünün milli dövlət idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Prezident İlham Əliyev hələ 20 il əvvəl geosiyasi tendensiyaları görürdü və ölkənin hansı istiqamətdə inkişaf etməli olduğunu, strateji prioritetlərin harada müəyyən edildiyini bilirdi: Azərbaycan güclü iqtisadiyyat qurmalı, peşəkar və təchiz olunmuş ordu yaratmalı və dünyada öz layiqli yerini tutmalı idi. Yalnız bu yolla ölkə regionun liderinə və qlobal siyasətin aktoruna çevrilə bilərdi.



K.Bayramov qeyd edib ki, Azərbaycanın tarixində ərazi bütövlüyünü təmin edən, ölkənin uzunmüddətli inkişaf konsepsiyasını hazırlayıb həyata keçirən, milləti öz ətrafında birləşdirən, milyonlarla soydaşımızı bir yumruğa çevirən ikinci belə lider olmayıb: "İlham Əliyev Azərbaycan dövlətinin qüdrətini bütün dünyaya göstərdi, ölkəsinin nüfuzunu, xalqının ləyaqətini, özünəinam hissini artırdı. 44 günlük Vətən müharibəsi, 2023-cü ilin antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaratdı. Növbədənkənar seçkilərin keçirilməsi ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir".

Deputat diqqətə çatdırıb ki, dekabrın 15-də Yeni Azərbaycan Partiyası tərəfindən İlham Əliyevin 2024-cü il fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərinə namizədliyi irəli sürülüb və bununla bağlı qərar yekdilliklə qəbul edilib. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və YAP Sədrinin müavini Əli Əhmədov partiyanın növbədənkənar prezident seçkilərindəki səlahiyyətli nümayəndəsi təyin edilib. Partiyanın Seçki qərargahının yaradılması barədə qərar qəbul olunub.

K.Bayramov qeyd edib ki, növbədənkənar prezident seçkilərini Zəfər seçkiləri də adlandırmaq olar. İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi milyonlarla vətəndaşın öz müzəffər liderinə olan tükənməz sevgisinin və etimadının təzahürüdür. Prezident olaraq fəaliyyət göstərdiyi dövrdə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev dövlətinə, xalqına bağlılığını hər addımda nümayiş etdirib. "İlham Əliyev Prezident kimi xalq qarşısında üzərinə götürdüyü bütün öhdəlikləri uğurla yerinə yetirərək, verdiyi sözlərə əməl edib. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa edib, üçrəngli bayrağımızı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalandırıb. "Qarabağ Azərbaycandır!" şüarını dilindən düşürməyən xalqımız uzun illər min bir zəhmət hesabına bu şüarı yaradan və həyata keçirən ölkə rəhbərinin yanında olaraq onun xarici və daxili siyasətini, o cümlədən Qarabağda və ölkənin digər bölgələrində quruculuq işlərini fəal şəkildə dəstəkləyəcək", - deyə o əlavə edib.

Prezident İlham Əliyevin yürütdüyü siyasətin sayəsində Azərbaycanın müttəfiqlərinin və dostlarının sayının artdığını vurğulayan deputat ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildiyini, özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrlik etdiyini xatırladıb. Təşkilata sədrlik müddətinin daha bir il artırılması Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir.

Deputat vurğulayıb ki, bu gün Azərbaycan dünyanı həm də azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işləri ilə heyrətləndirir. Qarabağda və Şərqi Zəngəzurda yeni yollar çəkilir, elektrik stansiyaları tikilir. Dövlət başçısı işğaldan azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur. Bu ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.

K.Bayramov qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası məqsədilə 7 iyul 2021-ci il tarixdə imzaladığı fərmanla Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyən edilib, bununla da regionun yeni iqtisadi və siyasi reallığı rəsmiləşdirilib: "Fərmana əsasən ölkəmizdə yaradılmış 14 yeni iqtisadi rayon sistemli islahatların davamı olaraq dayanıqlı inkişafı təmin edir. Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişib, regionların iqtisadi potensialı artıb, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşıb, əhalinin rifah halı yüksəlib".

Deputat sonda qeyd edib ki, bütün bunlar 7 fevral növbədənkənar prezident seçkilərinin nəticələrini indidən müəyyənləşdirən siyasi-iqtisadi faktorlardır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



## Xalq Müzəffər Liderinin yanındadır

**Çoxəsrlik dövlətçilik tarixinə malik Azərbaycan ötən 20 il ərzində özünün ən qüdrətli, ən qürurlu məqamına yüksəlib. İşğala məruz qalan ölkədən Zəfər ölkəsinə çevrilib. Suverenliyimiz tam təmin edilib, bayrağımız bütün ərazilərimizdə dalğalandırılıb. Onilliklər boyu talanan, daşı daş üstündə qalmayan Qarabağ və Şərqi Zəngəzurda yeni həyat qurulub, Böyük qayıdışa başlanılıb, yurdundan didərgin salınmış insanlarımız dədə-baba torpaqlarına qovuşmağa başlayıb.**

Beynəlxalq arenada etibarlı və güvənilən tərəfdaş kimi tanınan, qlobal miqyaslı problemlərin həllinə mühüm töhfələr verən Azərbaycanın adı bu gün dünyanın nüfuzlu ölkələri sırasında çəkilir.

Son 20 il ərzində əldə edilən siyasi, iqtisadi, hərbi, diplomatik, ümumiyyətlə, bütün sahələr üzrə qazanılan qələbələrin, əldə edilən nailiyyətlərin altında isə nəyi necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilən Prezident İlham Əliyevin qızıl imzası, möhürü var.

Məhz buna görədir ki, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyası İdarə Heyəti tərəfindən dekabrın 15-də İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsini böyük razılıq və sevinclə qarşıladı.

### Zirvəyə doğru gələn 20 il

Azərbaycanın adına ard-arda qazanılan uğurlar, qalibiyyətlər müdrik xalqımızın lider seçimində yanılmamasının, düzgün qərar verməsinin parlaq təcəssümüdür.

Hər kəs yaxşı xatırlayır, Azərbaycanı düşdüyü ən ağır vəziyyətlərdən, bir dövlət kimi yox olmaq təhlükəsindən xilas edən Ulu Öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək qarşıdan gələn seçkilərdə prezidentliyə namizəd, siyasi varisi, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırmışdı.

Ulu Öndər əminliklə bildirmişdi ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Həmin vaxt Ümummilli Liderin səsinə səs verən xalqımız 2003-cü il oktyabrın 15-də böyük inam və güvənlə İlham Əliyevə səs verdi, Onu özünün Prezidenti seçdi.

Budur, artıq həmin tarixdən iki onillik keçib və indi bərqərar olduğumuz mövqedən ötən illərə nəzər saldıqda Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasət, əzm və qətiyyət sayəsində Azərbaycanın necə qürurverici bir yol qət etdiyinin şahidi oluruq.

Dövlət başçısı İlham Əliyev 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs "Qurani-Kərim"ə əl basaraq and içdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin təmin edib, Xankəndidə bayrağımızı dalğalandıraraq bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğunu bəyan edib.

### Birliyin əzəməti

Cəmi 20 il ərzində bu möhtəşəm zirvəyə yüksəlməyimizə rəvac verən başlıca qüvvə isə, heç şübhəsiz, dövlət-xalq birliyimiz oldu.

İlk başdan dövlət başçısı İlham Əliyev çıxdığı bu taleyüklü yolda Azərbaycan xalqına arxalandı, müqəddəratının həll olunması istiqamətində isə xalqımız böyük etimad göstərdiyi İlham Əliyevi özünə arxa-dayaq gördü.

Məhz bu birlik sayəsində Azərbaycanın qarşısında aşa bilməyəcəyi çətinlik, həll edə bilməyəcəyi problem qalmadı, daim işıqlı gələcəyə doğru inamla irəlilədi.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən xalqımız "dəmir yumruğ"a çevrilərək düşmənin başına zərbə endirdi, torpaqlarımız işğaldan azad edildi. Bu birlik milli mənafelərimizin həll olunduğu - istər hərbi, istər diplomatik olsun - bütün müstəvilərdə özünü göstərdi, eləcə də 23 saatlıq antiterror tədbirləri zamanı...

2020-ci il dekabrın 10-da Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında Prezident İlham Əliyev nitqində bu birliyimizə yüksək qiymət verərək demişdi: "Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".

### Bu seçkiyə qalib xalq kimi gedəcəyik...

Qarşıdan daha bir tarixi hadisə - növbədənkənar prezident seçkiləri gəlir. Prezidentin sərəncamı ilə 2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkiləri təyin edilib.

Vurğulayaq ki, bu seçkini digərlərindən fərqləndirən, əlahiddə edən bir neçə xüsusi məqam var. Suverenliyimizin təmin olunması sayəsində tarixdə ilk dəfədir ki, bütün torpaqlarımızda, onilliklərdir işğal altında olan ərazilərimizdə seçki keçirəcəyik...

İlk dəfədir ki, seçkiyə zəfər xalqı olaraq gedəcəyik...

Dekabrın 15-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin genişləndirilmiş iclasında dövlət başçısı, partiyanın Sədri İlham Əliyevin növbədənkənar prezident seçkilərində namizədliyi irəli sürülüb.

Lakin İlham Əliyev bütün Azərbaycan xalqının ürəkdən dəstəklədiyi namizəddir.

Qədirbilən xalqımız 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində - Zəfər seçkisində İlham Əliyevə səs verməyi həm də özünün qalib lider İlham Əliyevə minnətdarlıq borcunu ödəyəcəyi fürsət, şans kimi dəyərləndirir, bunu böyük fəxr, qürur, ehtiram hissi ilə dilə gətirir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## YAP-ın qərarı xalqın istəyinin ifadəsidir

"Növbədənkənar prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası İdarə Heyətinin genişləndirilmiş iclasında İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi yalnız 720 min üzvü olan bir siyasi təşkilatın yox, bütövlükdə 10 milyonluq Azərbaycan xalqının, hətta 50 milyonluq azərbaycanlı kimliyinin təkidli tələbidir. Yaranışı belə ictimai-siyasi zərurətdən doğan və Heydər Əliyev şəxsiyyətinin işığında formalaşan bir təşkilatın bu gün öz qərarını xalqın tələbi əsasında qəbul etməsi təbiidir və çox müdrik yanaşmadır".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, ölkəmizdə son 105 ildə ictimai-siyasi formasiya 3 dəfə dəyişib, Azərbaycan sabit inkişaf dövrünə isə məhz ötən əsrin 60-cı illərinin sonunda, Ulu Öndər ilk dəfə siyasi hakimiyyətə gəldikdən sonra qədəm qoyub: "Hətta ozamankı ittifaq çərçivəsində belə tam şəkildə feodal təfəkkürdən çıxa bilməyən cəmiyyətdə, iqtisadi gerilik və zəngin tarixi-mədəni irsin ərimək üzrə olduğu bir dövrdə Ulu Öndər Azərbaycana yeni nəfəs verib. Dahi liderin siyasi hakimiyyətdən 6 illik kənarlaşdığı dövr isə Azərbaycan tarixinin ən ağır və utancverici keçid dövrünə çevrilib. Bütün bu yaşananlar xalqın gen yaddaşına çevrilib və bu gün üzərindən yarım əsr keçməsinə baxmayaraq, hər bir azərbaycanlı Heydər Əliyev siyasi kursunun əhəmiyyətini, bu kursun davamlılığının ümummilli zərurət olduğunu dərk edir".



Bəhruz Məhərrəmov əlavə edib ki, bu kursun parlaq davamçısı, milli özünüdərki və inkişafı yeni mərhələyə yüksəltmiş İlham Əliyev şəxsiyyətinin rolu nəinki Azərbaycan xalqı, Cənubi Qafqaz başda olmaqla, bütün regionumuzda təsirli iz buraxmaqdadır. Siyasi suverenliyimizin möhkəmlənməsinə, tam iqtisadi müstəqilliyə nail olunmasına, ərazi bütövlüyünə, sərhəd toxunulmazlığına, beynəlxalq hüquqla tanınan bütün ərazilərimizdə konstitusiya quruluşunun bərqərar olunmasına məhz Prezident İlham Əliyevin rəhbərliyi altında nail olunub. Əsrlərdir məğlubiyyətlərə adət etmiş, itkilər verməkdə davam edən bir toplumdan qalibiyyət anlayışını unutmuş bir xalqdan müzəffər topluma möhtərəm İlham Əliyevin sayəsində çevrilə bilmişik. Bu xalq məhz Heydər Əliyev siyasi kursuna sadiq qalan Prezident İlham Əliyevin qətiyyəti ilə 3 il ərzində düşməni 2 dəfə kapitulyasiyaya məcbur edən qalibə çevrilib.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin, həyata keçirilən iqtisadi və siyasi islahatların məntiqi nəticəsi olaraq Azərbaycan tarixinin ən güclü dövrünə qədəm qoyub: "Bu mənada qədirbilən Azərbaycan xalqı və səs hüququna malik 720 min siyasi fəal vətəndaşının birləşdiyi bir partiyanın da növbədənkənar prezident seçkilərində iradəsinin məhz cənab İlham Əliyevin üzərinə fokuslanması çox təbiidir. Məlumdur ki, dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq bizim 6 ali konstitusion niyyətimizdən biridir. Azərbaycan öz müstəqilliyini bərpa etdiyi 32 il ərzində, daha dəqiq desək, real müstəqilliyimizin 30-cu ilində biz, nəhayət ki, ilk dəfə olaraq bəyan edə bilirik ki, Azərbaycan Müzəffər Ali Baş Komandanının qətiyyəti sayəsində bütün aspektlərdə müstəqilliyini, ərazi bütövlüyünü təmin etmiş, bütün suveren ərazilərində Konstitusiya quruluşunu bərqərar etmiş dövlətdir".

Zəfərimizlə yeni reallıqların yarandığını, tələblərimizin və prioritetlərimizin dəyişdiyini vurğulayan B.Məhərrəmov deyib: "Bizim böyük quruculuq və bərpa, xüsusən Qarabağ və Şərqi Zəngəzura həyatın qaytarılması, bütövlükdə vətəndaşların sosial rifahının yaxşılaşdırılması, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsinin təmin edilməsi, sabitliyin və təhlükəsizliyin davamlılığının qorunması kimi hədəflərimiz var. Prezident İlham Əliyevin özünün də ifadə etdiyi kimi, "İndi müstəqillik tariximizin inkişaf dövrünün qürurverici, yeni mərhələsindəyik". Bu gün tam yeni inkişaf dövrünə qədəm qoyduğumuz qalib və qüdrətli Azərbaycanda isə Heydər Əliyev siyasi kursuna və şəxsən İlham Əliyevin siyasi təfəkkürünə, onun müzəffər rəhbərliyinə əvvəlki dövrlərdən daha çox ehtiyac var".

Deputat sonda Azərbaycan xalqının Ümummilli Liderinin siyasi kursunun, cənab İlham Əliyev siyasətinin alternativi olmadığını yaxşı bildiyini qeyd edib. Əminik ki, fevralın 7-də müdrik xalqımız bizi qələbədən-qələbəyə aparan, Azərbaycanı tarixinin ən güclü və qalib dövlətinə çevirən Müzəffər Liderinə özünün minnətdarlıq borcunu ifadə edərək firavan və təhlükəsiz gələcəyinə, Heydər Əliyev siyasi kursuna dəstək verəcək.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*



# MÖHTƏŞƏM 20 İL 2003 2023





# Yolumuz abad, işimiz avand

## Azərbaycanda yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində işlər davamlı xarakter daşıyır






Hər hansı bir kəndin, yaxud şəhərin abadlığı ilk növbədə yolundan bəlli olur. Bu deyimdəki həqiqəti son 20 ildə genişmiqyaslı yol tikintisi aparan ölkəmizin hər böyük və kiçik yaşayış məntəqəsinin simasında, eləcə də hərtərəfli inkişafında aydın görmək mümkündür. Belə ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində Azərbaycanın magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulub. Eləcə də yeni avtomobil yolları, körpülər və yol ötürücüləri inşa edilərək əhalinin istifadəsinə verilib.

Bu dövrdə təkcə Bakı şəhərində 2 000 kilometrdən çox yol çəkilib, yenidən qurulub və təmir edilib. Əlbəttə ki, bölgələr də unudulmayıb. Regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramları çərçivəsində minlərlə kilometr şəhər və kəndarası yollar çəkilib, yaxud əsaslı təmir olunub. Azərbaycanı qonşu ölkələrlə birləşdirən ən müasir yollar tikilib. Üç ildir bu işlər daha geniş miqyas alıb. Azərbaycan düşmən tapdağından azad etdiyi torpaqlarında yeni yollar çəkir. Həmin yerlərdə tikinti-quruculuq və bərpa işlərinə də məhz yollardan başlanıb.

İşğaldan azad olunmuş ərazilərdə ilkin mərhələdə 2 453,9 kilometr avtomobil yolunun bərpası və yenidən qurulması nəzərdə tutulub. Bunun 185,5 kilometrində işlər artıq başa çatıb. Bu işlər Prezidentin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həyata keçirilib.

Qarabağda və Şərqi Zəngəzurda yol tikintisi uğurla davam edir. Bu istiqamətdə son aylarda görülən işlərdən bəzilərini xatırladaq. Cari il avqustun 25-də Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanış oldu. İnşası sürətlə davam etdirilən 75,8 kilometr uzunluğunda yeni yol mövcud yoldan 32 kilometr qısa olacaq. Yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4163 metr olan 23 körpü də inşa edilir.

Bütün ölkədə olduğu kimi, Qarabağda və Şərqi Zəngəzurda da yolların şəbəkəsi getdikcə genişlənir. Elə cari ay ərzində dövlət başçısı bununla bağlı yeni sərəncamlar imzalayıb. Dekabrın 4-də Prezident Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam verib. 80 kilometr uzunluğu olan Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə (AAYDA) 17 milyon manat vəsait ayrılıb.

Dekabrın 5-də isə Şuşa-Laçın avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam verilib. Sərəncama əsasən, 41 kilometr uzunluğu olan Şuşa-Laçın avtomobil yolunun yenidən qurulması məqsədilə 6 milyon manatın ayrılması nəzərdə tutulub.

Yeri gəlmişkən, qeyd edək ki, bunlardan əlavə, cari ayın birinci yarısında Prezident İlham Əliyev ölkədə yol tikintisinin və təmirinin davam etdirilməsi ilə bağlı daha beş sərəncam imzalayıb. Bu sərəncamlardan biri Gədəbəy rayonunun Kiçik Qaramurad-Cəfərli-Əyrivəng-Alnabat-Kərimli-İnəkboğan-Göyəmli-Şınıx-Göyəlli-Çobankənd-Şahdağ-Çiçəkli avtomobil yolunun əsaslı təmiri ilə bağlıdır. Bu yol 17 min nəfər əhalisi olan 19 yaşayış məntəqəsini birləşdirir.

Daha bir sərəncam isə Yardımlı rayonunun Masallı-Yardımlı (44 km)-Sırıq-Əfçədulan-Horavar-Əngövül-Zəngələ-Vərov-Keçələkəran avtomobil yolunun əsaslı təmirinə aiddir. 7 yaşayış məntəqəsini birləşdirən bu yol 5 min sakinin rahatlığını təmin edəcək.

Digər üç sərəncam paytaxtın Pirallahı, Qaradağ və Nərimanov rayonları ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqındadır.Bu sərəncamlarla əlaqədar AAYDA-ya müvafiq olaraq 300 min, 400 min və 600 min manat vəsait ayrılacaq. Son iki onillikdə isə paytaxtda 83 yol ötürücüsü, 99 yeraltı və yerüstü piyada keçidi inşa olunub. Yeri gəlmişkən, respublikada 2003-cü ildən indiyədək 6,2 milyon nəfər əhalisi olan 2 210 yaşayış məntəqəsini birləşdirən 5 100 km uzunluğunda kəndlərarası avtomobil yolu tikilib, yenidən qurulub və təmir edilib. 20 il ərzində tikilən, yenidən qurulan və təmir olunan avtomobil yollarının, prospekt və küçələrin ümumi uzunluğu 21 min kilometrə çatıb.

Bu dövrdə həmçinin 499 körpü və yol ötürücüsü, 114 yeraltı və yerüstü piyada keçidi inşa edilib. Əgər birinci texniki dərəcəli avtomobil yollarının uzunluğu 2003-cü ildə respublikada 115 kilometr təşkil edirdisə, hazırda 1025 kilometrdir.

Cari ildə istifadəyə verilən yeni yollardan bir neçəsini misal göstərək. Prezident İlham Əliyev avqustun 7-də "Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolunun Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi (130,15 km) hissəsinin 4 zolağa genişləndirilməsi layihəsi" çərçivəsində yenidən qurulan, ümumi uzunluğu 102 kilometr olan Gəncə-Qazax-bəyli hissəsinin açılışında iştirak etdi. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən yenidən qurulan 1b texniki dərəcəli yol dörd hərəkət zolağından ibarətdir. Yolun bu hissəsində 67 alt keçid, 17 qovşaq və 20 körpünün tikintisi başa çatdırılıb.

Qeyd edək ki, Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi yolunun dörd hərəkət zolağına genişləndirilməsi və sürətin artması ilə vətəndaşların rahat və təhlükəsiz gediş-gəlişi təmin ediləcək. Bundan başqa, yolun iri yaşayış məntəqələrindən kənar keçməsi əhalinin və yoldan istifadə edən sürücülərin təhlükəsizliyi baxımından önəmlidir.

Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolu beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycandan keçən tərkib hissəsi olmaqla, Avropa-Asiya və Yaxın Şərq ölkələri ilə, həmçinin respublika ərazisində bu istiqamətdə əlaqələrin inkişafında mühüm rol oynayır. Layihə tam reallaşdırıldıqdan sonra Şərqdən Qərbə və əks istiqamətdə "Böyük İpək yolu"nun Azərbaycandan keçən hissəsi olan bu yol Avropa ilə Asiya arasında avtomobillə beynəlxalq və daxili yükdaşımaların artmasına önəmli töhfə verəcək.

Digər bir mühüm layihə də Prezident İlham Əliyevin oktyabrın 20-də açılışında iştirak etdiyi Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yoludur. Yolun təməli dövlətimizin başçısı tərəfindən 2017-ci ilin dekabrında qoyulmuşdu. Həmin vaxtdan Prezident inşaat prosesinin gedişi ilə şəxsən və yerində maraqlanmış, tikinti işlərinin ən yüksək standartlara uyğun icra olunması ilə bağlı vaxtaşırı tapşırıqlarını vermişdir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq yeni avtomobil yolunun Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən başlayaraq Rusiya sərhədinədək olan 150 kilometrlik hissəsi birinci texniki dərəcəyə uyğun inşa edilib. Bu magistral yolun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin nəzarəti altında 5 hissə üzrə həyata keçirilib. Yolboyu 40 yol ötürücüsü və körpü, 52 alt keçid, 6 ödəmə və yükə nəzarət məntəqəsi, 2 mindən çox yol nişanı və məlumat lövhəsi quraşdırılıb. Yeni yol mövcud yoldan 13 kilometr qısadır.

Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun istifadəyə verilməsi beynəlxalq nəqliyyat əməkdaşlığı baxımından strateji əhəmiyyət daşıyan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin səmərəliliyini daha da artıracaq. Bundan başqa, yeni avtomobil yolu nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, dəhlizlə yük və sərnişin daşımalarında əsas rol oynayacaq.

Bu yolların inşası bir daha göstərir ki, ölkəmizdə yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində icra olunan işlər davamlı xarakter daşıyır.

*Flora SADIQLI, "Azərbaycan"*

# Sahibkarların dostu, özəl sektorun güvənci

## Prezident İlham Əliyevin qəbul etdiyi qərarlar sayəsində özəl bölmənin payı ÜDM-də 83,5, məşğulluqda 78 faizdir









Liberal bazar iqtisadiyyatı yolunu seçmiş digər ölkələrdə olduğu kimi, Azərbaycanda da özəl sektor əsas real qüvvə hesab edilir. Aparılan islahatlar, qəbul edilən qərarlar sayəsində sahibkarlıq sürətlə inkişaf edərək ölkənin iqtisadi gücünü artırır. Xüsusən son illər Azərbaycanda biznes fəaliyyəti getdikcə genişlənir.

İş adamlarımız ölkədə olduğu kimi, onun hüdudlarından kənarda da mühüm layihələrin reallaşmasında iştirak edir, iqtisadiyyatın müxtəlif sahələrinə inamla investisiya yatırır, dünya çapında etibarlı tərəfdaş kimi tanınırlar. Yeri gəlmişkən, qeyd edək ki, aparılan ciddi islahatlar, tətbiq edilən yeni qanunlar sayəsində Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə fəal məşğul olanların sayı hazırda 683 mini keçmişdir. Özəl bölmənin ÜDM-də payı 83,5, məşğulluqda isə 78 faizə yaxınlaşmışdır. 20 il ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsinə 2,83 milyard manat güzəştli kredit verilmiş, bu layihələr hesabına 178 mindən çox yeni iş yeri açılmışdır. Ayrılmış güzəştli kreditlərin 62,2 faizi (1,76 milyard manat) regionların payına düşmüşdür. Bunlardan əlavə, sahibkarlara dəyəri 115 milyon manatdan çox olan vergi güzəştləri paketi təqdim edilmişdir.

Hazırda ölkə üzrə sahibkarlıq subyektlərinin 99,6 faizi mikro, kiçik və orta sahibkarlıq (KOB) subyektləridir. Əgər əvvəllər onların üzləşdiyi ən böyük çətinliklərdən biri lisenziyaların alınması ilə bağlı idisə, indi bununla bağlı heç bir çətinlik yoxdur. Artıq xeyli vaxtdır sahibkarlara lisenziyalar "ASAN xidmət" mərkəzləri və "KOB evləri" vasitəsilə verilir.

Bütün bunların sayəsində Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik İndeksi" hesabatında ölkəmiz 141 ölkə arasında 58-ci mövqedə qərarlaşmışdır. Azərbaycan bu hesabatda 12 indikatordan 8-i üzrə irəliləyərək MDB ölkələri arasında lider mövqelərə yüksəlmiş, Cənubi Qafqaz regionunda isə birinci olmuşdur.

Azərbaycanın iqtisadi islahatlarda daha ciddi uğurlar qazanmasını təsdiq edən digər rəqəmlər də mövcuddur: son 20 il ərzində sənayedə məhsul istehsalının dəyəri 4 milyard manatdan 86,4 milyard manatacan artmışdır. Sənaye məhsullarının ümumi həcmində özəl sektorun payı 2002-ci ildə 54,9 faiz idisə, 2022-ci ildə bu rəqəm 87,6 faizə çatmışdır. Daha maraqlısı odur ki, 2002-2022-ci illərdə ölkənin qeyri-neft-qaz sənayesində istehsalın dəyəri 4,3 dəfə artaraq 1,6 milyard manatdan 17,7 milyard manata qalxmışdır.

Bu artımlarda birbaşa Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan sənaye zonalarının - sənaye parkları və məhəllələrinin xüsusi payı var. İndi ölkədə Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Cəbrayıl rayonunda sənaye parkları, Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərurda sənaye məhəllələri fəaliyyət göstərir. Cari ilin birinci yarısında sənaye zonalarında fəaliyyət göstərən müəssisələr tərəfindən 1,4 milyard manatlıq məhsul istehsal olunaraq satılıb ki, bunun da 33,2 faizi xarici ölkələrə ixrac edilib.

Sözügedən sahə ilə bağlı onu da xatırladaq ki, təşviq edilmiş layihələrin icrası nəticəsində ölkədə yeni məhsullar istehsal edən müəssisələr yaradılmış, Prezidentin 20 dekabr 2022-ci il tarixli fərmanı ilə əvvəlki illərin təcrübəsi nəzərə alınmaqla investisiya təşviqi mexanizmi təkmilləşdirilmişdir.

Bu gün dövlət başçısının tapşırığına əsasən, ölkə ərazisində aqroparklar da yaradılır. Artıq 32 rayonda 239,3 min hektar ərazisi və layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark yaradılmışdır. Onların 46-sı fəaliyyətə başlamışdır. Aqroparkların yaradılmasına isə indiyədək sahibkarlar tərəfindən 1,5 milyard manatdan çox investisiya qoyulmuşdur.

Aqroparklardan söz düşmüşkən onu da qeyd edək ki, ümumilikdə 4 dövlət regional inkişaf proqramı üzrə bölgələrə yatırılmış investisiyaların həcmi 104 milyard manatdır. 2022-ci ildə regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə böyümüş, əhalinin nominal gəlirləri 10,5 dəfə artmışdır. 2004-cü ildən bəri regionlarda 52 mindən artıq yeni müəssisə yaradılmış, yüz minlərlə iş yeri açılmışdır.

Bütün bunlar sözsüz ki, Prezident İlham Əliyevin ayrılıqda götürülmüş hər bir sahənin sürətli inkişafına hesablanan qərarları və təşəbbüsləri hesabına mümkün olmuşdur.

*Bahadur İMANQULİYEV, "Azərbaycan"*



# COP29 dünyada "yaşıl enerji"nin inkişafına və ətraf mühitin qorunmasına böyük töhfə verən tədbir olacaq

**Xəbər verildiyi kimi, dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müşavirə keçirilmişdir.**

Müşavirədə bildirilib ki, bu, ölkəmizdə keçiriləcək növbəti beynəlxalq tədbir olacaq. COP29-un Azərbaycanda keçirilməsinə dünya dövlətlərinin yekdilliklə razılıq verməsi isə ölkəmizin beynəlxalq nüfuzunun əyani göstəricisidir. Prezident İlham Əliyev tədbirin möhtəşəmliyi barədə demişdir: "Ancaq, təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq".

Məlumdur ki, COP29-da müzakirə ediləcək əsas məsələlər dünyada iqlim dəyişikliyinin və ətraf mühitin qorunması olacaq. Azərbaycan neft-qaz ölkəsi olsa da, ətraf mühitin qorunmasına töhfə verən ölkələrdəndir. Biz özümüzü ənənəvi enerji ilə təmin etmək imkanımız olduğu halda, ətraf mühitə ziyan vurmayan "yaşıl enerji" ilə təmin etmək üçün əməli addımlar atırıq. Prezident İlham Əliyevin təşəbbüsü ilə işğaldan azad olunan ərazilərdə su, günəş və külək-elektrik stansiyaları tikilir və gələcəkdə bu sahədə görüləcək işlərin miqyasının daha da artacağı nəzərdə tutulur. Bu səbəbdən Bakıda və Azərbaycanın regionlarında yeni "yaşıl enerji" stansiyalarının tikilməsi istiqamətində elmi-tədqiqat və layihələndirilmə işləri sürətləndirilib. Həmin müşavirədə bununla bağlı Prezident İlham Əliyev vurğulamışdır: "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir".

Azərbaycan Rusiya-Ukrayna müharibəsi səbəbindən Avropada yaranan enerji böhranının aradan qaldırılmasında önəmli rol oynayan ölkədir. Biz imkanımız daxilində Avropaya qaz nəqlini xeyli artırmışıq. Perspektivdə isə "qoca qitə"nin "yaşıl enerji" ilə təmin edilməsi məsələsi durur. Ölkəmiz bu istiqamətdə də fəal şəkildə mühüm işlər görür, Avropaya "yaşıl enerji" xətlərinin çəkilməsi üçün Avropa, Orta Asiya və qonşu Gürcüstanla səmərəli əməkdaşlıq edir. Görülən işlər dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Elə bunun nəticəsidir ki, COP29-un Azərbaycanda keçirilməsi bütün dövlətlər tərəfindən yekdilliklə dəstəkləndi.

Dünya miqyasında belə bir tədbirin keçirilməsi hansı zərurətdən yaranıb? Tarixdən məlumdur ki, dünyanın total şəkildə çirklənməsi sənayenin yaranması ilə bağlıdır. XIX əsrdən başlayan sənayenin inkişafı XX əsrdə pik həddə çatdı. İnsanlar daha çox qazanmaq və daha yaxşı yaşamaq üçün gələcəyi düşünmədən sənayenin həcmini artırdılar, hətta "sənaye inqilabı" ilə öyünməyə başladılar. Aylar, illər keçdi və ətraf mühitə vurulan ziyan özünü açıq şəkildə göstərməyə başladı. İqlim dəyişikliyi tədricən bəşəriyyətin varlığına təhdid amilinə çevrildi və yalnız bundan sonra onun aradan qaldırılması yolları haqqında fikirləşdilər. Beləliklə, 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatı İqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasını qəbul etdi və hökumətlər gələcəkdə bununla bağlı daha fəal tədbirlər həyata keçirmək üçün bir araya gəldilər. Daimi informasiya mübadiləsi, araşdırmalar və müzakirələr nəzərdə tutan bu Konvensiya siyasi idarə və elmi biliklərin inkişafı nəzərə alınmaqla əlavə öhdəliklər götürməyə imkan verir.

İnkişaf etmiş ölkələrin öhdəliklərinin məqsədə uyğunluğu ilk dəfə 1995-ci ildə Berlində keçirilən Tərəflər Konfransının (TK-1) birinci sessiyasında nəzərdən keçirilmişdir. Tərəflər inkişaf etmiş ölkələrin 2000-ci il üçün tullantı səviyyələrinin 1990-cı il səviyyəsinə endirilməsinə yönəlmiş öhdəliklərinin Konvensiyanın "İqlim sisteminə təhlükəli antropogen təsirə" yol verməməkdən ibarət olan uzunmüddətli məqsədlərə nail olmaq üçün müvafiq olması qərarına gəlmişlər. Bunu nəzərə alaraq nazirlər və digər yüksəkvəzifəli şəxslər Berlin mandatını qəbul etmiş və inkişaf etmiş ölkələrin öhdəliklərini gücləndirmək məqsədi ilə yeni danışıqlar mərhələsinə başlamışlar. Razılaşmanın işlənməsi üçün Berlin mandatı üzrə xüsusi qrup təsis edilmişdir. Xüsusi qrup 8 sessiya keçirərək Tərəflər Konfransının 3-cü sessiyasına yekun danışıqları üçün mətn təqdim etmişdir.

1997-ci ilin dekabrında Yaponiyanın Kioto şəhərində keçirilən bu mühüm müşavirədə təqribən 10000 nümayəndə, müşahidəçi və jurnalist iştirak etmişdir. Konsensus əsasında qəbul olunmuş qərarda /I/T.K3/ Konfrans inkişaf etmiş sənaye ölkələrinin 2008-2012-ci illər üçün parnik qazlarının ümumi tullantısını 1990-cı il səviyyəsi ilə müqayisədə ən azı 5 faiz ixtisar edəcəkləri haqqında Protokol qəbul etmək qərarına gəlmişdir. Bu hüquqi öhdəlik təxminən 150 il əvvəl başlamış tullantıların artırılması istiqamətində tarixi dönüş olacağına ümid verirdi.

Kioto Protokolu 16 mart 1998-ci ildə imzalanmaq üçün açılmışdır. O, payına ümumi karbon dioksidi tullantılarının minimum 55 faizi düşən inkişaf etmiş sənaye ölkələri qrupuna daxil olan ölkələr tərəfindən təsdiq edildikdən 90 gün sonra qüvvəyə minmişdir.

Prezident İlham Əliyev bir işə başlayanda onu dünya miqyasında dəyərli bir hadisəyə çevirməyi bacarır. Məsələn, özündə 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı BMT-dən sonra ən böyük təşkilat olsa da, onun beynəlxalq arenada elə bir nüfuzu yox idi. Azərbaycanın bu təşkilata sədrliyi dövründə isə təşkilat qlobal miqyasda önəmli bir quruma çevrildi. Buna görə də inamla deyə bilərik ki, COP29 dünyada "yaşıl enerji"nin inkişafına və ətraf mühitin qorunmasına böyük töhfə verən bir tədbir olacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 18-ci ildönümü ilə bağlı təntənəli iclas keçirilib





**Dekabrın 16-da Fövqəladə Hallar Nazirliyinin (FHN) yaradılmasının 18-ci ildönümü və işçilərinin peşə bayramı münasibətilə nazirliyin inzibati binasında təntənəli iclas keçirilib.**

Qurumun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə nazirliyin kollektivi Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üstünə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsi ehtiramla anılıb, məzarları üzərinə gül dəstələri qoyulub.

FHN-in inzibati binasında keçirilən iclas Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Qurumun İctimaiyyətlə əlaqə idarəsinin hazırladığı "Heydər Əliyev və əhalinin təhlükəsizliyi" mövzusunda film nümayiş olunduqdan sonra nazir K.Heydərov iclasda çıxış edərək 2023-cü ilin - Azərbaycan xalqının böyük ehtiram və fəxarət hissi ilə qeyd etdiyi "Heydər Əliyev İli"nin tariximizə taleyüklü əhəmiyyətli hadisələrlə - möhtəşəm uğurlar, hərbi zəfərlər və strateji hədəflərin reallaşması ilə həkk olunduğunu deyib. 2020-ci ildə Vətən müharibəsində ərazi bütövlüyümüzün bərpa olunmasını və parlaq Zəfər qazanılmasını dövlətçilik tariximizin ən mühüm hadisəsi kimi qiymətləndirən nazir K.Heydərov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə bu il sentyabrın 19-da keçirilən və təxminən 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyinin tam bərpasını qürur hissi ilə xatırladıb.

Nazir vurğulayıb ki, bugünkü Azərbaycanın tarixi nailiyyətlərinin möhkəm təməlləri məhz 1993-2003-cü illərdə qoyulub. Müdrik uzaqgörənliyi, zəngin siyasi təcrübəsi, möhkəm iradəsi və sonsuz Vətən sevgisi sayəsində ölkəmizi zamanın çox keşməkeşli sınaqlarından uğurla çıxaran dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin edib. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə ölkəmiz sürətlə inkişaf edir, yeni-yeni nailiyyətlərə imza atır. İşğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən nəhəng layihələr, görülən misilsiz işlər Azərbaycanın gücünü, qüdrətini dünyaya bir daha nümayiş etdirir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlarımıza mütəmadi birlikdə səfərləri zamanı aparılan yenidənqurma işlərini şəxsən nəzarətdə saxlamaları Qarabağın və Şərqi Zəngəzurun dirçəlişini daha da sürətləndirib.

Kəmaləddin Heydərov FHN-in cari ildə dövlətimizin başçısının tapşırıqlarına və fəaliyyət istiqamətlərinə uyğun olaraq üzərinə düşən vəzifələrin öhdəsindən uğurla gəldiyini bildirib. İşğaldan azad olunmuş bölgələrdə əhalinin və ərazilərin təhlükəsizliyinin, insanların həyat fəaliyyətinin təmin olunması sahəsində aidiyyəti üzrə müvafiq tədbirlərin davam etdirildiyini bildirib. Qeyd olunub ki, Xüsusi Riskli Xilasetmə Xidmətinin "N" saylı xüsusi təyinatlı hərbi hissəsi işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi işlərini fasiləsiz davam etdirir. Bu işlərdə ölkə başçısının diqqət və qayğısı sayəsində alınmış ən müasir minatəmizləyən robotlar da tətbiq olunur. İşğaldan azad olunmuş ərazilərdə yanğın təhlükəsizliyi daim nəzarətdə saxlanılıb, baş verən yanğınların operativ söndürülməsi təmin edilib. Nazirliyin nəzarət qurumları tərəfindən ərazilərdə aparılan yenidənqurma layihələri ilə əlaqədar müvafiq təhlükəsizlik tədbirləri görülüb.

Nazir bu il də ölkə ərazisində yanğın təhlükəsizliyi sahəsində əməliyyat şəraitinin diqqət mərkəzində saxlanıldığını, yanğın hadisələrinin qarşısının çevik alınaraq yayılmasına və ağır fəsadlarla nəticələnməsinə imkan verilmədiyini bildirib. Respublika üzrə cari il ərzində 13 min 891, o cümlədən Bakıda 4462, işğaldan azad olunmuş ərazilərdə 204 yanğın hadisəsi qeydə alınıb. Bu da orta hesabla hər gün 42 yanğına çıxış deməkdir. Yanğınlardan 15 yanğın yüksək saylı çağırışla söndürülüb. Ümumilikdə, yanğınların söndürülməsi zamanı 94 dövlət və 396 özəl obyekt, 334 çoxmənzilli bina, 514 fərdi ev, 455 yardımçı tikili, 304 ədəd müxtəlif təyinatlı texnika mühafizə olunub, 16 nəfərin həyatı real təhlükədən xilas edilib. Baş vermiş yanğınların söndürülməsi zamanı insan həyatı üçün təhlükə faktorları nəzərə alınaraq 762 nəfər təhlükəsiz əraziyə təxliyə edilib.

K.Heydərov deyib ki, xüsusi riskli xilasetmə qrupları 1286 müxtəlif xarakterli axtarış və qəza-xilasetmə əməliyyatları zamanı 1432 nəfər zərərçəkmişi xilas edib, həmçinin 93 nəfərin cəsədi deformasiyaya uğramış nəqliyyat vasitələrindən, bağlı qapı arxasından və dağıntılar altından çıxarılıb. Bununla yanaşı, yanğınsöndürən-xilasedicilər tərəfindən 168 nəqliyyat və digər qəzalarda 269 nəfər deformasiyaya uğramış nəqliyyat vasitələrindən çıxarılaraq ərazi üzrə tibb məntəqələrinə çatdırılıb, həlak olmuş 61 nəfərin cəsədi avtomobillərdən çıxarılıb. Həmçinin 17 partlayış hadisəsi ilə əlaqədar xəsarət almış 20 nəfər və həlak olan 5 nəfərin cəsədi dağıntılar altından çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. 2023-cü il ərzində dalğıc-xilasedicilər tərəfindən nəzarət olunan çimərlik ərazilərində batmaq təhlükəsi ilə üzləşmiş 110 nəfər və nəzarət olunmayan qeyri-çimərlik ərazilərdə 94 nəfər olmaqla, cəmi 204 nəfər xilas edilib. Nəzarət olunmayan qeyri-çimərlik ərazilərdə suda batmış 64 nəfərin cəsədi tapılıb.

Qeyd edilib ki, cari il ərzində müxtəlif məsələlərlə, o cümlədən yanğın, partlayış, avtoqəza, tikintidə, sənayedə və dağ-mədən işlərində təhlükəsizlik qaydalarının pozulması və digər məsələlərlə bağlı 112 - qaynar telefon xəttinə ümumilikdə 1 milyon 400 minə yaxın və ya orta hesabla hər gün 5 minə yaxın zəng daxil olub. Yanğın nəzarəti məqsədilə sosial, sənaye, nəqliyyat, rabitə, kənd təsərrüfatı obyektlərində, xidmət sahələrində və digər təyinatlı 66 mindən artıq obyektdə yanğın-texniki müayinələr aparılıb, aşkarlanmış atışmazlıqların aradan qaldırılması üçün obyekt rəhbərlərinə və sahiblərinə 390 minə yaxın tələbi özündə əks etdirən tələbnamə məktubları verilib, eyni zamanda 220 mindən çox vətəndaş yanğın təhlükəsizliyi barədə təlimatlandırılıb.

Bundan əlavə, təyinatından asılı olmayaraq fiziki və hüquqi şəxslər tərəfindən tikinti işləri aparılan 40 min 80 obyektdə tikintiyə dövlət nəzarəti aparılıb. Sənayedə və dağ-mədən işlərində təhlükəsizliyə nəzarət məqsədilə 2909 müəssisədə 34 mindən artıq təhlükə potensiallı qurğu və avadanlıq üzrə texniki müayinələr keçirilib. Eləcə də 5680 nəfər fəhlə və mühəndis-texniki işçinin texniki təhlükəsizlik qaydaları üzrə bilikləri yoxlanılıb. Əhalinin və ətraf mühitin radiasiya təhlükəsizliyinin təmin edilməsi və ionlaşdırıcı şüalanma mənbələrinin fiziki mühafizəsinin təşkilinin yoxlanılması məqsədilə tibb, sənaye və elmi-tədqiqat müəssisələrində 272 nəzarət-yoxlama tədbiri, eyni zamanda radioaktiv mənbələrin idxal-ixrac əməliyyatları zamanı 353 radioaktiv mənbənin eyniləşdirilməsi və dozimetrik nəzarəti həyata keçirilib. Mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq, fiziki və hüquqi şəxslərə məxsus 98 kiçikhəcmli gəmi ilkin dövlət qeydiyyatına alınıb, gəmi sahiblərinin müraciətinə əsasən 2164 kiçikhəcmli gəmiyə texniki baxış keçirilib.

Nazir bildirib ki, Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, FHN-in çevik xilasetmə qüvvələri, tibb personalı və digər mütəxəssisləri bu ilin fevralında Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması, axtarış-xilasetmə əməliyyatlarının aparılması, əhaliyə tibbi və psixoloji yardım göstərilməsi, həyat təminatı vasitələri ilə təchiz edilməsi tədbirlərini uğurla yerinə yetirib.

K.Heydərov əminliklə vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin ideyalarından güc alan, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısını gündəlik fəaliyyətlərində yaxından hiss edən FHN-in kollektivi Azərbaycan vətəndaşlarının dincliyinin, rahatlığının və təhlükəsizliyinin qorunması istiqamətində əməli fəaliyyətini bundan sonra da şərəflə davam etdirəcək.

Sonra FHN-in İctimaiyyətlə əlaqə idarəsinin hazırladığı və nazirliyin qardaş Türkiyədə baş vermiş dağıdıcı zəlzələ zamanı fəaliyyətinə həsr olunan videoçarx göstərilib.

Daha sonra "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında" Azərbaycan Prezidentinin Sərəncamı oxunub, həmçinin dövlətimizin başçısının imzaladığı 2022-ci il 15 dekabr tarixli sərəncamla təltif olunmuş nazirliyin əməkdaşlarına təltiflər təqdim edilib. Mükafatlandırılanlar arasında Ağdam rayonunda minatəmizləmə əməliyyatı zamanı piyada əleyhinə minanın partlaması nəticəsində xəsarətlər almış qazi Süleyman Heydərov da olub.

İclasda xidmətdə fərqlənən əməkdaşların həvəsləndirilməsi tədbirləri haqqında fövqəladə hallar nazirinin əmri barədə də məlumat verilib.

Sonda iclas iştirakçıları adından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciət qəbul olunub.

# Tbilisidə "Qərbi Azərbaycana Qayıdış beynəlxalq müstəvidə" mövzusunda forum baş tutub

**Dekabrın 16-da Tbilisidə "Qərbi Azərbaycana Qayıdış beynəlxalq müstəvidə" mövzusunda forum keçirilib.**




AZƏRTAC xəbər verir ki, forum çərçivəsində Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Mərkəzinin Sərgi qalereyasında Qərbi Azərbaycanda ermənilər tərəfindən dağıdılan mədəni irsimizi əks etdirən fotolardan ibarət sərgi açılıb.

Tədbir iştirakçıları əvvəlcə sərgini ziyarət ediblər.

Sonra tədbirdə Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirilib.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın və Gürcüstanın ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəmanların xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirin təşkilatçısı "Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək" İctimai Birliyinin sədri Toğrul Allahverdili çıxışında bildirib ki, forumun əsas məqsədi Gürcüstanda yaşayan soydaşlarımız, eləcə də Qərbi Azərbaycandan olan soydaşlarımızla Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını müzakirə etmək, gürcü politoloqların, tarixçilərin məsələ ilə bağlı fikirlərini öyrənməkdir.

Azərbaycanın Gürcüstandakı səfirliyinin müşaviri Eldar Bayramov çıxışında Cənubi Qafqazda yaşayan azərbaycanlıların və gürcülərin dövlətçilik tarixindən danışıb, ermənilərin bu bölgəyə sonradan köçürülmələrini sübut edən faktları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Naqif Həmzəyev Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın erməni işğalından azad edildiyini, ölkəmizin ərazi bütövlüyünün tam təmin edildiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan daim sülhün və əmin-amanlığın tərəfdarı olub. Lakin bəzi separatçı qüvvələr regionda sülhü pozmağa çalışıblar və Azərbaycan, əslində, onların bu cəhdlərinin qarşısını alıb, regionda davamlı sülhün təmin olunması üçün bütün ilkin zəruri tədbirləri görüb. Bu tədbirlər qərbi azərbaycanlıların öz torpaqlarına qayıtmaq ümidlərini artırıb və onlar inanırlar ki, bu gün heç də uzaqda deyil.

Deputat dost və qardaş Gürcüstanın və gürcü xalqının da regionda sülhün bərpa olunmasına çalışdığını qeyd edib. Bildirib ki, məhz Azərbaycan, Gürcüstan və Türkiyə birliyi nəticəsində buna nail olacağıq.

Sonra Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov, KOBİA yanında ictimai şuranın sədri Fərhad Qaraşov və başqaları çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Forum panel iclaslarda işini davam etdirib.

"Cənubi Qafqazda sülh quruculuğu və separatizmə qarşı birgə fəaliyyət" mövzusunda keçirilən birinci paneldə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Gürcüstan Tarixi İnstitutunun dosenti Nikoloz Cavaxişvili, professor Ramiz Bəkirov, gürcü tarixşünas, professor Tengiz Malania, Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusifov çıxış edərək fikirlərini bölüşüblər.

"Gürcüstanın işğal olunmuş ərazilərindən və Qərbi Azərbaycandan məcburi deportasiya edilmiş şəxslərin geri dönüş prosesi" mövzusuna həsr olunmuş ikinci paneldə isə Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Aqil Ələsgər, Qarabağ qazisi, jurnalist Nahid Canbaxışlı, politoloq, Beynəlxalq Münasibətlər Akademiyasının rəhbəri, Gürcüstan-Azərbaycan Münasibətlərinin İnkişafı Fondunun baş direktoru Simon Kopadze, jurnalist Ceyhun Məhəmmədəli çıxış edərək məsələ ilə bağlı fikirlərini bölüşüblər.

Qeyd edək ki, "Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək" İctimai Birliyinin təşkilatçılığı, Azərbaycanın Gürcüstandakı səfirliyinin rəsmi tərəfdaşlığı, Gənclər Fondunun dəstəyi ilə keçirilən tədbirdə Azərbaycanın və Türkiyənin Gürcüstandakı səfirliklərinin əməkdaşları, Milli Məclisin deputatları, tarixçi alimlər, siyasətçilər və ictimai xadimlər iştirak ediblər.

Sonda forum iştirakçıları adından bəyanat qəbul olunub.

Bəyanat beynəlxalq təşkilatlara və Gürcüstanda fəaliyyət göstərən diplomatik nümayəndəliklərə göndəriləcək.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# "Qordi düyünü"nü kəsən siyasi həmlə

## Prezident İlham Əliyev bununla Azərbaycanın böyük güclərin çəkişmə meydanına çevrilməsinə imkan vermədi

**Dünya tarixindən məlumdur ki, dövlətlər arasında ticarət yollarına nəzarət uğrunda həmişə qanlı müharibələr baş verib. İndi də belədir. Hazırda dünyada ticarətin 80 faizi okean və dənizlər üzərindən həyata keçirilir. Bu marşrutlara ABŞ donanması nəzarət etsə də, bununla barışmayan ölkələr var və onlar ara-sıra mövcudluqlarını göstərirlər.**

Su yolu ilə yüklərin daşınmasında boğazlar və kanallar mühüm rol oynayır. O üzdən dünya ticarətində önəmli rol oynayan Panama və Süveyş kanalları ərazisindən keçdiyi dövlətlərin deyil, beynəlxalq güclərin nəzarəti altındadır. Uzun illərdir ki, həmin güclər Türkiyənin müstəqil nəzarət etdiyi Bosfor boğazını ələ keçirməyə çalışırlar. Bu səbəbdən Qərb hər dəfə fürsət düşdükcə boğaza nəzarəti ələ keçirmək üçün Türkiyəyə təsir göstərir. Sonuncu dəfə belə həmlə Rusiya-Ukrayna müharibəsi başlayanda oldu.

ABŞ və digər Qərb ölkələri hərbi donanmanı boğazdan keçirib Qara dənizə aparmaq istədilər. Rusiya da boğaz üzərindən müharibə zonasına əlavə gəmilər aparmağa cəhd etdi. Əgər bu iki düşmən cəbhəsinin gəmiləri Qara dənizə daxil olsaydı, hər an dənizdə müharibə başlaya bilərdi. Türkiyə isə buna imkan vermədi, Qərb və Rusiya inadından vaz keçməli oldular.

44 günlük Vətən müharibəsindən sonra imzalanan üçtərəfli Bəyanata uyğun olaraq Ermənistan Azərbaycandan Naxçıvana yüklərin və sərnişinlərin sərbəst keçidi üçün Zəngəzur dəhlizini açmalı idi. Lakin bu, hələlik baş verməyib. İlk növbədə elə görünürdü ki, dəhlizin açılmaması Ermənistanın siyasi kaprizi və danışıqlarda özünə əlavə dividendlər qazandırmaq üçün etdiyi siyasi gedişidir. Sonradan məlum oldu ki, bu, Qərbin Rusiya və Çinlə apardığı iqtisadi mübarizənin bir parçasıdır. Sadə dildə desək, Qərb dünyanın önəmli ticarət marşrutunun keçidi olacaq Zəngəzur dəhlizinə Rusiyanın nəzarət etməsini istəmir.

Çin dəniz ticarətinin önəmli bir hissəsini dəmir yolu ilə həyata keçirmək istəyir. Səbəbi dəniz ticarətində risklərin olması və malın son ünvana çatmasında vaxt itkisidir. Dəmir yolu ilə yüklərin daşınmasında isə risklər yox dərəcəsindədir, üstəlik, qiymət və vaxt baxımından da əlverişlidir. Çin məhz bu səbəbdən "Bir kəmır, bir yol" layihəsinin həyata keçirilməsinə 3 trilyon dollara yaxın vəsait ayırmağa qərar verib.

ÇXR-in təmkinli, gələcəyə hesablanmış xarici və iqtisadi siyasət həyata keçirdiyini hər kəs bilir. Çinlilər uzun illərə hesablanmış siyasi və iqtisadi planlarını heç vaxt açıqlamırlar və üstəlik, görəcəkləri hər cür işi bütün incəliyinə qədər öyrənirlər. Biz bunu "Bir kəmər, bir yol" layihəsinin həyata keçirilməsindən də aydın görürük. Onlar bu layihənin icrasında açar ölkənin Azərbaycan olduğunu müəyyən ediblər. Layihənin təqdimatı üçün keçirilən konfransa dəvət olunan az sayda dövlət başçısı arasında Prezident İlham Əliyevin də yer alması bununla bağlıdır. Çin rəhbəri Si Cinpinin konfransdan öncə Prezident İlham Əliyevlə görüşüb məsləhətləşməsi də təsadüfi deyildi. ÇXR dövlətimizin başçısının təşəbbüsü ilə beynəlxalq standartlara uyğun Bakı-Tbilisi-Qars nəqliyyat marşrutunun tikilməsini bilirdi. Üstəlik, həmin layihəyə qarşı olan maneələrin aradan qaldırılmasında Prezident İlham Əliyevin qətiyyətli qərarından da xəbərdar idi.

Qərb isə bu layihənin icrasının qarşısını almaq üçün iki cəbhədən həmləyə keçdi. Çinin "Bir kəmər, bir yol" layihəsinə qarşı Qərb tələm-tələsik "Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi" (İMEC) adlanan yeni nəqliyyat dəhlizinin yaradılması barədə qərar qəbul etdi. Yeni dəhlizin yaradıcı ölkələri Hindistan, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya və İsraildir. Bu yol həmin ölkələrdən Yunanıstana, oradan da digər Avropa ölkələrinə keçməlidir.

İndi dünyanın bir çox nüfuzlu ekspertləri HƏMAS-İsrail müharibəsini bununla əlaqələndirirlər. Adıçəkilən ölkələrin müharibədə tutduğu mövqe də bunu aydın göstərir. Məsələn, Rusiya ilə Çin birbaşa, yaxud dolayısı HƏMAS-ı dəstəkləyir, Qərb isə birmənalı olaraq İsraili. Bu yaxınlarda Hindistan da açıq şəkildə İsrailin yanında olduğunu bəyan etdi. Görünən odur ki, iki xalq arasında başlanan bu qanlı müharibədə hərə öz məqsədi üçün istifadə edir. Azərbaycana gəldikdə, ölkəmizdən çox uzaqlarda gedən bu müharibənin Zəngəzur dəhlizi ilə bağlılığını görməmək mümkün deyil. Odur ki, ermənilər də Qərbin bu təhrikedici oyununa gedib Zəngəzur dəhlizindən siyasi manipulyasiya üçün istifadə etmək istəyir.

Bu yerdə türk qardaşlarımızın bir deyimi yada düşür: "Evdəki hesabla çarşıdakı (bazardakı) hesab tutmadı". Bəli, Ermənistan Prezident İlham Əliyevin siyasi gedişlərini hesablaya bilməmişdi. Azərbaycan Zəngəzur dəhlizində beynəlxalq güclərin və regional ölkələrin siyasi çəkişməsində tərəf olmaq əvəzinə "Araz dəhlizi"nin açılması barədə İranla razılaşdı. Baxmayaraq ki, həmin dövrdə bizim qonşu ölkə ilə siyasi əlaqələrimiz çox gərgin idi, dövlətimizin başçısı uzaq hədəfləri əsas tutaraq lazım olan düzgün qərarı qəbul etdi. Təsadüfi deyil ki, Prezidentin bu addımı Qərbdə və Ermənistanda şok effekti yaratdı.

Bundan sonra N.Paşinyan özü Zəngəzur dəhlizinin açılması barədə tez-tez danışmağa başladı. Gördü ki, böyük siyasətdə "qırmızı xətt" deyilən heç nə yoxdur. Başladı özündən "sülh kəsişməsi" deyilən bir layihə uydurmağa, ancaq hələlik heç bir reaksiya yoxdur. Xüsusilə Azərbaycan açıq şəkildə hiss etdirir ki, "Araz keçidi" ilə istəyini təmin edib. Bu marşrut həm də Çinin və Rusiyanın ürəyincədir. Çünki Ermənistandan fərqli olaraq beynəlxalq güclər "Bir kəmər, bir yol" və "Şimal-Cənub" dəhlizlərinin işlək olmasına görə İrana təzyiq göstərə bilməyəcəklər. İran Ermənistan deyil, öz milli maraqlarından vaz keçməz.

Prezident İlham Əliyev "Euronews" televiya kanalına verdiyi müsahibəsində ölkəmizi nəqliyyat-kommunikasiya imnkanları barəsində demişdir: "Əlbəttə, bağlantı layihələrindən böyük həcmdə mənfəət əldə olunacaq. Artıq qeyd etdiyim kimi, biz "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərindən Azərbaycan ərazisindən keçən, müxtəlif istiqamətlərə daşınan 10 milyonlarla ton əlavə yük gözləyirik. Bu, məşğulluq, əlavə vəsait, Azərbaycanın geosiyasi əhəmiyyəti deməkdir. Regionumuzun, Avrasiyanın xəritəsinə baxsanız görərsiniz ki, bütün əsas nəqliyyat marşrutları bizim ərazidən keçir. Biz ən müasir nəqliyyat infrastrukturunu yaratmışıq. Bu da əlavə imkanlar yaradacaq".

Dövlət başçısı bu müsahibəsində Zəngəzur dəhlizi barəsində heç nə deməmişdir. Bununla Ermənistana və onun arxasında dayanan güclərə açıq şəkildə bildirmişdir ki, biz öz problemimizi həll etmişik və sizin siyasi oyunlarınızda tərəf deyilik.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*




# Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 50 avtomobil verilib





**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan şəxslərə daha 50 minik avtomobili verilib.**

Avtomobillərin sənədlərini əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov və "Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin sədri Mehdi Mehdiyev təqdim ediblər.

A.Əliyev bildirib ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra da şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlərlə, həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillərlə təminatı tədbirləri davam etdirilir.

Dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı nazirlik tərəfindən icra olunan sosial dəstək paketi çərçivəsində mənzil və fərdi evlə təminat proqramı 5 dəfə genişlənib.

Postmüharibə dövründə bu kateqoriyadan olan şəxslərə 5,600, ümumilikdə ötən dövrdə 14 400 mənzil və fərdi ev təqdim olunub. Dövlət başçısının tapşırığı ilə bu kateqoriyadan olan vətəndaşlarımıza 2023-cü ildə ən azı 1500 mənzil və fərdi evin verilməsi işləri davam etdirilir.

Ölkə Prezidentinin sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunur.

Diqqətə çatdırılıb ki, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatı tədbirləri çərçivəsində 44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz avtomobillə təmin edilirlər.

Təqdim edilən 50 avtomobil də daxil olmaqla postmüharibə dövründə 424, ümumilikdə ötən dövrdə 7600 avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslər onlara göstərilən hərtərəfli qayğıya, yeni avtomobillərlə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## İki yeni "Stadler" Bakıya gətirilib

**"Azərbaycan Dəmir Yolları" QSC ilə İsveçrənin "Stadler Rail Group" şirkəti arasında 2019-cu ilin noyabr ayında müqavilə imzalanmışdır.**

Müqaviləyə əsasən, yeni alınacaq FLİRT tipli 6 elektrik və 4 dizel qatarının 4-nün (dizel) bu ilin sonuna kimi Bakıya çatdırılması planlaşdırılmışdır.

Artıq bu qatarlardan ikisi Bakı Dəmiryol Vağzalına çatdırılıb. FLİRT markalı birmərtəbəli qatarın hər biri 5 vaqondan ibarətdir və sərnişin tutumu 236-270 nəfər arası dəyişir. Qatarlarda standart və birinci sinif (8 yer) yerlər mövcuddur. Yeni dizel qatarları kontakt şəbəkəsinə qoşulmadan daxili mühərrik sistemi hesabına istehsal olunan elektrik enerjisi ilə hərəkət edir. Bu da öz növbəsində kontakt sistemində yarana biləcək texniki problemlərdən asılı olmayaraq qatarın hərəkət qrafiki üzrə normal rejimdə hərəkət etməsinə imkan yaradır.

Qatarlar yeni nəsil təhlükəsizlik texnologiyası və bir sıra innovativ mexanizmlərlə təchiz olunub.

## Gömrük yoxlamalarının operativliyi üçün yeniliklər tətbiq olunub

**Gömrük məntəqələrinə gün ərzində 250-300 ədəd nəqliyyat vasitəsi daxil olur. Nəzarət zonasında aparılan islahatlar nəticəsində proses daha tez həyata keçirilir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Baş Gömrük İdarəsinə təşkil olunan mediaturda məlumat verilib.

Qeyd olunub ki, əvvəllər gömrük zonasına nəqliyyat vasitələrinin nizamsız daxil olması sənədləşmə prosesinin yubadılması ilə yanaşı, maliyyə itkisinə də səbəb olurdu: "Bunun üçün "yaşıl və qırmızı zona" yaradılıb. "Yaşıl sektora" daxil olan nəqliyyat vasitələrinin sənədləşmə işi tez aparılır ki, bu da vaxt itkisinin qarşısını alır".

# 2024-cü il üçün əmək miqrasiyası kvotasına dair təkliflər müzakirə edilib

**Əmək miqrasiyası kvotasının müəyyən edilməsi üçün təkliflərin hazırlanması və bu sahədəki işin əlaqələndirilməsi üzrə yaradılmış komissiyanın növbəti iclası keçirilib.**

İclasda 2023-cü il üçün təsdiq olunmuş əmək miqrasiyası kvotasından istifadə vəziyyəti və 2024-cü il üçün hazırlanmış əmək miqrasiyası kvotasına dair təkliflər müzakirə olunub.

Komissiyanın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin ölkənin əmək bazarında da inkişaf meyillərinin davamlı xarakter almasına imkan yaratdığını qeyd edib.

Növbəti il üçün də əmək miqrasiyası kvotasına dair təkliflərin ölkənin məşğulluq və demoqrafik inkişaf vəziyyəti, əmək ehtiyatları və əmək bazarında işəgötürənlərin işçi qüvvəsinə olan tələbatı ilə bağlı aparılmış təhlillər, əmək bazarı ilə bağlı proqnozlar əsasında hazırlandığını bildirib.

Təkliflərdə əcnəbi işçi qüvvəsinə tələbatın müəyyən olunması zamanı yerli kadr potensialının səmərəli istifadəsi, əmək bazarında bacarıqların və kvalifikasiyaların artırılması, rəqabətədavamlı kadr potensialının formalaşdırılması, eləcə də ixtisaslı xarici işçi qüvvəsinin milli əmək ehtiyatları ilə əvəz edilməsi amillərinin əsas götürüldüyü vurğulanıb.

Bir sıra sahələrdə həyata keçirilməsi nəzərdə tutulan layihələrə ixtisaslı əcnəbi mütəxəssislərin cəlb olunmasının zəruriliyi, bununla yanaşı, ölkənin iqtisadi inkişaf tendensiyalarının, əmək bazarının inkişafı üzrə müasir çağırışların, yerli əmək ehtiyatlarının təhlillərinin, bu sahədə müvafiq proqnozların nəzərə alındığı qeyd edilib.

Müzakirələrin yekununda 2024-cü il üçün əmək miqrasiyası kvotasına, həmçinin 2023-cü ilin təsdiq olunmuş əmək miqrasiyası kvotasına edilmiş dəyişikliklərlə bağlı təkliflərin baxılmaq üçün Nazirlər Kabinetinə təqdim olunması qərara alınıb.

# Sığorta xidmətlərinə maraq artır

**Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosu birgə məlumat yayıb. Məlumatda qeyd olunur ki, memorandum tərəflərinin və sığorta şirkətlərinin iştirakı ilə layihənin yekunlarına həsr olunmuş hesabat konfransı keçirilib.**

Konfransda 2021-2023-cü illərdə ümumrespublika səviyyəsində sığorta maarifləndirməsi ilə bağlı görülən işlər haqqında təqdimat nümayiş olunub. Bildirilib ki, layihə "Risk fərqindəliyinin formalaşdırılması", "Ayrı-ayrı sığorta növ və məhsullarının tanıdılması" və "Sığortalının hüquq və vəzifələri" mərhələlərindən ibarət olub.



Müvafiq mərhələlər çərçivəsində görülən işlər 360° kommunikasiya yanaşması ilə icra edilib. Belə ki, layihə müddəti ərzində KİV-də, sosial şəbəkələrdə məlumatlandırıcı materiallarla, xidmət və ticarət müəssisələrində, açıq və qapalı məkanlarda, habelə yaşayış və qeyri-yaşayış obyektlərində maarifləndirici vasitələrlə geniş təbliğat tədbirləri təşkil olunub. Layihə çərçivəsində dünyada ilk dəfə Azərbaycanda, paytaxt Bakı da daxil olmaqla 10 ən böyük şəhərdə ümumilikdə 75 min nəfərdən çox vətəndaşın iştirak etdiyi "Sığorta Festivalı" təşkil edilib. Layihə çərçivəsində həmçinin media nümayəndələri üçün silsilə sığorta təlimləri və yazı müsabiqələri də həyata keçirilib.

Hesabat konfransında həmçinin maarifləndirmə layihəsinin sektora təsirlərinin ölçülməsi məqsədilə 1190 nəfər arasında aparılmış sorğu-tədqiqat nəticələri də nümayiş etdirilib. 2021-ci illə müqayisəli nəticələrə görə, 2023-cü ildə 3 il ərzində aparılmış maarifləndirmə və təbliğat işlərinin nəticəsində sığortaya inam əhalidə 34 faizə yüksəlib, biznes subyektlərində isə bu 39 faiz təşkil edib. Sorğu nəticələrinə görə, əhalinin 46 faizi, biznes subyektlərinin isə 50 faizi hadisə baş verərsə sığortanın kömək ola biləcəyinə inandığını bildirib. Həmçinin sorğuda o da məlum olub ki, əhalinin 57 faizi, biznes subyektlərinin isə 64 faizi sığorta xidmətlərindən müntəzəm olaraq istifadə edir. Sorğuda əhalinin 43 faizi, biznes subyektlərinin isə 45 faizi sığorta xidmətlərini tam əlçatan hesab edib.

Konfransda görülən işlərin effektivliyinin artırılmasında davamlılığın vacib rol oynadığı əsas gətirilərək maarifləndirmə layihəsinin növbəti 3 il ərzində də davam etdirilməsi ilə bağlı razılığa gəlinib.

## Pul baratları üzrə 0,9 milyard dollar müsbət saldo yaranıb

**"Bu ilin doqquz ayında təkrar gəlirlər üzrə xarici ölkələrlə aparılan əməliyyatların ümumi həcmi 1,9 milyard dollar məbləğində qiymətləndirilib".**

Bu barədə Azərbaycan Mərkəzi Bankının məlumatında bildirilir. Qeyd olunur ki, daxilolmalar 1,4 milyard dollar, ödənişlər isə 0,5 milyard dollar təşkil edib.

AMB daha sonra bildirir ki, təkrar gəlirlər üzrə ümumi daxilolmaların 93,2 faizini xarici ölkələrdən fiziki şəxslərin pul baratları, 5,8 faizini ölkəyə gətirilən humanitar malların və digər yardımların həcmi, 1,0 faizini isə digər daxilolmalar təşkil edir. Ölkəyə göndərilən pul baratlarının həcmi 53,9 faiz azalaraq 1,3 milyard dollar, ölkədən köçürülən pul baratlarının həcmi isə 23 faiz azalaraq 0,4 milyard dollar olub. Nəticədə pul baratları üzrə 0,9 milyard dollar müsbət saldo yaranıb.

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 29 yanvar (Çərşənbə günü) tarixli 100-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Çaharşənbə, 26 rəbiülaxir sənə 1337.
29 kanuni-sani sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELANNAMƏ

İşbu yanvar ayının 18-ində Azərbaycan dəmiryolunun Ələt mövqifində [stansiyasında] trenlə [qatarla] gedən bir neçə sərxoş əşxas [şəxslər] tərəfindən beş nəfər ermənilərə dəhşətli bir zülüm ibraz edilibdir [göstərilib]. Müqəssirlər müəyyən olunmasıyçün məmurlar tərəfindən bilatəxir [təcili] icra olunmuş tədabir [tədbirlər] nəticəsində dərdəst olunan [əldə edilən] məlumatdan müqəssirlərin müsəlman olduqları bəyan olur. Bu cinayətdə müqəssir bulunan şəxslərin işləri hərbi məhkəməyə həvalə ediləcəkdir.

Azərbaycan Cümhuriyyəsi daxilində milli ədavətdən naşi [milli ədavət səbəbindən] qətl, qarət, arvadlara zülüm olunmaq və başqa bu kimi cəraimdə [cinayətlərdə] müqəssir bulunanların işləri hərbi məhkəməyə verilərək, mücrimlər [cinayətkarlar] ən şədid [şiddətli, ağır] cəzalara, həttа edam cəzasına da məhkum ediləcəklərinin bəyan olunmasını hökumət kəndi tərəfindən lazım görür.

Bu elannamə Azərbaycan Cümhuriyyəsi dəmiryol mövqiflərinin cümləsində asılıb, hər şəhər və qəryələrində [kəndlərində] elan olunmalıdır.

*Heyəti-vükəla sədri F. Xoyski*
*Daxiliyyə naziri naminə*
*general-mayor Ağabəyov*

## TƏDBİR GƏRƏKDİR

Əql və tədbirin hökmü üstün gəldi. Əmələlər [fəhlələr] hissiyyata deyil, əqliyyata [ağıla] görə rəftar etdilər. Hökumətlə mədənçilərin mümkün edə bildikləri güzəştə razı olub tətil etmədilər. Mədənçiləri mədənin düçar olduğu müşkülatına rəğmən bu güzəştlərə getməyə bir tərəfdən əmələlərin tələbi, bir tərəfdən də Azərbaycan Hökumətinin mötədilanə və aqilanə təsiri səbəb oldu. Hökumət bu işdə göstərdi ki, əmələlərin mənafeyi, hüququ onun üçün yabançı bir şey deyildir. "Kollektivnı doqovor"u [kollektiv müqaviləni] mədənçilər qəbul etməyirdilər. Hökumət bunu müvəqqətən olsa da verdiyi əmrlə icra etdirdi. Evli, subay məsələsinin aradan qaldırılıb da, bütün əmələlərə 360 manat məvacibin artırılması üçün hökumət nümayəndə[si] və Parlaman vəkilləri səy etdilər, təsirləri oldu. Fəqət əmələlərin almış olduqları 360 manat əlavə ilə ehtiyacları rəf olunacağını [aradan qaldırılacağını] düşünmək doğru olammaz.

Daha Əmələ Konfransında əmələlər özləri deyirlərdi ki, "bu əlavə bizə deyil, dükançılaradır". Doğrudur. Məvacib artınca, dükançılar da mətahın, bilxassə ərzağın qiymətini artırırlar. Həyat yenə də bahalaşır, su yenə də körpünün o tayında qalır. Buna qarşı tədbir eyləməlidir. Bu tədbiri hökumət görməlidir. Hökumət bütün əmtəəni olmasa da, heç olmasa ərzaq üçün bir tədbir görməli, əmələ rayonlarında ucuz qiymətlə çörək satdırmağa səy eyləməlidir. Bu xüsusda hökumət, Ticarət və Sənaye Nəzarətindəki üsulsuz hərəkətlərə bir nəhayət verərək, başqa məmləkətlərlə mal dəyişdirməsi işini yoluna qoya bilməklə, bəlkə də Ukraynadan "cövhər" [kerosin] müqabilində buğda gətirə bilər. Bu yolla şəkər gətirmək dəxi mümkündür.

Eyni zamanda hökumət səy etməlidir ki, İngiltərədən bizə yeni mallar gəlsin, bazarda mətah çoxlaşsın. Mətah çoxlaşarsa, o zaman qiymətlər təbiətilə aşağı düşər.

Hökumət bu kimi tədbirlərə qətiyyən təvəssül [müraciət] etməlidir. Yoxsa bu gün növbədən götürülmüş tətil məsələsi təkrar bütün təhdidi ilə meydana çıxar. O zaman ağıl və məsləhətin göstərdiyi yollar deyil, hərəkəti-hissiyyat və ehtiyacın çox da məntiq tanımayan rəhbərliyi hakim olar.

Azərbaycan sənaət [sənaye] və ticarət həyatını hər növ intizar olunmayan [gözlənilməyən] hadisələrə qarşı mühafizə etmək hökumətin borcudur. Bu borcunu hökumət, ərzağı bollaşdırmaq yolunda tutacağı hərəkət və görəcəyi tədbirlərlə ifa edə bilər.

Oyanıq olmalı, tədbir görməlidir.

*M. Ə.*

## TELEQRAF XƏBƏRLƏRİ

* Berlindən verilən məlumati-rəsmiyyəyə [rəsmi məlumata] nəzərən, Almaniyada Məclisi-Müəssisan intixablarında [seçkilərində] şeydemanovlar (menşeviklərdir) qalib gəlmişlərdir. Hamburqda bolşeviklər iqdamati-hərbiyyədə [hərbi təşəbbüsdə] bulunduqları üçün Hamburq idareyi-əsgəriyyə [hərbi rejim] altında elan edilmişdir.

**Berlində tətil**

Berlindəki elektrik müəssisələrində olan tətil bir neçə gün şəhərdə bütün həyatı dayandırmışdır. Axşamlar şəhərin çox hissəsi qaranlıqda qalırmış. Nəhayət əmələlərin [fəhlələrin] tələbinə əməl edilərək tətil yatırılmışdır.

* Hamburqda yenidən spartaklar (bolşeviklər) işə başlamışlardır. Yanvarın 23-də axşam zamanı işsiz bolşeviklər dörd polis uçastokuna [sahəsinə] həmlə edib tüfəng və pulemyot almışlardır. Əmələ və Saldat Şurası dərhal nizamı bərpa etmək üçün təcili tədbirlər ittixaz eyləmişdir [tədbirlər görmüşdür]. Baş vağzal, hökumət qoşunları tərəfindən mühafizə edilsə də, orada bütün hərəkat kəsilmişdir. Şura əmr vermişdir ki, bütün silahlar təslim edilsin. Verməyənlər divani-hərbə [hərbi məhkəməyə] təslim ediləcəklərdir.

**Xüsusi müxbirimizdən**

Teymurxanşura - Mədən Sularından: Pyatiqorsk, Kislovodsk, Həsəntuki və Jeleznovodskdan alınan rəsmi xəbərlərə nəzərən, bu yerlər general Denikin qoşunları tərəfindən işğal edilmişlərdir. Kursovka mövqifində [stansiyasında] bolşeviklərdən üç ədəd zirehli qatar alınmışdır. Aleksandrovski mövqifdə şiddətli müharibə olmuşdur. On alay qırmızı qoşun məğlub və pərişan edilmişdir. Bəzi alaylarda ancaq 20-30 adam qalmışdır. Qalanları ya qırılmış, ya qaçmışlardır. Düşmən ordusunda müdhiş aclıq vardır. Könüllü ordu tərəfinə keçmiş olan qırmızı qoşun nəfəratı [əsgərləri] yanvarın 19-da evlərinə tərəf qaçaraq yolda rast gəldikləri adamları qarət etməkdə imişlər. Onların arasında yatalaq xəstəliyi dəhşətli surətdə hökmfərmadır [hökm sürməkdədir]. Gündə bir neçə yüz adam həlak olurmuş.

**Gəncədə hərbi məhkəmə güşadı**

General Şıxlinskidən bir böylə teleqraf alınmışdır:

*"Məlum edirəm ki, bu gündən etibarən Gəncə şəhərində Azərbaycan hərbi məhkəməsi güşad edilmişdir [açılmışdır].*
*Şıxlinski"*

**Tiflisdən idarəmizə dəmiryolu ilə böylə teleqraf gəlmişdir**

Ömər Faiq əfəndi üç yoldaşı ilə 13 dekabrda Axısxada tutulub həbs edilmişdi. Qanunən müqəssir olmadıqlarından, 31 dekabrda Tiflisdən xaricə getməmək şərti ilə azad edilmişlərdi. Lakin son günlərdə Axısxa əhalisinin "tutulan başçılarımız azad edilməyincə Məclisi-Müəssisan və zemstvo [yerli özünüidarə qurumları] seçkilərinə iştirak etməyəcəklərini" bəyan eyləmələri üzərinə 19 yanvarda onları yenidən həbs edib, qatil və quldurlar olan həbsxana kameralarına qoyublar.

## SÜLH ƏTRAFINDA

* Parisdə Eyfel qülləsində olan simsiz teleqraf mövqifi [stansiyası] Rusyada olan ən nüfuzlu firqələrə Mərmərə dənizindəki Prinsev cəzirəsinə [adasına] üçər nümayəndə göndərmələrini təklif eyləmişdir.

**Vilson və bolşeviklər**

Rusiya məsələsinə dair olan Ali Şura qətnaməsini fransız mətbuatı ciddi surətdə tənqid edir. Bəzi qəzetələr bu rəydədirlər ki, guya Vilson istəyir ki, bolşevikləri iqdamata [addımlar atmağa] vadar edib və bu nəhv [üsul] ilə bütün cahanı bolşeviklər əleyhinə hazırlasın. Bu təriqlə də [yolla da] Vilson Amerikanı Almaniya əleyhinə çevirmişdi.

* Leninə mənsub olan "Pravda" qəzetəsinin məlumatına görə, Şura Hökuməti Parisə Sülh Konfransına heyəti-mürəxxəsə [nümayəndə heyəti] göndərmək istəyir və bu heyət bütün Rusiya tərəfindən nümayəndəlik edəcəkmiş.

## TÜRKİYƏDƏ

**Türkiyə Məclisi-Məbusanının buraxılmasına dair**

Dekabrın 21-də Türkiyə Məclisi-Məbusanının son iclası əqd edilmiş [baş tutmuş] imiş. O gün İstanbulda böyük bir ciddiyyət müşahidə olunurmuş. Deyirmişlər ki, "İttihad-Tərəqqi" firqəsinin məşhur üzvləri yeni kabinəni müdhiş surətdə tənqid edəcəklər. Əfkari-ümumiyyə [ictimai rəy] belə imiş ki, guya Parlaman [Əhməd] Tofiq paşa Kabinəsinə ədəmi-etimad [etimadsızlıq] göstərərək, onları iş başından düşürəcəkdir. Fəqət iş əksini göstərmişdir. İclas Xəlil bəyin təhti-sədarətində [sədrliyi altında] açılaraq, Baş vəzir tərəfindən övzaya [vəziyyətə] dair Daxiliyyə naziri [Əhməd] Rəşid [Rey] paşa bir nitq söyləmiş və əvvəlki kabinənin bütün səhvlərini qeydlə demiş ki, Türkiyəni Avropa müharibəsinə sövq edən həman kabinədir və bundan sonra da həman kabinənin iş başında durması Türkiyə üçün böyük bir fəlakət olacaqdı. Nazir əlavə edir ki, hökumət şərəfli sülh əqdi üçün ciddi tədbirlər ittixaz edir [tədbirlər görür]. Heç kim zənn etməsin ki, hökumət Türkiyəni şərəfli sülhə yetirməyə çalışmayır. Türkiyənin bu halına səbəb olanların məsuliyyətə cəlb edilmələrinə hakəza [habelə] tədbir ittixaz edilmişdir. Hal-hazırda 25 min nəfər rum, erməni və müsəlmanlar nəfydən [sürgündən] qaytarılmış, onlara maddi müavinət edilir. Ərzaq məsələsini islah üçün ciddən səy edilir. Sabiq kabinə tərəfindən Ərzaq İdarəsinə buraxılmış olan məbləğ yerinə sərf edilməyibmiş.

Nazirin nitqindən sonra Parlaman üzvləri danışmağa müsaidə istəmişlərdir. Fəqət gözlənmədiyi halda digər bir nazir kürsiyi-xitabətə çıxaraq Məclisi-Məbusanın buraxılması barəsində Sultan həzrətlərinin iradəsini [fərmanını] oxumuşdur. Türkiyə məşrutəsinə [konstitusiyasına] görə Sultanın bizzat [şəxsən] Parlamanı bağlamağa ixtiyarı yoxdursa da, əvvəlcə məşrutə qanununun bu maddəsini ləğv eyləmişdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Ermənistan Hökumətinin protestosu

Ermənistan Xariciyyə naziri Tiqranyan Azərbaycan Cümhuriyyəti Xariciyyə nazirinə böylə bir teleqram çəkmişdir:

*"Bizə yetişən xüsusi xəbərlərə nəzərən, Azərbaycan Şurayi-vükəlası [Nazirlər Kabineti] Cavanşir və Şuşa mahallarında general-qubernatorluq təsis etməyi təhti-qərara almışdır. Hökumətimin vəkaləti ilə Ermənistanın ərazi hüququna təcavüz olan bu qərardad müqabilinə protesto edirəm.*
*Ermənistan Cümhuriyyəti*
*Xariciyyə naziri Tiqranyan"*

**Məsai Nəzarətində**

Bakı quberniyası Fabriçni İnspektoru [Fabrik Müfəttişi] Məsai Nəzarətinə [Əmək Nazirliyinə] məlum etmişdir ki, Nobel Qardaşları makina emalatxanası fəhlələri yanvarın 24-ü saat 2-dən işə başlamışlardır. Onlara məlum edilmişdi yanvar ayı bayram məvacibi hər yerdə yanvarın 25-dən etibarən verilməyə başlayacaqdır.

* Hökumət İdarəsi dəftərxanası müdiriyyəti Məsai Nəzarətinə xəbər vermişdir ki, Nəzarət dəftərxanası və xidmətçiləri maaş[ı] üçün istiqrazdan ötrü bilavasitə Maliyyə Nəzarətinə müraciət etməlidir.

## TƏLƏBƏLƏRİMİZ HAQQINDA

Bir neçə gündür ki, şəhərimizdə tələbələr Amerikaya getməyə yazılırlar. Bu münasibətlə bizim türk tələbələri arasında dəxi danışıq vardır. Hətta yazılanlarını da gördüm. Təbii, heç kəs deməz ki, ikmali-təhsil [təhsili davam etdirmək] üçün daha mədəni olan məmləkətlərə getməyiniz. İndi üçüncü sənəyə girir ki, tələbələrimiz məktəbsiz, darülfünunsuz [universitetsiz] qalmışdır. Və halonki [halbuki] bu üç sənə içində bir çox tələbələrimiz məktəbi bitirərdi. Bir çoxu da onların yerinə girərdi. İndi Yevropa yolları bağlı olduğundan, əgər mümkün və münasib isə Amerikaya getmək vacibi bir şeydir. Fəqət bizi daha əhəmiyyətli və mühüm bir məsələ düşündürür. Əgər əhval, zaman, vaxt köhnə olsaydı ola bilər bu barədə danışmaq dəxi lazım gəlməyəydi. Fəqət "hal" [indiki zaman] ilə üç sənə bundan iləriki "mazi" [keçmiş] arasında böyük fərq vardır.

Üç sənə iləri Avropaya əsir bir ölkənin məhkum bir oğlu gedirdi. İndi isə müstəqil bir hökumət halında bulunuruz. Həyatımız dəyişmiş, cərəyan və tələbatı da başqa hal almışdır. Bu gün istiqlaliyyətimizi təmin etmək və onun içərisində yeni bir həyat, mədəni bir dünya yaratmaq projesi cızılmışdır.

Bu gün "Odlar diyarı" deyə böyük bir "Türk evi", ali bir "Türk ocağı", möhtəşəm bir "Türk yurdu" yapma planı çəkilmişdir. Fəqət bu bina materialları, daşları, taxtaları, dəmirləri, bütün texniki və mədəni ləvazimatı Avropada bulunur.

Yurdunu sevənlər, parlaq və mədəni istiqbal [gələcək] məfkurəsi ilə yaşayanlar qərbə qoşmalı, hərə bir "maddə" alıb geri dönməli və böyük yurd evini bəzəməlidirlər. Bu gün qərbə təhsili-elmə gedənlər müəyyən bir fikirlə, aydın bir diləklə, yüksək bir ideal ilə getməlidirlər. Bu gün Avropaya, Amerikaya gedənlər bilməlidir ki, onlar yarın üçün gedirlər. Zira "bugünkü addımlar hazırlıyor yarını" demişlər. Bunun üçün də xüsusi hazırlıq lazımdır. Avropaya getmədən mükəmməl ana dilini bilmək, milli tarix, milli ədəbiyyat, milli mədəniyyət və həyat haqqında məlumata malik olmaq lazımdır. Yoxsa alınacaq məlumatlar sonra həyatımıza tətbiq olunammazlar. Xalqımız onu anlayammaz. Qərbə gedərkən bu vaxta kimi gedənləri çağırmalı, göz önünə almalı və onlardan bir haqq-hesab istəməlidir. Bu vaxta kimi tələbələrimizin Avropadan gətirdiklərini xalqımızın və yurdumuzun "ehtiyac" ölçüsünə qoyub ölçməli, əksik və artıqlığının çarələrini bilməlidir və düşünməlidir. Vəilla [yoxsa] gözü bağlı olammaz.

İstiqlaliyyətə kimi qayıdan tələbələrimizdə çox şeylər, nöqsanlar və bəlkə həyatımız üçün "zəhərlər" gördük. İlyaslar "Alyoşa" oldular, Məhəmmədlər "Mişa" qayıtdılar, Vəlilər "Vladimir" döndülər, tələbələr evlənib gəldilər. Milli həyatla yaşamadılar. Bununla da xalqımızı "avropalılıqdan" ürkütdülər. Camaatımız maarifi yanlış anladı, tərəqqidən qaldı. Bu, daha yapılmamalıdır və yapılmamaq üçün də iləricə ehtiyatlı olmalıdır. Xüsusən bu barədə hökumət çalışmalıdır ki, Avropaya və ya Amerikaya yollanılacaq türk tələbələri əvvəla ana dilincə xüsusi hazırlıq görməlidir və ikinci, səfərləri rəsmi olmalıdır. Yoxsa yeddi sənə Amerikada qalmağa gedənləri bir də vətəndə gözləməməli, ya gələrlərsə türk xalqının həyatına bir şey tətbiq edə bilməyəcəklər, bunu nəzərdə tutmalı.

*Məhəmmədzadə Mirzəbala*

## ŞƏKİ ŞƏHƏRİ VƏ QƏZASININ

Füqərayi-kasibəsi Məclisi-Məbusanımızın istimdadını [yardımını] və hökumətimizin binagüzarlığını [sərəncamını] çar çeşmlə [dörd gözlə] gözləməkdədir!

İstədikləri nədir?

Ərzaq müşkülatının həlli, müalicə, yol, neft, geyməyə paltar və qəbirdə yatmağa kəfən!

Keçən sənələrdə Nuxa və qəzasında taxıl məhsulatı olmadığından, təbii bir aclıq hökmfərma idi [hökm sürürdü]. Bunun qarşısında bütün şəhər otuz rayona bölünüb icraiyyə komitəsinin binagüzarlığı ilə otuz ərzaq komitəsi əmələ gətirmişdi. Bu komitələr aşkar, gizlin, o yandan, bu yandan dartıb arpa, darı və buğda toplamaqla ümumi aclığın qabağını saxlamağa bir növ müvəffəq olmuşdular. Kəndlərdə də həman tədbirlər sayəsində aclıq fəlakətinin önü alınmışdı. Bu keçən 1918-ci sənə baharının ibtidasında [əvvəlində] iş, surətini dəyişib başqa bir hala düşdü. Komitələr pozuldu, Nuxa qəzası ömrü uzunu görmədiyi məhsulatı yerdən götürdü. Fəqət məhsulat həddən ziyadə olduğu bir halda, əhali acından qırılmağa başladı. Yoxsulluğun ən şiddətli günlərini yıxıla-dura keçirən Şəki əcəba nəyin səbəbinə bolluqda acından ölür? Nə üçün komitələr yenidən işə düşmədilər? Aşkar bir şeydir ki, qəyyumsuz Şəkidə komitələr məcburiyyət təhtində [altında] təşəkkül etmişdilər. İndiki Şəkidə bu məcburiyyət yoxdur. O zaman 13 min fəhlə sinfinin yaxşı-yaman təşkilatı var idi. Şimdi o təşkilat yoxdur. O zaman möhtəkirlər nəfəslərini belə çəkəmməyirdilər. Şimdi isə qılınclarının dalları da kəsir, qabaqları da. Müsri [yoluxucu] xəstəliklər dəhşətəngiz bir surətdə ac və çılpaq əhalini qırıb tökür. Füqərayi-kasibə sinfinin yeməkdə payı olmadığı kimi həkimə, dərmana da əli yetişməyir.

Nuxa böyük bir fabrik şəhəridir. Ona görə həyat və məkanca ayrıca xüsusiyyətlərə malik olduğundan, heç bir yerə bənzəməz. Bazarlarında böyük sərgilər açılıb, tam il yarımdan bəri ev əşyası, ev müxəlləfatı [ev avadanlıqları] satılmaqdadır. Küçələrdə və evlərdə satışa çıxarılmış zənanə əlbisələr [qadın paltarları] əldən-ələ keçir. Bir çox evlər, bağ-bağçalar və başqa cürə mülklər bir sənə bundan əqdəm [qabaq] füqəra əlindən çıxıbdır. Qalanları da hissə-hissə satılmaqdadır. Əvvəl görürsən pəncərə şüşələri, sonra çərçivələr, daldan qapılar, tirlər, döşəmələr çıxarılıb bazarlarda hərrac olunur. Gecənin yarısı görürsən qapını döyüb 7-8 baş ailənin yeganə hamisi Allah yoluna səndən imdad diləyir. Bu həman adamdır ki, keçmişdə əhvallı sayılırdı deyə bu gün açıqdan-açığa dilənməyi namusuna yerləşdirəmməyir. Gündüzlər dilənçi, yolçu əlindən küçələrdən keçib getmək imkanı yoxdur. Hətta evinin içərisində rahat yaşamazsan.

Bir müdhiş mənzərə daha: Görürsən üzünün dərisi sümüklərinə yapışmış, gözləri çuxura düşmüş, lüt-üryan bir insan "iskeleti" küçə divarına söykənib öskürəklə mübarizə edir. Duyursan ki, bu binəva sill [vərəm] xəstəliyinin axırıncı dəqiqələrini keçirməkdədir. Sual-cavabdan anlaşılır ki, zavallı tamam 6 aydan bəri işsiz qalan 10-12 min şəhər fəhləsi güruhundan biridir. İpək satılmadığından bütün fabrikalar yatmış, iş yoxdur. Bu adam namuslu bir zəhmətkeş olduğundan, yay fəsli biçinə gedib ki, bəlkə ailəsi üçün çörək tədarükü edə bilsin. Fəqət taxıl əvəzində "qaraso"dan qara qızdırma gətiribdir. Fabrikin rütubətli havası və 35-40 dərəcə istiliklə zəhərlənib bişmiş bədən, söz yoxdur ki, ömründə görmədiyi biçin həyatından bundan artıq qazanc gətirəmməzdi.

Vəlhasil, bu müsibətin bu fəlakətin qabağı bir an əvvəl alınmalıdır. Əski rayon komitələri hökumət zoru ilə yenidən təşkil edilməlidir. Bu komitələrə hökumət sandığından böyük bir məbləğ müavinət təriqi ilə [yoluyla] təcili olaraq buraxılmalıdır. Şəhərin bir çox yerlərində işsizlər, əlsiz-ayaqsızlar üçün məccani [pulsuz] aşxanalar açdırmalıdır. Müalicə üçün lazım olan tədbirləri bir an əvvəl etməlidir. İki-üç ay bundan əqdəm Şəkiyə bez, ağ vədi verib də, ta indiyə kimi vədinə əməl etməyən idarə təcili surətdə borcunu əda etməlidir [qaytarmalıdır]. Cavan Parlamanımız və hökumətimiz fürsəti fövtə verməyib, milli borclarını tez bir zaman içərisində əda edəcəklərinə əminiz.

*Parlaman üzvlərindən*
*Abdulla Əfəndizadə*

## QAFQAZ FİTNƏÇİLƏRİ

Günü-gündən, peydərpey [bir-birinin ardınca], bica yerə tökülüb Qafqazın bərbad edilmiş köylərini, ucsuz-bucaqsız düzlərini, yüksək dağ və təpələrini, enilməz dərələrini əlvan edən islam qanları və kənd məskənlərində sükunətə imkan bula bilməyib vəhşi surətdə biyabanlarda yaşamağa məcbur olan islam balaları haqqında vürud edən [gəlib çatan] xəbərlərin biri o birisindən əsəfanə [kədərli] olduğunu görürüz. Bunu gördükdə, buna əlac nə ola biləcəyini düşünməyən içimizdə bir fərd bulunammaz. Fəqət hər kəs kəndi düşüncəsini kəndi məlumat və əqidəsinə müvafiq etdiyindən, bizim tədbirimiz haqqında biri o birinə müvafiq olmayır. Hətta ki, hər bir əllərindən gələni rəva görən qonşularımız öz işlərinin rəvacı xatirinə bizi işdən qafil buraxmaq yolunda heç bir hiyləbazlıq və yalandan belə çəkinməyirlər.

Ermənilərin kəndilərinə bir padişahlıq təşkili üçün müəyyən bir planları olub, hər hərəkətləri işbu planı başa gətirmək üçün yapıldığı cümləmizə aşkar olsa gərək. 35 sənə bundan müqəddəm [əvvəl] məzkur [deyilən] məram üzrə Türkiyə iğtişaşına şüru edib [başlayıb] "türklər erməni millətinə olmazın əziyyətlər yapır və bu əziyyətlərə artıq davam gətirə bilmədiklərindən iğtişaş zühur edir" deyə Avropa millət və dövlətlərinin hüsn-təvəccöhlərinə nail olmaq arzusu ilə yapdıqları iğtişaşa davam etdilər. Həqiqəti-hal isə ermənilər Türkiyədə sahib olduqları ixtiyaratı Avropanın ən mədəni məmləkətlərində görməmişlərdir. Rusiya dövlətinin Balkan-slavyan millətləri təvəssütü [vasitəçiliyi] ilə İstanbulu qazanmaq ümidindən məyus qaldıqları halda erməni məsələsinə rücu etməsindən [üz tutmasından] istifadə etmək üzrə ermənilər Türkiyə hüdudunda bacardıqları hərəkətdən bir gün belə fariğ olmadılar [əl çəkmədilər]. Bu arzu sayəsində "Daşnaksutyun" firqəsi meydana çıxdı. İşbu firqənin ə'malı [fəaliyyəti] vəsilənin iyi-kötülüyünü nəzərə almayaraq, erməni qayəsinə xidmətdə bulunub erməni sultası təşkili üçündür.

Son aləmşümul [bütün dünyanı əhatə edən] Avropa müharibəsi bidayətində [başlanğıcında] Rusiya dövlətinə yardım vəd edib müharibə bitdikdə Türkiyə Ermənistanında erməni dövləti təşkil ediləcəyinə dair Vorontsov vasitəsilə Rusiya dövləti nümayəndələrinin vədələrini dərdəst [əldə] etdilər. Vədələr verildi, fəqət Türkiyə Ermənistanında əksər əhali türk və islam olduğu halda, iki cift bir tək erməniyə padişahlıq verilə bilməz deyəcəklərini mülahizə ilə islam əhalisinə nələr yapıldısa, bunların cümləsinə səbəb ermənilər oldular. Qars, Ərdəhandan başlayaraq Həsənqala, Ərzurum, Məməxatun, daha o yanına varınca olmazın iftiraları islam əhali əleyhinə yapıb, rus əsgəri türkləri tələf etmələrinə səbəb olmaqla iktifa [kifayət] etməyib, rus əsgərləri ricəti [geri qayıtması] əsnasında qırğından dala qalan türkləri, kəndiləri zalimanə, vəhşiyanə bir surətdə tələf etdikləri də məlum. Bundan başqa, Batum və Trabzon vilayətlərində islama etdikləri zülümlər də aşkardır.

Avropa məmləkətlərində məxsus[i] şəxslərdən heyət təşkil olunub, bunların hüququ müdafiə edilməyinə bir deyəcəyimiz yox. Yaşamaq və istiqlaliyyət qazanmaq amalında bulunan bir millət üçün burası ən vacib bir əməldir. Fəqət burasında da yapdıqları iftiralar, rəzil hərəkətlərin cümləsi qəbih [qəbahətli] bir üsulda yürüdülməsini yalnız bir Daşnak partiyası kəndinə rəva görə bilər. Bu anadək gözümüzün önündə ermənilərdən gördüyümüz rəzalətlər sonunda heç bir şeyə təəccüb edəmməz isək, bunların yapdıqlarına aldanmağımız eyi bir nəticə hasil edə bilməz. Qafqazda iğtişaş salmaq arzularına qarşı durmaz isək, sonunda peşman oluruz. Şu yolda var qüvvəmizlə cidd-cəhd etməliyiz və gözü açıq bulunmaq bizlərə ən vacib bir işdir.

Erməni-gürcü müharibəsinin səbəbi Qafqaz məmləkətinə bir qarışıqlıq salıb rusların Qafqazı yenidən istilasına bais olmaq məramıdır. Ermənilərin böylə bir xahişlərindən məram ruslar üçün eyilik deyil, kəndi işləri rəvacına yardım etməkdir. Onlar ruslara eyilik istəsələrdi, Qars, Ərdəhan və Novo-Bayəzid nahiyələrində tamam rus köylərini pamal edib [tapdalayıb] məzlum əhalini sərgərdan buraxmazdılar. Ruslar təkrar Qafqazı zəbt edərlərsə, bütün məmləkəti hərc-mərclik tutar və erməni işləri kəndilərinin istədikləri kimi yürür. Azca da olsa diqqət edər və ətrafımızda icra edilən hərəkətləri cümləsinə eyicə nəzər eylərsək, görəriz ki, məmləkətimiz dərununda [içində] yapılan iğtişaşın cümləsinə bais ermənilərdir. Şaumyanlar, Andraniklər və Saakyanların islam məmləkətində yapdıqları iğtişaş islam əhalini tələf etmək məqsədilə yapılır. Yoxsa bolşevizm və ya sosializm nə üçün erməni burjuylarını da başqaları kimi nə öldürür və nə də onlara toxunur?

*Məhəmməd*

## BATUM OBLASTI VƏ GÜRCÜLƏR HAQQINDA

Son zamanlarda makina kimi işləyən gürcü propaqandası nəhayət Batum oblastında tərəfdarlar buldu. Başda məlum Sancaqbəyzadə Abaşidze hafiz Məhəmmədtağı bəy olduğu halda, bu propaqanda makinası Acar sularının qüvveyi-təzyiqiyyə və təcyiriyyəsi [təzyiq və axışının gücü] ilə gözəl dönməkdə, gurultusu və patırtısı ilə Tiflisdəki sosialist emalatxana və fabrikalarının hirsi və rəqabətlərini artdırıb iqaz [xəbərdarlıq] etməkdədir.

"Qurani-Kərim"i su kimi əzbər bilən hafiz Məhəmmədtağı bəyin keçənlərdə qan qardaşı Noy Jordanyaya mütəvəccihən [üz tutaraq] sol gözünü yalnız bir qıpırdatmaqla bir şeyə daha müvəffəq oldu. Noy Jordanya imzası ilə bütün Acara və gürcü islamlarına bir "dekret" yazıb uzatdı. Gürcüstandan axın-axın gələn paralar alış-verişi qızdırmaqda, bu təzə cümhuriyyətin Batumdakı müştəriləri çoxalmaqdadır. Biz bu qeyrətli mücahidlər arasında bir də kəndisinə Xəmşizadə Həsən Təhsin deyə adlandıran bir qəzetəçini gördük. Bu qəzetəçinin bir tərəfi türkcə, digər tərəfi gürcücə "İslam Gürcüstanı" ünvanı ilə bir qəzetəsi vardır. Qəzetənin məsləki əsasını Məhəmməd bəy birinci nömrəsində göstərdikdən sonra, Həsən Təhsin əfəndi digər nömrələrdə Məhəmməd bəy ahəngini nəğmələri ilə çalır. Cənabi-haqq qeyrət və fəaliyyətlərini artırsın.

Tühaf [qəribə] və həqiqətən pək qərib bir keyfiyyətdir ki, bu Məhəmməd bəy deyə, gərək gürcülər və gərəksə islamlar arasında bəllənmiş olan zat bizzat kəndi milləti arasında kəndi nüfuz və səlahiyyətini ölçə bilmişmidir? Əgər bunu ölçmüş və bilmişsə, bu qədər macəraculuq [avantüristlik] etməsi və şəxsiyyətini göstərmək üçün bu dərəcə xülyapərvər olmasını nə ilə təfsir və ya təvil etməli [izah etməli]? Məhəmməd bəy kimlərə istinad edir və ya kimlər onun tərəfdarlığını mühafizə edir? İştə, anlayammadığım cəhət budur. Bu adam bütün əməl və fikirləri ilə kəndi mənsub olduğu milləti arasında rəğbət bulmadı. O, xəyalatı ilə uçarkən məslək və fikri ilə keçən illərdə məğlub oldu. Məhəmməd bəy üçün firqəçi olaraq məhdud bir dairədə çalışmaqdan başqa bir şey qalmamışdır. Heç olmazsa bunu bilməlidir. Fəqət nə edərsən ki, cahilliyi bunu anlamağa müsaidə etməyir və qardaşı Arslan bəyi Gürcüstanın müxəyyəl [xəyali] bir miralaylığına təfvizi [təyin etməsi] və əmisinin oğlunu da islam Gürcüstanının xəfiyyə məmurluğuna təyin edərək gurultusu ilə hər kəsi təciz edir [rahatsız edir, qıcıqlandırır]. Məsələn Arslan bəy Azərbaycan Hökumətinin Batum konsulu və çox illərdən bəri Batumda camaat xadimliyi ilə tanılmış və həlim bir zat olan doktor Mahmud bəy Əfəndiyevə gürcü qəzetəsi ilə o qədər adi təhdidnamələr yazır ki, bir adamın qələmindən nasıl çıxdığına heyrət edərsiniz.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 29 yanvar (Çərşənbə günü) tarixli 100-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Sonra bizzat məni Məhəmməd bəyin əmisinin oğlu olan Süleyman bəy Rioni ilə Tiflis arasında vaqonda tövqif [həbs] etdirir. Səbəbi-tövqif isə Gürcüstan üçün guya müzirr [zərərli] bir adam olmaqlığım imiş.

Bütün bu əhval, şübhə yox ki, gürcülərin təhrikat və təşviqatı ilə olur. Batum oblastına gürcülər sahib olmaq üçün naməşru vəsaitə [qeyri-qanuni vasitələrə] dəxi müraciət etdilər və edirlər. Fəqət təəssüflər olsun ki, Məhəmməd bəy və Abaşidzelərin yayqara və təsirat[ıy]la olan bu əhvala qarşı acaralılar kamilən kar və kordurlar. Bir az şəxsi olmaqla bərabər şunu da zikr edəyim ki, son zamanlarda xalq Batum oblastı naminə Sülhi-Ümumi Konfransına məni intixab etmək [seçmək] istəyərək Məhəmməd bəyə bir rəy [səs] belə verməmişlərdi. Bütün intixabatla bərabər, hər günkü əhval da böylədir. Amma gürcülər macəracu [avantürist] bir adam vasitəsilə girişdikləri işlərdən bizzat acarlıların qonşuluq hörmət və məhəbbəti[ni] də itirəcəklərini mən düşündükcə, mütəfəkkir və şayani-hörmət gürcülərə qarşı qorxmaqda və sonraki sərzənişləri boş bir mahiyyətdə qalacağını şimdidən təyəqqün etməkdəyəm [yəqin bilməkdəyəm].

*Əhməd Həmdi Qaraağazadə*

## BAKI XƏBƏRLƏRİ

Şimali Qafqazya Hökuməti üzvlərindən Pşemaxo Kotsev, Hərbiyyə naziri Nuhbəy Tarkovski, Ticarət və Sənaye vəziri Bahadır Mallaçıxan təcili qatarla Teymurxanşuradan Bakıya varid olmuşlardır [gəlmişlər].

**Əhalinin nəzəri-diqqətinə**

Üçüncü uçastok komitəsi, Səhiyyə şöbəsi naziri [müfəttişi] üçüncü uçastok əhalisinə elan edir ki, uçastokun füqəra ünsürünə məccani [pulsuz] surətdə tibbi müavinətdə [yardımda] bulunmaq üçün arvad həkimi Ter-Qriqoryan təyin edilmişdir. Məzkurə [adıçəkilən qadın] Kolyubakinski küçədə, 39 nömrəli evdə yaşayır. Telefon nömrəsi 5-80-dir. Bu həkimdən istifadə etmək istəyənlər Suraxanı küçəsində vaqe 78 nömrəli evdə komitəyə müraciət etməlidirlər.

* Bu gün saat birdə, Azərbaycan Məclisi-Məbusanı imarətində "Müsavat"ın Məclisi-Məbusan fraksiyasının iclası olacaqdır. Bütün üzvlərin gəlmələri rica olunur.

**Binəqədidə leksiya**

Şənbə günü fevral ayının birində Binəqədidə, "Narodnı dom"da [Xalq evində] axşam saat üçdə Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən əhvali-hazirəyə [mövcud vəziyyət] dair leksiya (mühazirə) oxunacaqdır. Ümum fəhlə və kəndli yoldaşların mühazirədə hazır olmaları rica və arzu olunur.

**Tağıyev fabrikasında**

Pəncşənbə [cümə axşamı] günü yanvar ayının 30-unda Tağıyev fabrikasında, məktəb binasında axşam saat üçdə Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən əhvali-hazirəyə dair leksiya (mühazirə) oxunacaqdır. Ümum fəhlə və kəndli yoldaşların mühazirədə hazır olmaları rica və arzu olunur.

* Cümə günü, kanuni-saninin [yanvarın] 31-ində saat 4 radələrində Birinci Realnı məktəbində İttifaqi-mütəalliminin [Tələbələr İttifaqının] təftiş heyəti tərəfindən təcili ümumi iclası təyin olunur. Baxılacaq məsələlər:

1) Təftiş heyətinin izahatı;
2) İcraiyyə komitəsinə intixab [seçki];
3) və qeyri cari məsələlər.

* Cümə günü saat 11 radələrində, "Səadət" mədrəsəsində Qafqaziya müsəlman mütəallimlərinin mərkəzi komitə və fondunun iclası vüqu bulacağından, arxadaşlardan rica olunur vəqtiməzkurədə [deyilən vaxtda] fövqəlzikr [yuxarıda adı çəkilən] məktəbə təşrif gətirsinlər.

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsi Bakı quberniyası qubernatorunun müraciətinə cavab olaraq bir kağız göndərib məlum etmişdir ki, şəhər və qəza əxzi-əsgər [hərbi çağırış] şöbələri güşad etmək [açmaq] sabit qanun maddələri mövcibincə [əsasında] məhəlli [yerli] qəza qaimməqamı və bəylər idarələri rəisi sədarəti ilə fəaliyyətdə bulunur. Yeni qanun layihəsi sadir olmayınca [çıxmayınca] əxzi-əsgər şöbəsi güşad etmək vəzifəsini üzərimizə götürə bilmərik. Əlavə şöbə dəftərxanası və xidmətçiləri barəsində də heç bir şey məlum deyildir.

**Dərmanxana xidmətçiləri tətilinə dair**

Kəsbkarlar İttifaqı, Bələdiyyə İdarəsinin müsri [yoluxucu] xəstəliklərlə mübarizə edən komisyonuna bir kağız göndərib məlum etmişdir ki, şəhərdə müsri xəstəliklər gündən-günə kəsbişiddət etməkdədir [artmaqdadır]. Dərmanxana xidmətçilərinin tətili isə əhalidən ötrü ziyadəsinə fəna təsirlər bəxş edir. Binaənileyh [ona görə], hökumətə müraciətən təklif ediriz ki, üç günədək xüsusi dərmanxanalar həcz [müsadirə] edilərək fəaliyyətə başlasınlar və bütün fəhlələrin təkliflərinə əməl edilməlidir. Əks surətdə ümumi və yaxud xüsusi tətil elan ediləcəkdir. Bunu da əlavə ediriz ki, "Ermans" dərmanxanası müdiriyyəti bütün təklifləri qəbul etdiyindən, ora xidmətçiləri işə başlamışlardır.

**"Nasosnı" mövqifi ilə telefon müxabiratı**

Daxiliyyə Nəzarəti Bakı Telefon Cəmiyyəti "Bierinq"ə müraciətən "Nasosnı" mövqifi [stansiyası] ilə telefon müxabiratı [əlaqəsi] kəsilməsinə dair məlumat istəmişdi. Telefon cəmiyyəti xəbər veribdir ki, telefon xətti sentyabr hadisatında qət edilmişdi [kəsilmişdi]. Hal-hazırda isə müxabirat təcdid [bərpa] edilmişdir.

**Hökumətin bəyannaməsi**

Fəhlə Konfransının son iclasında mədənçilərlə fəhlələr arasında saziş əmələ gətirmək üçün Azərbaycan Hökuməti Məsai Nəzarəti [Əmək Nazirliyi] nümayəndəsi hökumət namından [adından] böylə bir dekret oxumuşdur:

1) 1917 sənəsi oktyabrın ikisində Əmələ, saldat və matros şurasının icraiyyə komitəsi tərəfindən verilən müştərək müqavilənin (Kollektivni doqovor) fəhlələrin və xidmətçilərin iqtisadi əhvalına dəxli olan hissəsi bir ay müddətinə bütün-bütünə qəbul olunur.

2) Müştərək müqavilənamənin hüquqi qismi işə qəbul edilmək və kənar olunmaq maddəsindən başqa böyləcə qalır. Zaqafqaziya oblast komitəsinin 1917 sənəsi oktyabrın 13-ündə verdiyi qətnamə ləğv edilir. Fəhlələrin və qulluqçuların işə qəbul edilib kənar olunmaları ancaq iş sahibinin ixtiyarında qalır. Hökumət iş sahibinin bu ixtiyara malik olmasını aşağıdakı maddələri təmin etməyi lazım gördüyündən etiraf edir:

a) İşə qəbul edilən zaman müsavi şərait [bərabər şərtlər] üzrə Professionalnı (Həmkarlar) İttifaqı üzvünə tərcih verilir.

b) Fabrika-zavod üzvlərinin ələlümum fəhlə müəssisələri nümayəndələri tərəfindən konfransa intixab olunanların [seçilənlərin] qeyri ittifaqlarda kənar edilmələri hər iki tərəfin bərabər nümayəndəsi əsası ilə ancaq Məsai Nəzarəti nəzdində olan xüsusi müşavirə məclisi ilə olmalıdır.

c) Bir çox adamların işdən kənar edilmələri və ştatın azalması (eyni zamanda 10 nəfərdən yuxarı) yenə də ancaq Məsai Nəzarətinin nəzdində olan xüsusi müşavirə qərarı ilə olmalıdır.

d) Hökumət tərəfindən təsvib [təsdiq] edilmiş siyasi bir firqəyə və ya bir təşkilata mənsub olan şəxsi işdən kənar etmək olmaz.

3) Fəhlə müəssisələrinin komitələri fəhlələrin hüququnu mühafizə etmək ixtiyarına malik, qanuni təşkilat hesab olunurlar. Lakin bu komitələr müəssisələrin xozyaystvenni və administrasiya [təsərrüfat və inzibati] işlərinə qarışmamalıdır.

4) 1917 sənəsi oktyabrın 20-sində baxılan təzə müştərək müqavilənamə bir ayın müddətinə icraya qoyulmalıdır. Hərgah bu müddət ərzində tərəfeyn [hər iki tərəf] arasında saziş hüsula gəlməsə, ixtilaflı maddələr qəti surətdə baxılmaq üçün həkəm [arbitr] orqanına veriləcəkdir. Bu orqan da Məsai Nəzarətinin binagüzarlığı [sərəncamı] ilə təşkil edilib və bunun qərarı hər iki tərəf üçün məcburi olacaqdır.

5) Mart və sentyabr hadisələri hesabları məsələsinə gəldikdə, hökumət lazım bilir göstərsin ki, bu hadisələr bilaşübhə [şübhəsiz] təbii bir sifəti haiz idi [təbii hadisə xüsusiyyəti daşıyırdı]. Buna görə heç bir kəs bu hadisələrdən ötrü məsuliyyətli hesab olunmaz. Bununla bərabər, neft mədənçilərinin ümumi şurası tərəfindən mart və sentyabr ayındakı qaçqınlara məvacib vermək şəraitinin [şərtlərinin] qəbul olunması müəssisə sahiblərinin öz xahişləri ilə olduğundan, müəssisə sahibləri üçün məcburidir.

6) Avqust ayı ibtidasında [əvvəlində] verilən avans, məvacibdən çıxılmamalıdır. Bu avans[ı] çıxan hər bir müəssisə, həman müəssisədə işləyən əmələ və xidmətçilərə həman avansı qaytarmağa və vaxtlı-vaxtında avans almayanlara da həman avansı verməyə məcburdur. Qəti surətdə hesab alıb müəssisələrdən çıxan əmələ və xidmətçilər bu avansı 1919 sənəsi martın 1-inə qədər iddia etsələr ala biləcəklərdir.

7) Sentrokaspi və icraiyyə komitəsinin müvəqqət diktatoriyasının qətnaməsinə müvafiq məvacib tərifəsi hesabına verilən avans 1918 sənəsi sentyabrın 15-inə qədər diktatura tərifələrinə görə verilməlidir.

8) 6-cı və 7-ci maddələr üzrə avansların və müvəqqət diktatura tərifələrinin verilməsi maliyyə əhvalı yaxşı olmadığına görə, bu il fevralın 15-indən başlamış, üç ayın müddətinə müsavi [bərabər] hissələr[lə] verilməlidir.

9) Bakıda olan hökumətlər binagüzarlığı ilə yerlərini tərk etmiş əmələ və xidmətçilərlə, müəssisə idarəsi tərəfindən kənar edilən əmələ və xidmətçilər misalı qəti hesab görülməlidir. Bu adamlar öz yerlərinə dübarə qəbul olmağı tələb edə bilməzlər. Lakin müsavi şərait üzrə işə qəbul olan zaman bunlara tərcih verməlidir.

10) Məvaciblərin artması əsası ilə neft mədənçilərinin 1919 sənəsi yanvarın 24-də vaqe olan ümumi iclasının qərardadı qəbul olunub, bu il yanvarın 1-ində evli-subay təfavütü olmayaraq əmələ və xidmətçilərə 360 manat verilir. Şagirdlər üçün və 17 sinnindən [yaşından] az olanlara ayda 180 manat verilir.

11) Müştərək müqavilənamənin baxılması və əqd olunması [imzalanması] müddətinə qədər hökumət burada göstərilən əsaslar üzərinə fəhlələrin hüququnu və mənafeyini möhkəm bir surətdə gözləyəcəkdir.

Hökumətin bu dekreti konfransın işinə hüsn-təsir etmişdir [müsbət təsir göstərmişdir].

## TAĞIYEV FABRİKASINDA

Pəncşənbə [cümə axşamı] günü yanvarın 23-də Tağıyev fabrikasında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən əhvali-hazirəyə dair və Azərbaycanın bugünkü vəziyyəti haqqında Piri Mürsəlzadə mühazirə (leksiya) oxudu. Mühaziəçi əvvəlcə axırkı bir sənə müddətində Qafqaziya müsəlmanlarının və ələlxüsus Azərbaycan türklərinin keçirtdikləri dəhşətli günləri və olduqca ağır və həyəcanlı siyasi vəziyyətindən məlumat verərək Azərbaycan istiqlaliyyətinin elan edilməsi və onun tarixindən bəhs etdi.

Bədəhu [sonra] Mürsəlzadə cənabları Avropa müharibəsi və onun nəticələri barəsində danışıb sülh məclisinin bu günlərdə açıldığını və Azərbaycan Cümhuriyyətinin dəxi oraya vəkillər göndərdiyini bəyan edib, ümum Azərbaycan türklərini sinif, silk və firqə ayırmadan, vahid bir qüvvə ilə onun müdafiə və mühafizəsinə dəvət etdi. İslamiyyətin əsası ədalət və füqərayi-kasibə tərəfdarı olub, istibdadla daima çarpışmasını bir çox dəlillərlə isbat edərək mühazirəçi Azərbaycan Cümhuriyyətində bu əsasın paydar [olmasının] və möhkəmləşməsinin lüzumundan bəhslə, indiki Azərbaycan Hökumətini və əhalisini buna dəvət etdi və "Yaşasın haqq tərəfdarı və ədalət bayrağı qaldıran Azərbaycan!" dedi və böyük alqışlara nail oldu.

Mühazirəsinin axırında Piri əfəndi Azərbaycan-türk əmələləri ilə qeyri millət əmələləri münasibatı xüsusunda məlumat verib bu vaxtadək ümum müsəlman fəhlələri tərəfindən qeyri-müsəlman fəhlə yoldaşlara heç bir cəhətdən təcavüz və mümaniət [maneçilik] müşahidə edilmədiyini və biləks [əksinə] müsəlman fəhlələrinin nə qədər əziyyət və zəhmətlərə düçar olduqlarını dərmiyan etdi [meydana qoydu]. Hər millətin hüquq və ixtiyaratı təmin edildiyi və istiqlaliyyəti uğrunda səy olunduğu halda, müsəlmanların hüquqdan məhrum edilməsinə və onların istiqlaliyyətinə hər tərəfdən hücum və təcavüz edildiyi hərəkat və təşəbbüslərə öz təəccübünü izharla [bildirməklə], axırda mühazirəçi Azərbaycan istiqlalının bu son zamanlar böyük və olduqca haqsız təcavüzlərə hədəf olduğunu məlum edərək, əmələləri böyük tələfat və qurbanlarla nail olduqları azadəlik töhfəsinin yenidən qaib olma[ma]sına və bununla bir taqım əxlaqsız ədnalara [alçaqlara] qul olmamağa dəvət etdi. Azərbaycan türklərinin heç kəsi özünə qul etməz və qeyriləri dəxi özünə qul etmək xəyalında olmadığını və fəqət azadə və müstəqil olaraq ancaq yaşamaq istədiklərini bəyanla "Var olsun azadəlik!" dedi.

Mühazirədən sonra əmələlərdən bir neçə natiqlər Azərbaycan istiqlaliyyəti haqqında söyləyib, onun müdafiəsi uğrunda hər bir fədakarlığa hazır olduqlarını bildirdilər və mühazirəçi əfəndiyə müraciətən, bundan sonra dəxi onları yada salıb mühazirə oxumasını rica ettilər.

Axırda Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın fabrikada qapanmış olduğu şöbəsinin yenidən açılması təklifi üzrə əksəriyyəti-ara [səs çoxluğu] ilə şöbə açılması qəbul və heyəti-rəyasətə [rəyasət heyətinə] zeyldəki [aşağıdakı] şəxslər intixab edildilər [seçildilər]: Səfər - sədr, Salman müavini-sədr, katib Mahmud Şövkət, üzvlər Əli Lənkəranlı, Hacıbaba, Sadiq Nəcəfov, Məhəmmədhüseyn Axundov, Abbasəli və Rüstəm Qalalı.

Məclisin axırında əmələlər tərəfindən Ümumi Sülh Konfransına və cahan demokratiyasına teleqraf çəkilməsi təklifini qəbul edib və bu yaxınlarda Bakı müsəlman fəhləri konfransı dəvət edilməsini mərkəzi komitədən rica etdiklərini şöbə üzvlərinə bildirdilər və məclis xitam buldu.

*P[iri] M[ürsəlzadə]*

## BEZ FƏQƏRƏSİ

Ərzaq naziri vəkili Yusifəli Əliyev cənabları tərəfindən bez fəqərəsi [məsələsi] barəsində ciddi surətdə təhqiqat yapılması haqqında o cənaba izhari-təşəkkür etməklə bərabər, ehtikarçı [möhtəkir] ilə ehtikarçılar şəriki olan rüşvətxorlara lənət oxuyuram. Çünki bu qədər bezlərin və başqa ərzağın əksəri ehtikarçılara rüşvətxorlar vasitəsilə buraxılır. Bu fəqərəni zənnimcə bir kimsə inkar edəmməz. Ən birinci əlac rüşvətxorları iş başından kənar etməli. Vəkil cənabları "Azərbaycan" qəzetəsinin 97-ci nömrəsində dərcən adlarına manufaktur alınan əşxasın [şəxslərin] sırasında bir də "Bakı qazısı üçün Ağaqədirova buraxılıb üç min arşın" cümləsini qeyd etmişdilər. Bu barədə istəyirəm vəkil cənablarına müxtəsər bir tövzihat [açıqlama] verim.

Məlumunuzdur ki, keçən aylarda istər şəhərdə, istər kəndlərdə naxoşluqdan vəfat edənlərin ədədi həddən ziyadə idi. Füqəranın əksəri kəfənsiz, bəziləri öz libasları ilə, bəziləri meşok və kisələr parçaları ilə təkfin edilirdi [kəfənlənirdi]. Böylə bir vaxtlarda kəndlərdən və ya şəhərdən müttəsil [davamlı] ah-nalə ilə gəlib qəzavətxanada [Qazilik idarəsində] əhvalatı zikr edirdilər. Bunun üçün bir əlac aramaqda qazıdan köməklik istəyirdilər. Bir neçə dəfə mən bunların halına diqqət edib, şəhadətnamələrini də bez almaq xüsusunda təsdiq etmişəm. O cümlədən birisi də Ağaqədirov gəlib deyib ki, Bakıda məşhur İran taciri Hacı Müseyib Həsənov cənabları füqəra əmvatına [ölülərinə] məccani [pulsuz] paylamaq üçün mən Ağaqədirova filan qədər pul buraxıb ki, bez alsın, onun şəhadətnaməsini təsdiq edəsiniz. Mən dəxi füqəraya məccani paylamaq fəqərəsini eşitdikdə, kamali-məmnuniyyət ilə Ağaqədirov gətirdiyi şəhadətnaməni təsdiq edib, fabrika vəkilindən təvəqqe etmişəm ki, bu işə əncam versin. Sonra ancaq bunu eşitmişəm ki, Hacı Müseyib və Ağaqədirov füqəra meyitləri üçün bez verirlər vəssalam. Amma Bakı qazısının nə ölüsünə və nə dirisinə belə bir arşın da olsa bez verilməyibdir. Ərzaq naziri vəkili cənablarından təvəqqe edirəm ki, ciddi təhqiqat yapdıqdan sonra "Bakı qazısı üçün Ağaqədirova buraxılıb üç min arşın" cümləsini təshih etdirsin.

*Bakı qazısı*
*Axund Əbdürrəhim Hadizadə*

## AZƏRBAYCANDA

**Üçdaş dəyirmanı**

Qarabucaq kəndinin əhli, Əziz Lətif oğlu, dəyirmanda dən çəkərkən dekabrın 22-də gecə saat 11-də xaxollar gəlib onu öldürürlər.

**Lənkəran**

Kanuni-saninin [yanvarın] 22-də Hüseynəli Rzaəli oğlu bazara gəlib Şahab Molla İsgəndər oğlunun dükanında əyləşərkən, erməni saldatları bunu əhatə edib güllə atmağa başlamışlar. Bazarda olan güllə səsini eşidən ürəyi vahiməli müsəlman camaatı dükanlarını açıq qoyub qaçmağa üz qoyurlar. Hüseynəli bir tövr ilə bunlardan xilas olub qaçmışdır. Erməni saldatlarının bu tövr fəcianə [faciəli] işləri və gecələr müsəlman məhəlləsində oğurluq etmələri hələ davam etməkdədir.

*Teymur bəy Bayraməlibəyli*

**Zaqataladan**

Xüsusi müxbirimizdən:

Ta avqust ayının ibtidalarında [əvvəllərində] zühur edib də hələ bütün mənası ilə hökmfərma olan [hökm sürən] əmrazisariyyənin [yoluxucu xəstəliklərin] ən dəhşətlilərindən ədd [hesab] olunan tif və ispanka xəstəlikləri Zaqatala kəndlilərinə böyük ziyanlar vurmaqdadır.

İndiyə qədər Zaqatala əhalisinə bir arşın da olsun manufaktura malı verilməmişdir. Doğrudur, Ticarət və Sənaye Nəzarətindən 50 min arşın bez verilmişsə də, bundan ancaq 23 mini kooperativ dükanlarına çatıb, mütəbaqisi [qalanı] isə vəkillər tərəfindən satılmışdır. Kooperativ dükanlarına verilən manufaktura isə yazıq kəndlilərə deyil, cibində pulu, ağzında sözü olanlara veriləcəkdir. Çünki bu cür dükanlara yazılanlar əksəriyyətlə böylələridir.

* Yolsuzluq üzündən milyonlara baliğ [çatan] yay meyvələri çürüdü batdı. Yazlıq meyvələri və satacaq məhsulatlarını heç bir yerə apara bilməyirlər. Çünki Zaqataladan Bakıya gətiriləcək əmtəənin putuna 40-50 manat yol kirayəsindən başqa, bir də yolsuzluqdan gətirmək belə imkan xaricindədir.

* Doktorsuz, dərmansız, kəndi-kəndilərinə xəstəlikdən bir növ şəfayab olmaqda olan və manufaktura əvəzinə heyvan dəriləri geyib özlərini bir tövr idarə etmək məcburiyyətində qalan yazıq və binəva kəndlilər böylə ağır və məşəqqətli illərə qarşı bilməyirlər canlarınımı mühafizə etsinlər, yaxud mallarını? Ümumiyyətlə, maldarlıq, bağçaçılıq və əkinçiliklə təəyyüş etməkdə [dolanışıq sürməkdə] olan Zaqatala vilayəti əhalisi oğurluq, soyğunçuluq bəlalarına məruz qalmışlardır. Hətta ailəsinin səadəti, var-yoxu bir cift öküzünə bağlı olan yazıq kəndlilərin bu gün arabasının boyunduruğu yerdə qalmışdır.

Əlhasil oğurluq, soyğun, cana sui-qəsd, cinayətlər adət sırasına keçməkdədir. Əgər bunların önü təcili surətdə alınmazsa, məqsudumuza xilaf hadisatın baş verməK ehtimalı vardır. Gənc Azərbaycan Cümhuriyyətimizin təşəkkülündən bu ana qədər və bundan sonra da din və millət yolunda malları, canları ilə fədakarlıqda bulunan və bulunacaq zaqatalalılara beqədrül-imkan [imkan olduğu qədər] etina edilməsi siyasət müqtəzəyatındandır [ehtiyacındandır] zənn ediriz.

*Həqşünas*

## GÜRCÜSTANDA

Gürcüstan Dəmiryol naziri müavini ilə Xariciyyə naziri naminə və Allahverdidə olan İngiltərə kapitanı Duqlas [Vitseyn] ilə İngiltərə heyəti nəzdində olan Gürcüstan siyasi nümayəndəsi [Mixail Georgiyeviç] Sereteli və general Karalov adına Sanaindən böylə bir teleqraf gəlmişdir:

*"Erməni nümayəndələri erməni hökuməti naziri mühəndis Qolibev başda olmaq üzrə bitərəf məntəqədə olan əmvalın [malların] Gürcüstan Hökumətinin dəmiryollar nümayəndələrinə verilməsinə yenə də mümaniət [maneçilik] göstərirlər. Bu gün Sanain mövqeyini təhvil aldıqda, 9 vaqonun dəmiryol mövqif [stansiya] əmvalı [malları] ilə yüklü olduğunu gördüm. Ermənilər vaqonlara yığılmış əmvalı verirlərsə də, lakin boş vaqonları aparmaq istəyirlər. Bu barədə protesto etmişəm. Çünki gürcü-erməni konfransının qərarına görə, əvvəlcədən Gürcüstan Hökumətinə mütəalliq [aid] və hal-hazırda bitərəf məntəqədə olan vaqonlar Gürcüstan dəmiryollarının malı hesab olunur. Dəmiryol mövqiflərində Gürcüstan dəmiryol acentələri xidmət edirlər. Mövqif əmvalı təhvil alınmışdır."*

Bu teleqraf Gürcüstan dəmiryolları vəkili Qvamiçava tərəfindən imza edilmişdir.

* Gürcüstan Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] Türkiyə əsgərləri tərəfindən Azərbaycandan çıxarılan vaqonların hal-hazırda harada olduqlarını və neft, cövhər və benzinlə dolu olan vaqonların kimə mütəalliq [aid] olduğunu aşkar etməkdən ötrü bir komissiya təşəkkül etmişdir.

**Suxum Rus Milli Şurası sədrinin həbsi**

Suxumda olan Gürcüstan Hökumətinin xüsusi vəkili Çxikvişvilinin binagüzarlığına [sərəncamına] görə Suxum Rus Milli Şurası sədri Lukyanov həbs edilib, iki saatdan sonra Novorossiysk şəhərinə göndərilmişdir. Məlum olduğu üzrə əvvəlcə Lukyanov Tiflis Əmələ və saldat vəkilləri şurasının üzvi idi. Sonradan sosial-demokrat menşevik məsləyi ilə fövqəladə istintaq komissiyasının katibi olmuşdu. İkinci dəfədir ki, Lukyanov cümhuriyyət məmurları tərəfindən həbsə alınır. Birinci dəfə Lukyanov bir neçə həftə bundan əvvəl Suxumdan Tiflisə gətirilib, üç həftəyə qədər Tiflis həbsxanasında saxlanmışdı. Lukyanov azad edildikdən sonra yenə də Suxuma getmişdi. Bu dəfə Lukyanovun Suxumdan Novorossiyskə nəfy [sürgün] edilməsi səbəbi məlum deyildir.

**Professor Qolovinin həbsi**

Tiflisdə nəşr olunan "Naşe znamya" qəzetəsi xəbər verir ki, Batumdakı İngiltərə məmurlarının əmrinə görə professor Qolovin həbs edilmişdir. Məlum olduğu üzrə Qolovin Ufadan Bakıya gəlib, oradan da Tiflis təriqi [yolu] ilə Batuma getmişdi. Müşarileyh [adı çəkilən şəxs] hər yerdə özünü Ufa Hökumətinin nümayəndəsi elan edirdi. Professorun həbs olunması səbəbi heç kəsə məlum deyildir.

* Müttəfiq qoşunların Qafqaz komandanı general Miln Gürcüstan Hökumətinə təklif eyləmişdir ki, gürcülərdən bir qolordusu [korpus] qoşun verib general Denikinin təhti-komandasında bolşeviklərlə müharibə etsinlər. Libas və ləvazimi-hərbiyyə [hərbi sursat] isə Müttəfiqlər tərəfindən veriləcəkdir. Gürcüstan Hökuməti sədri Noy Jordaniya bu təklifə əsasən razı olduğunu bildirmiş, bu şərtlə ki, gürcü qoşunları general Denikinə deyil, İngiltərə komandanlığına tabe olsunlar. Rəisivükəla [Baş nazir] buna general Denikinin monarxist olduğunu səbəb göstərmişdir. Gürcüstan demokratik bir cümhuriyyət olduğundan, qoşunlarını monarxist bir generalın ixtiyarına verə bilməz. Bu barədə Gürcüstan Hökuməti ilə Müttəfiqlər komandanlığı arasında danışıq davam edir.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir! Xahiş olunur ki, xəstə əsgərlərə müavinət və mərhəmət göstərən doktor Kazımov, Baş həkim Xlif, Okinşeviç, B.K.Finkelşteyn, Ter-Ovanesov, Akopyan, Kuşke, Nepurent, Delyanov, Perfilov, V.K.Finkelşteyn-Varşavski, Ledenberq və Xetax Zinovyev cənablarına bizim təşəkküratımızı yetirəsiniz.

*Mülazimi-sani [leytenant]*
*Məhəmməd Rüfət*
*Ağaməhəmməd İbrahimov*

**Doktor**
**Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крепостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Doktor İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9-12-yədək; axşam saat 4-6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Elan**

Azərbaycan Cümhuriyyəti Ərzaq Nəzarəti İdarəsi Azərbaycan daxilində yaşayan əhalinin və ətrafdan gələn bisavad adamların icazə və başqa işlər üçün Nəzarətə verəcəkləri ərizələri yazdırmaq üzündən çəkdikləri çətinliyi nəzərə alaraq, nazir həzrətlərinin əmri ilə idarənin aşağı qatında pilləkanlardan çıxan yerdə ərizə yazdırmağa xüsusi bir oda təxsis edilmişdir [ayrılmışdır]. Buna görə, bundan sonra nazir həzrətləri naminə və Ərzaq İdarəsinə ərizə verəcək kimsə həman odada ərizələrini pulsuz olaraq yazdıra bilərlər.

*Ərzaq Nəzarəti İdarəsi*

**Hökumət mətbəəsi**

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir. Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

*T-13*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Tədbir gərəkdir***

"M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

***Teleqraf xəbərləri***

"şeydemanovlar": Alman sosial-demokrat Filipp Şeydeman tərəfdarları nəzərdə tutulur.

***Sülh ətrafında***

"Prinsev cəzirəsi": Mərmərə dənizində, İstanbul sahilinə yaxın 9 adadan ibarət Prins adaları arxipelaqı nəzərdə tutulur.

***Türkiyədə***

"Sultan həzrətlərinin iradəsini…": Osmanlı imperiyasının sonuncu sultanı VI Məhməd nəzərdə tutulur.

"bugünkü addımlar hazırlıyor yarını": Türk şairi Tofiq Fikrətin "Rücu" adlı şeirindən götürülmüşdür.

***Tələbələrimiz haqqında***

"Bu gün Odlar diyarı deyə...": Qəzetdə "Odlar diyarı deyə" yerinə "Odilardiye" getmişdir. Bu sözə məna vermək mümkün olmadığı üçün yuxarıdakı kimi oxuduq.

***Şəki şəhəri və qəzasının***

"…ev əşyası…": qəzetdə "ev əcnası" getmişdir.

"qaraso": Azərbaycanın bəzi rayonlarında əkin yerlərinə (əsasən suvarılan torpaqlara) və ümumiyyətlə, düzəngah ərazilərə verilən ad.

***Bakı xəbərləri***

"İşə qəbul edilən zaman…": qanun bəndləri qəzetdə ərəb əlifbasının hərf sırasına görə "əlif", "bə", "tə" və sair kimi işarələnmişdir.

***Tağıyev fabrikasında***

"…nail olduqları azadəlik töhfəsinin…": qəzetdə "nail" yerinə "mail" getmişdir.





# Vətən deyəndə...





Tarix necə varsa

# İkinci Qarabağ müharibəsinin yaddaqalan mənzərələri

**Böyük tarixi hadisələr yalnız böyüklüyü ilə deyil, həm də kiçik epizodları ilə yaddaşlarda qalır. Erməni təxribatı nəticəsində başlanan 44 günlük Vətən müharibəsi də bu baxımdan istisna deyil. Müharibə başlayan günlərdə düşmən üzərində qələbə qazanmaq, torpaqlarımızı azad etmək naminə hamı bir nəfər kimi ayağa qalxmışdı.**



Sözün həqiqi mənasında bir yumruq kimi birləşmişdi. Əli silah tuta bilənlər döyüşə yollanır, imkanlı adamlar orduya yardım edir, ön xətdə vuruşan əsgərlərə sovqat göndərirdi. Kimin nəyə gücü çatırdısa, cəbhəyə yollayırdı. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı dillərdən düşmürdü. Bütün bu addımlar erməni işğalçıları üzərində qələbə qazanmaq naminə atılırdı. Artıq o günlərdən üç ildən çox vaxt keçib.

### Oğullar əsgər gedir...

Qarabağ uğrunda döyüşlər başlayan kimi ürəyi Vətən eşqi ilə döyünən, əsgəri xidmətini başa vurub tərxis olunmuş oğullar ordu sıralarına dönməyə, düşmənlə vuruşmağa can atırdılar. Bu məqsədlə onlar qeydiyyatda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon və şəhər idarələrinə, şöbələrinə müraciət edirdilər. Cəsur oğullar bu addımları ilə demək istəyirdilər ki, onlar qorxmadan, çəkinmədən erməni qəsbkarları ilə vuruşmağa hazırdırlar. Vətənin taleyi üçün narahat olan bu vətənpərvər gənclərin könüllü olaraq döyüşlərə getdiyini gördə qəlbimizi iftixar hissləri bürüyürdü. Belə cəsur, igid oğulları olan Vətən torpaqları qorxaq ermənilərin işğalında qala bilməzdi. Necə olursa-olsun, ərazilərimiz işğaldan azad olunmalıydı, düşməndən şəhidlərin intiqamı alınmalıydı.

2020-ci ilin sentyabr ayında Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə qismən səfərbərlik elan olundu. Torpaqlarımızın azadlığı uğrunda vuruşmaq istəyən oğullar qısa müddət ərzində böyük təntənə ilə ordu sıralarına yola salındı. Vətənin çətin günlərində əsgər gedən bu cəsur, vətənpərvər gənclərimiz döyüşlərdə cəsarətlə, hünərlə vuruşdular. Onlar əməliyyatlar zamanı uzun illərdən bəri ərazilərimizi işğalda saxlayan erməniləri məğlubiyyətə uğratdılar. Bir müddətdən sonra bu cəsur oğullar cəbhə bölgələrindən evlərinə başıuca qələbə müjdəsi ilə döndülər. Xalq bu döyüşçüləri qarşılayarkən bir ağızdan "Qələbən mübarək, Azərbaycan əsgəri!" dedi.

### Yavaş-yavaş Qarabağın havasını hiss edirdik...

Qarabağ uğrunda döyüşlər getdikcə, illər uzunu işğalda qalmış torpaqlarımız ermənilərdən azad edildikcə qələbəyə olan ümidimiz artırdı, inamımız ürəyimizdən bir az da boy verirdi. Müharibənin ilk həftələrindən Cəbrayıl rayonunun mərkəzinin və kəndlərinin, Füzuli rayonunun yaşayış məntəqələrinin, Tərtər rayonunun Talış, Suqovuşan kəndlərinin, Murov zirvəsinin, başqa kənd və yüksəkliklərin düşməndən azad edilməsindən sonra Qarabağımızın təmiz, saf havasını hiss etməyə başladıq. Azərbaycan Ordusunun zabit və əsgərləri böyük hünərlə, yenilməz qəhrəmanlıqla, yalnız qələbə naminə düşmən üzərinə atıldılar. Ordumuzun hissələri hər gün bir-birindən uğurlu əməliyyatlar həyata keçirdilər, Qarabağın azadlığı uğrunda ölüm qorxusu bilmədən cəsarətlə vuruşdular. Düşmənin mövqelərinə, zirehli texnikalarına, canlı qüvvələrinə dəqiq və sarsıdıcı zərbələr endirdilər. Yağılar nə qədər cəhd göstərsələr də, ehtiyat qüvvələrini döyüşə yönəltsələr də, cəsur döyüşçülərimizin qarşısında dayana bilməyib mövqelərini qoyub qaçdılar. Əminik ki, bu qaçışın, bu çöküşün bir daha dönüşü olmayacaq.

Azərbaycan Ordusunun zabit və əsgərləri torpaqlarımızın azadlığı uğrunda son damla qanlarınadək döyüşdülər! Cəsarətləri ilə qəhrəmanlıq tariximizdə pozulmayan izlər qoydular! Həmin günlər tariximizin səhifələrinə şərəf və iftixar dolu sözlərlə yazıldı. Şanlı ordumuz oktyabr və noyabr aylarında bir-birinin ardınca Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Xocavənd rayonlarını, bir sıra yaşayış məntəqələrini, Şuşa şəhərini erməni işğalçılarından azad etdi. Noyabrın 10-da qüvvəsi tükənən düşmən məğlubiyyət aktına imza ataraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını döyüşsüz qaytaracağı barədə öhdəlik götürdü. 28 illik işğaldan sonra ermənilər noyabrın 20-də Ağdamdan, noyabrın 25-də Kəlbəcərdən, dekabrın 1-də isə Laçından çıxdılar. Qəsbkarlar bu yerlərdən çıxmazdan əvvəl meşələri, evləri, mağaza və məktəbləri yandırdılar. Ağacları vəhşicəsinə doğrayıb maşınlara yükləyib apardılar. Dilsiz-ağızsız heyvanları barbarcasına kəsib-doğradılar. Ermənilər bu hərəkətləri ilə bir daha işğalçı, vəhşi olduqlarını bütün dünyaya göstərdilər. Hansı şərəfsizliklərə əl atsalar da, nə qələt etsələr də, axır ki, torpaqlarımızdan rədd olub getdilər.

### Azərbaycan əsgərinin addım səsləri

İllərdən bəri gün-gün, həftə-həftə, ay-ay ordumuzun həm qələbə ilə başa çatacaq uğurlu döyüşlərini, həm də erməni işğalçılarının hansı şəraitdə məhv ediləcəyini görmək arzusu ilə yaşayırdıq. Şükürlər olsun ki, nəhayət, 28 ildən sonra həmin günü, həmin anı görmək bizə nəsib oldu. Həyəcan və narahatlıqlarla dolu olan həmin çağlarda biz bəlkə də ömrümüzün ən çətin və şərəfli günlərini yaşadıq. Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində Azərbaycan Ordusu bütün cəbhəboyu erməni qəsbkarlarının mövqelərini sərrast atəş zərbələri ilə darmadağın etdi, şəhər və kəndlərimiz bir-birinin ardınca işğaldan azad olundu. Yağılar şanlı ordumuzun qarşısında dayana bilməyərək məhv olacaqlarından qorxub geri çəkildilər. İşğalçıların müqaviməti qısa müddət ərzində qırıldı. İyirmi səkkiz il qəsbdə qalan torpaqlarımızda Azərbaycan əsgərinin addım səsləri eşidildi. Bu addım səslərindən torpaq da sevindi, əsgər də, uzun illər doğma ocaqlarına həsrət qalmış insanlar da! Addımların mübarək, Azərbaycan əsgəri!

Qələbə ilə başa çatan əməliyyatlarda ordumuzun hissələri döyüş meydanlarında düşmənin yüzlərlə canlı qüvvəsini məhv etdi, onlarca hərbi texnikasının külünü göyə sovurdu. Ordumuzun cəsur zabit və əsgərləri Qarabağ uğrunda gedən döyüşlərdə yağılara sarsıdıcı zərbələr vurdu. Düşmən uzun illərdən bəri dayandığı və möhkəmləndiyi mövqeləri geridə qoyub gəldiyi məkana - Ermənistana qaçdı. Uğurlu döyüşlər addım-addım bizi qələbəyə yaxınlaşdırdı. Erməni qəsbkarlarının döyüş texnikaları, silah-sursat anbarları hərbçilərimizin dəqiq atəş zərbələri ilə məhv edildi.

Qarabağ uğrunda gedən döyüşlərdə ordumuzun qazandığı uğurları eşitdikcə ürəyimiz açılır, üzümüz gülür, qəlbimiz fərəhlə dolurdu. Bütün cəbhəboyu davam edən əməliyyatlarda zəfərlər qazanan Azərbaycan Ordusunun, onun sıralarında xidmət edən zabit və əsgərlərin cəmiyyətdə hörməti, nüfuzu getdikcə artırdı. Dəqiq atəş zərbələri ilə işğalçıları məhv edən ordusundan xalqımız yalnız və yalnız qələbə müjdələri eşidirdi. Azərbaycan Ordusu 44 gün ərzində iyirmi səkkiz il erməni işğalçılarının, erməni terrorçularının, erməni vandalizminin məskəni olan ərazilərimizi işğaldan azad etdi. İndi bu müqəddəs torpaqlardan qüdrətli Azərbaycan əsgərinin gur səsi gəlir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Ölümsüzlüyə qovuşanlar

# Cəbrayılda doğuldu, Cəbrayılda da şəhid oldu...




**"Ata... Atam gəlsin..." Bu, sentyabın 1-də 5 yaşı tamam olan körpə İncinin üç il öncə albomda və divarlardakı şəkillərə baxdıqdan sonra söylədikləridir. Göz yaşına boğulan nənəsi Raya xanım, anası Leyla, bibisi Xəzan da birtəhər özlərini ələ alaraq cavab veriblər ki, atan cənnətdədir...**

Totuq əllərini dişləyən balaca qızcığaz susub, yəqin uşaq ağlı ilə anlayıb ki, ora da elə səhər-səhər Vahid babanın, Zabil əminin evdən çıxıb getdiyi iş yerlərindən biridir. Oyuncaqları arasından tez-tez qapıya boylanır... Axşam tanıdıqlarının hamısı qayıdır, təkcə atasından başqa... Deyilənlərə görə, son vaxtlar bu barədə heç nə soruşmur, əsgər formalı ataların həmin məkanda daha çox, həmişəlik qaldıqlarını düşünür çox güman ki...

Zamin Rəhimov 1988-ci il aprelin 21-də Cəbrayıl rayonunun Məzrə kəndində dünyaya göz açmışdı. Lakin cəmi 5 il doğma ocağın istisinə qızına bilmişdi. Bədnam qonşuların xain hücumları bütün cəbrayıllılarla birgə, Rəhimovların da rayonu tərk etməsi, köçkünlük həyatının əzablarına qatlaşmaları ilə nəticələnmişdi. Ailə Biləsuvara pənah gətirdiyindən Zamin də rayonun 2 saylı qəsəbə məktəbində birinci sinfə qədəm qoymuşdu. Sonra Bakıya köçdülər, təhsilini Cəbrayıl rayonu, Ə.Veysəlov adına Sirik kənd orta məktəbində (Binəqədidə yerləşir) davam etmişdi.

2006-cı ildə həqiqi hərbi xidmətə çağırılaraq Şəmkirdə yerləşən "N" saylı hərbi hissədə rabitəçi ixtisasına yiyələndi. Əsgərlik borcunu yerinə yetirdikdən sonra Şuşa Musiqi Texnikumunda qarmon ixtisası üzrə təhsil aldı. 2012-ci ildə isə Cəbrayıl rayonu Mahmudlu kənd Uşaq Musiqi Məktəbində qarmon ixtisası müəllimi kimi fəaliyyətə başladı.

Zamin başdan-ayağa bir haqq savaşı ruhunda, igid döyüşçü libasında idi. 2020-ci ilin yayında erməni quldurlarının Tovuz istiqamətində təxribatları zamanı artıq səbrini cilovlaya bilmədi. İyulun 16-da könüllü şəkildə orduya yazıldı. Xüsusi hazırlığı nəzərə alınaraq oktyabın 1-də birbaşa ön xəttə çıxmağı məsləhət görüldü.

Maraqlıdır ki, həmin dönəmdə, yəni cəbhəyə hazırlaşarkən evdə kimsəyə bir söz deməyib, elə səfərbərlik günü də səhər tezdən onun işə getdiyini düşünüblər.

Atası Vahid Rəhimov: "Zamin musiqi üzrə təhsil alsa da, bütün sahələrdən baş çıxarırdı. Sanki sağ əlim idi... Bir dəqiqə boş dayanmazdı, bax, ev-eşikdə, həyət-bacada gördüyünüz təmir, quruculuq işlərinin hamısını dostları ilə birgə edib. Düşünüb bir ideya tapanda, hardasa nəyisə bəyənəndə gəlib material alıb düzüb qoşurdu. İndi burada hər şey onu xatırladır..."

Yolda nahar üçün dayandıqları vaxt təsadüfən qarşılaşdığı dayısı onu geri qaytarmaq istəyəndə yaman əsəbiləşib, hətta inciyib də... Ağsaqqal deyib, a bala, əyləş maşına, heç olmasa valideynlərinlə, evdəkilərlə vidalaş, sonra yola salarıq... Deyib, yox ey, elə ata-anamın yurdunu yağı düşmən caynağından xilas eləməyə gedirəm!..

Anası Raya xanım bu barədə qəm-qüssə içində, yana-yana danışır: "Neçə gün idi, qəsdən söhbəti hərləyib-fırlayıb dünyanın ötəriliyi üzərinə gətirir, məndən halallıq alırdı, fikirləşirdim buna nə olub belə..? Gül kimi ailəsi, balası, iş-gücü var... Həmin gün də sübhdən oyanıb yır-yığışla məşğuldum, darvazanın qarşısını süpürürdüm, çıxanda məni öpüb bağrına basdı, özümü qorumağı tapşırdı. Sanki qanad açıb uçurdu, bilsəydim, arxasınca bir dolça su atardım... (ağlayır)"

Zabil Rəhimov şəhidimizin böyük qardaşıdır, Müdafiə Nazirliyinin Hərbi Hospitalında rabitə xidməti rəisi vəzifəsində çalışır. Zaminin yaralanması barədə də öncə ona zəng vurublar: "Hospitalın giriş qapısında gözlədim, yaralıları gətirirdilər, neçə saat gözüm axtardı, cəbhə bölgəsindəki səhra lazaretləriylə də əlaqə saxladıq, dəqiqləşmədi. Sonra evdən zəng gəldi ki, gəl, qayıdıb... Məsələnin nə yerdə olduğunu anladım. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Zamin bizim hər şeyimiz, Cəbrayıl, Qarabağ da onun bütöv dünyası idi. Döyüş vaxtı da imkan düşəndə zəngləşirdik, qardaşımı heç vaxt belə xoşbəxt görməmişdim, səsindən bəxtiyarlıq yağırdı... Konkret ünvan göstərmədən ümumi şəkildə danışırdı, təcavüzkar erməniləri "iti qovan kimi" qovduqlarını, işğaldakı əraziləri götürdüklərini sevinclə muştuluqlayırdı. Həmin onu yoldan qaytarmaq istəyən dayıma da telefon açaraq "sənə dediyim yeri almışıq" müjdəsini verib. Ad çəkməyib, elə beləcə söyləyib - Cəbrayılı nəzərdə tuturmuş..."

Əsl insanlığı, sadəliyi, ünsiyyətcilliyi ona həm də çoxlu dostlar qazandırmışdı. Bu gün cismani yoxluğunda ən çox darıxan, dərd çəkən də dostları, sirdaşlarıdır. Vətənpərvər gənclərimiz Vəli İlyasov və Nəsimi Əliyev əziz qardaşlarını lal baxışları ilə soraqlamadıqları bir günün olmadığını bildirdilər.

Zamin 2020-ci il oktyabrın 8-də növbəti əks-hücum əməliyyatı zamanı doğulduğu və canından artıq sevdiyi Cəbrayılın yüksəklikləri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu, Biləcəri qəsəbəsindəki qəbiristanlıqda şəhidlər üçün ayrılmış hissədə torpağa tapşırıldı.

Rəhimovlar ailəsinin ən böyük təsəllisi isə onun yadigar qızı və Qarabağ torpaqlarının yağı tapdağından qurtuluşudur.

*Qurban MƏMMƏDOV*

Yaddaş

# Vəhşi ermənilərin insanlığa sığmayan vandallıqları

## Qəbirləri eşib ölülərimizin qızıl dişlərini sökənlərə başqa nə ad verəsən

Bəzən deyirlər ki, daşlar da danışır. Bu sözü eşitdiyimiz ilk dəqiqələrdə ona inanmağımız gəlmir. Hələ öz-özümüzə sual da veririk ki, necə yəni daşlar danışır? Sonra hansısa mənzərə və ya bir hadisə ilə qarşılaşanda görürük ki, sən demə, daşların danışması doğru imiş. Sükutla, səssizliklə baş-başa qalıb susa-susa danışırmış.






Zəngilan rayonunda ezamiyyətdəydik. Verilən tapşırıqları yerinə yetirdikdən sonra yaranmış boş vaxtdan istifadə edib əzizlərimizin, doğmalarımızın məzarını ziyarət etmək üçün qəbiristana üz tutduq. Bir vaxtlar axarlı-baxarlı olmuş, indi yetim uşaq kimi boynunu bükmüş küçələrdən keçib ölülərimizin uyuduğu məkana gedirik. Ətrafda gördüyümüz mənzərələrdən ürəyimiz ağrıyır, qəlbimiz göynəyirdi. Ermənilər o böyüklükdə rayon mərkəzində nə bir salamat ev, nə də bir bina qoyublar. Hər yeri uçurublar, dağıdıblar, viran qoyublar. Sanki burada doqquz baldan da güclü zəlzələ baş verib. Ev ev üstə dayanmayıb, daş daş üstə qalmayıb.

Belə üzücü mənzərələri seyr edə-edə rayon mərkəzini keçib bir az yuxarı qalxandan sonra çala-çökəkli torpaq yollarla qəbiristanlığa gəlib çatırıq. Burada gördüyümüz mənzərələr rayon mərkəzindəkindən daha dəhşətli, daha üzücüdür. Ermənilər rayon sakinlərini doğma ocaqlarından didərgin salandan sonra evləri qarət ediblər, talayıblar, yağmalayıblar. İşlərinə yarayan nə varsa, xırda əşyalarına qədər maşınlara yükləyib aparıblar. Bir sözlə, insanlığa sığmayan vəhşiliklər törədiblər.

Vandallar dirilərin var-dövlətini taladıqdan sonra ölüləri də rahat buraxmayıblar. İnsanlıq və bəşəriyyət tarixinə ləkə olan daşnaklar qəbiristanlıqda dəhşətli, tükürpədən vəhşiliklər törədiblər. Onlar bu ərazini traktorlarla düzləyiblər. Yəqin ki, buradan qəbirlərin izini silməyə çalışıblar. Traktorlar düzləmə işləri aparanda qəbirlərin baş və sinə daşlarını tırtıllarının altına alaraq parçalayıb. Başdaşlarından boylanan şəkillər, üstündəki yazılar əzik-əzik olub. Daşnaklar ölülərimizin də gor evində rahat yatmasına imkan verməyiblər. Böyük ərazisi olan qəbiristanlıqda bir salamat qalmış, uçurulmamış başdaşı, sinədaşı tapmaq mümkün deyil. Bu qaniçən işğalçılar sanki ölülərimizdən də qorxublar.

Ermənilər bəzi qəbirlərin yuxarı tərəfini goreşən heyvan kimi qazıq ediblər. Bu qazıntıdan başdaşlarının arxa tərəfində böyük və dərin çalalar əmələ gəlib. İlk baxışda fikirləşirsən ki, işğalçılar bu çalaları nə üçün qazıblar, torpağın bağrını nə məqsədə yaralayıblar? Burada nə itiriblər, nə axtarıblar? Xeyli götür-qoydan sonra ağlımıza gəldi ki, ermənilər qəbirlərin yuxarı hissəsini qızıl tapmaq üçün qazıblar. Torpağı ölünün kəllə sümüyünə çatana qədər qazıb, dişlərinə baxıblar. Qızıl olan dişi kəllə sümüyündən qoparıb götürüblər. Bu şərəfsizlər ölülərimizin hesabına da varlanmaq istəyiblər. Yaşlılardan daha çox cavanların qəbirlərini qazıblar. Güman ediblər ki, yaşlı adamların dişində qızıl olmaz.

Qəbiristanlıqları dağıtmaq, ölülərin qızıl dişlərini kəllə sümüyündən qoparmaq erməni faşizminin, erməni vandalizminin daha dəhşətli, daha eybəcər bir səhifəsidir. İnanmırıq ki, Yer üzündə erməni kimi insanlığa ləkə olan, belə çirkin hərəkətlər edən ikinci bir millət olsun. Bunları görəndən sonra deyə bilərik ki, vəhşilikdə, barbarlıqda daşnaklara Yer üzündə tay tapılmaz.

Bu üzücü mənzərələr bir anın içində bizi sarsıtdı. Elə bu sarsıntının təsiri altında ermənilərin parçalayıb ətrafa səpələdikləri qəbir daşlarından gözlərimizi çəkə bilmirdik. Daşların danışdığını bax, bu anlarda açıq-aydın hiss etdik. Erməni vəhşiliyinin qurbanı olmuş daşlar sakitliyə bürünüb sanki bizimlə pıçıltı ilə danışırdı. Kədər və qəm püskürən bu pıçıltılara qulaq asmaq olduqca dəhşətli idi. Ağrıya dözməyən lal daşlar dərindən ah çəkə-çəkə erməni vəhşiliyindən, erməni qəddarlığından danışırdı. İlahi, bu danışıqlardan qan qoxusu gəlirdi, acı göz yaşları süzülürdü. Erməni vəhşiliyi, erməni vandalizmi parçalanmış qəbir daşlarının üstünə hopub qalmışdı. Vandallar ölülərimizin gor evinin üstünə döşənən daşları da dağıdıblar, qırıb parça-parça ediblər. Yəqin ki, daşnaklar qəbir daşlarımızı qırmaqla xalqımızın yüzillik, minillik izini bu yerlərdən silməyə çalışıblar. Unudublar ki, qəbir daşlarını qırmaqla, sındırmaqla izimizi bu yerlərdən silmək mümkün deyil. Çünki xalqımızın adı, göstərdiyi qəhrəmanlıqları, xeyirxah əməlləri, mədəniyyəti, tikdiyi qalaları tarixin yaddaşına milyon illər əvvəldən yazılıb.

Ermənilər bu iyrənc əməlləri ilə adlarını tarixin səhifəsinə vəhşi bir millət kimi yazıblar. Özlərini bütün dünyaya barbar, qaniçən kimi təqdim ediblər. Onsuz da dünya erməniləri elə bu cür də tanıyırdı. Ölülərin gor evini dağıdan, başdaşlarını sındıran, goreşən vəhşi heyvanlar kimi qəbirləri qazıb qızıl diş axtaran ermənilərdən başqa nə gözləmək olardı ki?..

Deməli, doğrudan da, daşlar danışırmış. Amma danışdıqları çox kədərli və qəmli idi. Daşların danışdıqları ermənilərə nifrətlə dolu idi.

*V.MƏMMƏDQULUOĞLU,*
*"Azərbaycan"*

# Bakı Yeni il ərəfəsində







**Yeni ilin gəlişinə sayılı günlər qalıb. Paytaxt Bakı hər zaman olduğu kimi, bu il də 2024-cü ili özünəməxsus qarşılamağa hazırlaşır.**

Gecələr böyük küçə və meydanlarda xüsusi dizaynla bəzədilmiş küknar ağacları rəngarəng və gözoxşayan oyuncaqların, işıqların fonunda bərq vurur.

Uşaqların və böyüklərin bayramı olan Yeni il əyləncələri bu gün-sabah başlayacaq.

Bayram çələngləri və işıq qurğuları ilə bəzədilən paytaxt Bakı təkcə bakılıların deyil, dünyanın başqa ölkələrindən gələn turistlərin də zövqünü oxşayacaq. Şəhərin mərkəzində Yeni il yarmarkalarının, bayram konsertlərinin keçirilməsinə hazırlıq işləri tamamlanmaq üzrədir. Kütləvi şənliklər, səs-küylü yarmarkalar ötən illərdə olduğu kimi, yenə də insanların zövqünü oxşayacaq.

Şəhərin mərkəzi parkında qurulmuş küknar ağacı şaxta effekti verən simvollar və çələngləri olan işıqlarla bəzənərək indidən sakinlərin ixtiyarına verilib.




Ən böyük və qeyri-adi görünüşlü, fərqli tərtibatı ilə seçilən küknar isə Qız qalasının yaxınlığında "Azneft" meydanında qurulub. Xüsusi qeyd edək ki, baş tutacaq bayram şənlikləri təkcə Yeni ilin gəlişinə həsr olunmayıb. Dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü də qeyd olunacaq. Həmin gün parklar, meydanlar, küçələr al-əlvan rəngə boyanacaq.

Dənizkənarı Bulvarda, İçərişəhərdə əvvəlki illərdən fərqli və geniş formada xüsusi proqram əsasında bayram hazırlıqları işləri gedir. Bulvar ərazisində də Yeni ilin simvollarından ibarət rəngarəng kompozisiyalar, uşaqların zövqünü oxşayacaq çoxsaylı oyuncaq evlərin quraşdırılması qarşıdakı günlərdə başa çatacaq.

Dənizkənarı Milli Parkın "Köhnə bulvar" deyilən ərazisində, eləcə də Dövlət Kukla Teatrının arxasındakı sahədə hazırlıq işləri gedir. Burada xizəkli maral, retro avtomobil, hava ilə doldurulmuş oyuncaqlar bakılıların və şəhərin qonaqlarının ixtiyarına veriləcək. Üstəlik hər bir şənliyin vazkeçilməzi olan diskoteka, müxtəlif tamaşa, konsert işıq və alov şousu da şəhərin gözəlliyinə rəng qatacaq. Bir sözlə, şəhər sakinlərini və qonaqları maraqlı sürprizlər gözləyir.

*Züleyxa ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*






## Görmə qabiliyyəti zəif olanlar üçün yeni versiya yaradılıb

"Microsoft" şirkəti "Seeing AI" tətbiqinin Android versiyasını istifadəyə verib. Ödənişsiz təqdim edilən tətbiqin əsas məqsədi süni zəka əsaslı səsli köməkçi və kamera vasitəsilə görmə qabiliyyəti zəif insanlara ətraf mühitdə istiqamətlənməyə kömək etməkdir.




Şirkətdən bildirilib ki, yeni versiya iOS-un bütün funksionallığını özündə birləşdirir. Android versiyada reallaşdırılmış yeniliklərdən biri "More info" düyməsidir. Həmin düyməyə klikləyən zaman tətbiq smartfon kamerasının nəzərində olan obyektin görüntüsünü səsli təsvir edir.

Digər bir faydalı funksiya isə tətbiq tərəfindən skan edilən hər bir mətn barəsində məlumatın əldə olunmasıdır. İstifadəçi bunun sayəsində qida məhsulları və ya dərman preparatları üzərində yazılmış məlumatları səs vasitəsilə əldə edə bilər.




## "Apple"ın kredit kartı

"Apple" şirkəti "Chase" ilə birlikdə bütün istifadəçilər üçün kredit kartı təqdim etməyi düşünür. "Apple Card" adlı yeni məhsul təkcə ABŞ-də deyil, bütün dünyada istifadəyə yararlı olacaq.

"Apple" mütəxəssisləri bildiriblər ki, "Apple Card" "Chase MasterCard" ödəniş sistemi ilə işləyəcək, tətbiqi də rahat olacaq.

## Smartfona rəqib cihaz

"Humane" şirkəti smartfona alternativ yeni cihaz təqdim edib. Keçmiş "Apple" əməkdaşları tərəfindən yaradılan "Humane" startapı ənənəvi smartfonlara rəqib olacaq "AI Pin"i nümayiş etdirib.



Yeni məhsul maqnit bərkitmə ilə geyimə quraşdırılır. "AI Pin"in fərqli xüsusiyyəti onda displeyin olmamasıdır. Cihazla qarşılıqlı əlaqə səs əmrləri, kamera və sensorlar tərəfindən aşkar edilən jestlərdən istifadə etməklə həyata keçirilir. Bundan əlavə, cihaz müxtəlif səthlərdə məlumatları göstərə bilən proyektorla təchiz edilib. "AI Pin" "Microsoft" və "OpenAI" şirkətlərinin süni intellekt modellərinə qoşulmaq üçün "CosmOS" əməliyyat sistemindən və xüsusi "AI Mic" proqramından istifadə edir. Qurğu tamamilə avtonomdur və smartfonlarla sinxronizasiya tələb etmir. O, "Qualcomm"un "Snapdragon" prosessoru ilə təchiz edilib.

## "Meta" süni zəka servisi

"Meta" mətn formatında təsvirlər əsasında fotoların tərtibatını reallaşdıran süni zəka servisini təqdim edib. O, "Imagine with Meta" adını əldə edib. Servis tamamilə pulsuzdur və o, fotoların tərtibatı üçün nəzərdə tutulmuş "Emu" adlı süni zəka modeli əsasında çalışır.



İstifadəçilər "Imagine with Meta"dan istifadə edərək yüksəkkeyfiyyətli fotoları yarada bilərlər. Yaxın zamanda isə sözügedən servis tərtib edilən fotolara xüsusi şəffaf işarə əlavə etməyə başlayacaq. Həmin şəffaf işarə bu və ya digər fotonun məhz süni zəka tərəfindən tərtib edildiyini əks etdirəcək. Servis hələ ki, yalnız ABŞ-də çalışır.

## "ASUS"un yeni noutbuku



"ASUS" şirkəti "ZenBook 14 OLED" adlı yeni noutbukunu təqdim edib. Sözügedən cihaz nazik metal gövdəyə, böyükhəcmli yaddaşa və uzun müddət ərzində çalışma özəlliyinə sahibdir.

"ZenBook 14 OLED" 120 Hz-lik təsvir yenilənməsinə sahib Full HD keyfiyyətli 14 düym ekranla təchiz olunub. Ekranın maksimal parlaqlıq səviyyəsi 600 nit təşkil edir. Bununla yanaşı, ekran DCI-P3 rəng diapazonunun 100 faizini əhatə edir. Əsas texniki göstəricilər baxımından noutbuk "Core Ultra 7 155H" prosessoru, 32 GB RAM və 1 TB-lıq SSD ilə təchiz olunub.

Yeni noutbukun daha sadələşdirilmiş versiyası da mövcuddur. Bu versiya "Core Ultra 5 125H" prosessoru, 8 GB RAM və 512 GB-lıq SSD ilə təchiz olunub. O özündə USB Type-C və Type-A girişlərini birləşdirir. Cihazın batareya həcmi isə 75 vatt saat təşkil edir. Şirkətin sözlərinə əsasən, noutbuk bir dəfə şarj olunandan sonra 15 saat çalışa bilir.

Qeyd etmək lazımdır ki, "ZenBook 14 OLED" 2024-cü ilin əvvəlində satışa çıxacaq.



## Yeni oyun monitoru

"Acer" şirkəti "Nitro" adlı seriyasının yeni oyun monitorunu təqdim edib. "Acer Nitro XV275UX" adlı monitor "Quad HD" keyfiyyətli 27 düym IPS ekranla təchiz olunub. Ekranın maksimal parlaqlıq səviyyəsi 300 nit təşkil edir və o, sRGB rəng diapazonunun 99 faizini əhatə edir. Yeni cihaz özündə HDMI 2.0, DisplayPort 1.4, USB-C girişlərini birləşdirir. Bununla yanaşı, monitora hər biri 3 vatt gücündə olan 2 ədəd səsgücləndirici quraşdırılıb.

"Acer Nitro XV275UX"un nə zaman və hansı qiymətə satışa çıxacağı barədə hələlik məlumat verilməyib.

## "Moskviç" zavodu hibrid avtomobillər istehsal edəcək

"Moskviç" avtomobil zavodu hibrid avtomobillər istehsal edəcək.



Bu barədə şirkətin istehsalat direktoru Oleq Maslyakov məlumat verib. O deyib ki, 2027-ci ilə qədər zavodda "M2" simvolu altında yeni model və hibrid "M5" modeli istehsal ediləcək. Eyni zamanda mövcud avtomobillərə vizual dəyişiklik ediləcək.

O.Maslyakovun sözlərinə görə, hibrid avtomobillər 2 min kilometrə qədər enerji doldurmadan hərəkət edə biləcəklər.




## "Windows 12" təqdim ediləcək

"Windows 12" 2024-cü ilin iyununda təqdim ediləcək. Şirkətin növbəti əməliyyat sistemində süni intellektə əsaslanan funksiyaların mövcud olacağı bildirilib. "Windows 12"dəki süni intellekt sistemləri işləkliyin artırılması, təhlükəsizlik və istifadəçi təcrübəsinin yaxşılaşdırılması üçün nəzərdə tutulub.

"Microsoft"un yeni əməliyyat sisteminin "Ryzen 7000" və "Intel Meteor Lake" prosessorları ilə süni intellekt qurğularının xüsusiyyətlərini dəstəkləməsi gözlənilir.

"Microsoft" yeni sistem barədə təfərrüatları önümüzdəki aylarda açıqlayacaq.

## "Xperia" smartfonlarının satışı dayandırılacaq

"Sony" 2024-cü ildə "Xperia" telefon modellərinin satışını rəsmi olaraq dayandırmaq qərarına gəlib. Şirkətin "Sony Phone" adlı yeni cihaz xəttini təqdim edəcəyi, korporasiyanın 2025-ci ildə yeni dizaynla bazara qayıdacağı təxmin edilir.




"Xperia" ticarət nişanı 2008-ci ildə satışa çıxarılıb. Bu marka altında buraxılan ilk smartfon "Xperia X1" idi. Bundan əvvəl şirkət "Sony Ericsson" brendi altında telefonlar istehsal edirdi.

Qeyd etmək lazımdır ki, qlobal bazarda bu firma təxminən 0,35 faiz paya sahibdir və 14-cü yerdədir.

## Kuryer-robotların sayı artır

"Yandex" 2024-cü ildə çatdırılma xidməti göstərən robotlarının sayını 130-dan 260-a yüksəldəcək. Şirkət robotlarını icarəyə verməyi də planlaşdırır.




"Yandex"dən bildirilib ki, hazırda xidmət göstərən təxminən 15 robot əhalisi beş min nəfər olan yaşayış məntəqəsinə yemək və məhsulların tədarük edilməsi üçün kifayət edir. Şirkətin sifarişçiləri arasında hotellər və mağazalar, yaşayış kompleksləri, yaradıcılıq klasterləri və universitet kampusları da var.

Qeyd etmək lazımdır ki, "Yandex"in kuryer-robot xidməti 2019-cu ildə işə salınıb. Onlar, əsasən, iri şəhərlərdə fəaliyyət göstərirlər. Xidmət işə salındığı vaxtdan indiyədək robotlar 600 min kilometr yol qət ediblər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5270
Sifariş 3272

Qiyməti 40 qəpik